YEQZAR CƏFƏRLİ

NƏRİMAN ƏBDÜLRƏHMANLININ BƏDİİ YARADICILIĞI

Monoqrafiya

YEQZAR CƏFƏRLİ

NƏRİMAN ƏBDÜLRƏHMANLININ BƏDİİ YARADICILIĞI

YEQZAR CƏFƏRLİ

NƏRİMAN ƏBDÜLRƏHMANLININ BƏDİİ YARADICILIĞI

2017

Redaktor:
Bədirxan ƏHMƏDLİ,
filologiya elmləri doktoru, professor

Elmi rəhbər:
Cavanşir YUSİFLİ
filologiya elmləri doktoru, professor

Elmi redaktor:
Dr. Emin AĞAYEV,

Bakı Mühəndislik Universiteti
Dosent, Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri

Rəyçilər:
Dr. Sədrəddin Hüseyn
filologiya üzrə fəlsəfə doktoru,

Azərbaycan dili və ədəbiyyatı kafedrasının baş müəllimi

Dr. Jalə Zeynallı
filologiya üzrə fəlsəfə doktoru,
Azərbaycan dili və ədəbiyyatı kafedrasının müəllimi

Cəfərli Y. Nəriman Əbdülrəhmanlının bədii yardıcılığı. Monoqrafiya. Bakı, "Qanun" nəşriyyatı, 2017, 150 səh., 300 tiraj.

İmzası artıq oxuxulara yaxşı tanış olan gənc araşdırıcı Yeqzar Cəfərlinin bu monoqrafiyasında Azərbaycan ədəbiyyatının 80-ci illər nəslinə mənsub olan tanınmış nasir və tərcüməçi Nəriman Əbdülrəhmanlının bədii yaradıcılığı hekayə, povest və romanları araşdırılıb. Müəllif yazıçının əsərlərinin mövzu, üslub, dil, obrazlar sistemi və başqa xüsusiyyətlərini araşdırır, onun portretinin maraqlı cizgilərini aşkara çıxarır.

ÖN SÖZ

GƏNC TƏDQİQATÇININ UĞURLU ƏSƏRİ

Nəriman Əbdülrəhmanlı artıq çoxdan bəri dövrləşdirilməsi ənənə halını almış ədəbiyyatımızın 80-cilər ədəbi nəslinə mənsubdur. Bu dövr ədəbiyyatımıza Afaq Məsud, Aqil Abbas, Eyvaz Əlləzoğlu, Əlabbas, Saday Budaqlı, Cavanşir Yusifli, Fəxri Uğurlu kimi, Azərbaycan oxucusunun sevdiyi, qəbul etdiyi onlarla nasir, şair, tənqidçi və tərcüməçi bəxş edib. Bu dövrdə yetişmiş yaradıcı nəslin bəzi nümayəndələri ilə müqayisədə qismən az tanınsa da, tam məsuliyyətlə demək mümkündür ki, öz yaradıcılıq miqyası ilə diqqəti çəkən, bu gün özünəməxsus və oxunaqlı əsərləri yadda qalan yazıçılardan biri də Nəriman Əbdülrəhmanlıdır.

N.Əbdülrəhmanlı çoxşaxəli yaradıcılığı, ədəbiyyatın bir çox janrlarında qələmə aldığı dəyərli nümunələrlə yaradıcılıq potensialının, təhkiyə arealının xeyli zəngin olduğunu göstərir. Özünəməxsus maraqlı təhkiyə üslubu olan yazıçının idealları əsasən həyatla çarpışmaqda olan, cəmiyyətdə öz yerini tapa bilməyən insanlar və tarixdə iz buraxmış görkəmli şəxsiyyətlərdir.

Bu qoşa xətt onun əsərlərində ardıcıl inkişaf edərək, müxtəlif məkanlarda, müxtəlif rollarda əks olunaraq öz aktuallığını artırır.

N.Əbdülrəhmanlının yaradıcılığı mənsub olduğu ədəbi nəslin digər nümayəndələrinin yaradıcılığına nisbətən çox zəngindir. Bu da tədqiqatçılar, xüsusilə də gənc araşdırcıılar üçün müəyyən çətinliklər törədir. Məsələnin çətinliyi bir də ondadır ki, çox məhsuldar olan qələm sahibinin yaradıcılığını izləmək demək olar ki, mümkün deyil. Çünki, araşdırmaçı onun yaradıcılığını izlədiyi müddətdə N. Əbdülrəhmanlı daha bir sanballı əsər ortaya qoyur. Onun zəngin yaradıcılığının araşdırılmasına Universitetimizin Azərbaycan dili və ədəbiyyat kafedrasında böyük ehtiyac var idi. Ona görə də mövzunu kafedranın Azərbaycan

ədəbiyyatı magistratura ixtisasında oxuyanda gələcəyinə böyük ümid bəslədiyimiz gənc ədəbiyyatşünas Yeqzar Cəfərliyə tapşırdıq. Nəticədə Yeqzar Cəfərli xalq içindən çıxmış yazıçı haqqında elə sadə xalq dilində də olan araşdırma araya-ərsəyə gətirdi.

Gənc tədqiqatçı öz diqqətini N.Əbdülrəhmanlının bir əsəri üzərində deyil, onun bütün bədii yaradıcılığına yönəltmişdir. Bu yaradıcılıq isə çoxşaxəlidir. Mövzu müxtəlifliyi olsa da onun yaradıcılığını birləşdirən bir ümumi cəhət vardır: N.Əbdülrəhmanlının qəhrəmanları onun öz xarakterini müəyyənləşdirir.

Ədibi cəmiyyətimizin təbii toxumasının pozulmasına yönəlmiş hər bir əməl narahat edir. Ailə institutumuzun, millli düşüncəmizin dağılmasına gətirib çıxaran bir çox məsələlər öz kökünə qırılmaz tellərlə bağlı olan yazıçını narahat etməyə bilməz.

Bu gün potensial bir romançı olan N.Əbdülrəhmanlı hər əsəri ilə yetkinliyə döğru addımlayır. Bu yetkinliyin yolu isə nəsir, publisistika, kino araşdırmalaı kimi, həm də tərcümədən keçir. Yazıçının bu sahədəki uğurları hamımıza məlumdur.

İnsanları, xüsusən də yaradıcı insanı azad, həm də olduğu kimi görmək N.Əbdülrəhmanlının ən böyük arzususdur. Amma onun qəhrəmanları yalqızdır, gələcək həyat yollarını müəyyən edə bilmir, qarşılarına çıxan gürbəcür çətinliklərlə çarpışırlar. Bu, onun bütün yaradıcılığına xas olnan xüsusiyyətlərdəndir. Yazıçının qəhrəmanları həyatdan zərbə alan kimi sarsılır, çıxış yolunu tapa bilmir, müəyyən bir möcüzə nəticəsində həyatlarının müsbətə doğru dəyişəcəyinə ümid edir, xilas olacaqlarına ümid bəsləyirlər.

Hər bir əsərində fərqli problem qaldıran N.Əbdülrəhmanlı yaradıcılığını birləşdirən umumi cəhətlər bugünkü cəmiyyətimizin sosial bəlaları, bir də tarixi geçmişimizin maraqlı və yaddaşımızda möhkəm yer tutmuş səfifələridir. O,

insanların, xüsusən də ziyalıların depresiya vəziyyətini cəmiyyətin, taleyin günahı sayır, tarixi keçmişə münasibəti laqeydlikdən xilas etməyə çalışır.

N.Əbdülrəhmanlının bir çox qəhrəmanları bugünkü cəmiyyətimizdə kifayət qədərdir. Ona görə onun əsərlərini oxuyub araşdırmaqla cəmiyyət üzərində güclü müşahidə aparmaq gərəkir.

Yazıçının qələmə aldığı bədii nümunələr, yazdığı ssenarilər, çoxlu sayda tərcümələri onun yaradıclığının zəngin olduğunu və bundan sonra da tədqiqata ehtiyac yaranacağını bir daha göstərir. Biz Azərbaycan dili və ədəbiyyatı kafedrasının əməkdaşı Yeqzar Cəfərlinin bu işini böyük uğur hesab edir, gənc ədəbiyyatşünasa gələcək elmi araşdırmalarında müvəffəqiyyətlər arzulayırıq.

Emin AĞAYEV,
filologiya üzrə fəlsəfə doktoru, dosent.
Bakı Mühəndislik Universiteti
Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri

GİRİŞ

80-ci illər ədəbiyyatının nümayəndələrindən biri olan Nəriman Əbdülrəhmanlı öz genişşaxəli yaradcılığı ilə ədəbiyyat xəzinəmizi zənginləşdirmişdir. Toxunduğu mövzularla bir növ Azərbaycan həyatının güzgüsü ola biləcək problemləri canlandıran yazıçı yaratdığı obrazların dili ilə həmin problemləri bədiiləşdirir, oxucunu dərindən düşünməyə vadar edir. Monoqrafiyada nasir N.Əbdülrəhmanlının bədii yaradıcılığı tədqiqata cəlb olunur, haqqında yazılan məqalələr və araşdırmalarla bağlı məlumat verilir.

N.Əbdülrəhmanlı böyük portret yaratmaq bacarığı olan yazıçılardandır. O, bu bacarığını bədii yaradıcılığında olduğu kimi publisistik yaradıcılığında da davam etdirib, ilk yaradıcılıq addımları atdığı 80-ci illərdə ədəbiyyatşünas alim Dilarə Əliyeva haqqında "Ömrün ən uzun günü", tanınmış alim Fərhad Xubanlı haqqında "Ömrün ağ cığırı", texnika üzrə alim Nizami Həsənov haqqında "Torpağa borcum var", riyaziyyatçı alim İbrahim Nəbiyev haqqında "İlk uğur", müharibə veteranları olan Əjdər Sadıqov haqqında "Alovlardan keçmiş ömür", Mayıl Xıdırov haqqında "Qələbəyə yaxın idi", müğənni Natiq Mirzəyev haqqında "Ulu səsin işığı", Xalq şairi B.Vahabzadə haqqında "Ömrün müdriklik çağı", şair Abbas Abdulla haqqında "Dünyanın cazibə qanunu", İsa İsmayılzadə haqqında "Mənəvi körpülər", eləcə də gürcü mədəniyyət xadimləri haqqında onlarla publisistik yazılar araya-ərsəyə gətirib.

Ədəbiyyatımızın "60-cılar" adlanan məşhur nəslinin nümayəndələrindən biri olan şair və nasir Arif Mustafazadə haqqında "Qaraçuxası yatan adam", Vaqif Səmədoğlu haqqında "Darıxan Adam haqqında etüd", İsa İsmayılzadə və Ələkbər Salahzadə haqqında "Qoşa portret", sonra İsa İsmayılzadə haqqında daha bir yazı - "İsa İsmayılzadə, yaxud Sözün rəsmi", istedadı hələ çox gənckən parlamış Vidadi Paşayev haqqında "Tökülən yarpaqların qoxusu", 60-cı illərdə millətçilik

hərəkatının öncüllərindən biri olan, “Tanqo” ləqəbi ilə tanınan Tanrıqulu Əliyev haqqında “Tanqo-ölüm oyunu”, Zəlimxan Yaqub haqqında “Ruhumuzun Zəlimxan məqamı”, Nobel mükafatçısı, türk yazıçısı Orxan Pamuk haqqında “Avropaya roman yazmağı öyrədən yazıçı” yazıları, eləcə də Əsgər Rəsulov, Sabir Bəşirov, Aslan Quliyev, Əlabbas, Firuz Mustafa, Bədirxan Əhmədli, Eyvaz Əlləzoğlu, Nurafiz, Cavanşir Yusifli, Əjdər Ol, Fəxru Uğurlu, Rafiq Hümmət, Etimad Başkeçid və digər qələm sahibləri haqqında tutumlu portretləri Azərbaycan publisistikasının gözəl nümunələridir. Həmin yazıların statistikası haqqında N.Əbdülrəhmanlı yaradıcılığının tədqiqatçısı Sabir Bəşirovun “Nəriman Əbdülrəhmanlı: İşıq adamı” kitabında ətraflı məlumat alırıq. Ona görə də təkrardan çəkinərək N.Əbdülrəhmanlının yüzlərlə digər məqaləsinin, eləcə də kitablara yazdığı onlarla ressenziyanın adını çəkməyə ehtiyac duymadıq.

O, eyni zamanda bir neçə sənədli nəsr kitabının müəllifidir, həm də dəyərli söz adamlarının kitablarını tərtib və nəşr etdirməyi özünün mənəvi borcu sayır. Məhz bunun nəticəsidir ki, yazıçı son 20 ildə “Qaraçöp” ədəbi-etnoqrafik toplusu ilə yanaşı, İsa İsmayılzadə, Aydın Məmmədov, Vidadi Məmmədov, Natiq Səfərov, Arif Mustafazadə, Fərhad Xubanlı, Xanəli Kərimli, Nurafiz, Nizami Zöhrabi, xaqani Qayıblı kimi qələm adamlarını kitablarının araya-ərsəyə gəlməsində böyük zəhmət sərf edib. Onun tərtib etdiyi, maraqla qarşılanmış “Təhlə ədəbi antologiyası” və “Daşkəsən ədəbi antologiyası” ilə yanaşı, hələ işıq üzü görməmiş ikicildlik “Səksənincilər” ədəbi antologiyası da məhz ədəbiyyatımıza sonsuz sevginin təzahürüdür.

***

N.Əbdülrəhmanlının həyatının və yaradıcılığının mühüm bir hissəsi kino yaradıcılığı ilə bağlıdır. O, hələ Bakı Dövlət Universitetində təhsil aldığı illərdə ekran sənəti ilə ciddi maraqlanıb, 1978-1979-cu illlərdə C.Cabbarlı adına

“Azərbaycanfilm” kinostudiyasının nəzdində yaradılmış kino məktəbinin ssenari emalatxanasında təhsil alıb, burada dövrünün nəhəng rejissorları və aktyorları ilə - Əlisəttar Atakişiyev, Hüseyn Seyidzadə, Şamil Mahmudbəyov, Şahmar Ələkbərov, Hamlet Xanızadə, Rasim Balayevlə yaxın təmasda olmuş, onlarla çiyin-çiyinə çalışmışdır. Sonralar, 1982-ci ildə Daşkəsən rayonunda təyinatla çalışdığı illərdə yazıçı-kinodramaturq Əhmədağa Muğanlının “Çobanbayatı” povestinin motivləri əsasında “Qocalar... qocalar” bədii televiziya filminin çəkilişində yaxından iştirak etmiş və hətta epizodik rollardan birinə çəkilmişdir. 1987-ci ildə, Sovetlər Birliyinin mövcud olduğu müddətdə Tbilisidə keçirilən son Ümumittifaq Kinofestivalı onun həyatını dəyişdirmişdir. Ümumiyyətlə, bu ili onun yaradıcılığı üçün əlamətdar il saymaq olar. Həmin ildə o, bir çox Azərbaycan və gürcü rejissorları və aktyorları ilə görüşüb sıx yaradıcılıq əlaqələri qurdu. Onun kino sənətinə həsr etdiyi onlarla məqaləsinin bir çoxu məhz o dövrdə yazılmışdır. Bunlardan Həsən Turabovun ekranlaşdırdığı “Atları yəhərləyin (Qaçaq Nəbi)” filmi haqqında “Ədəbiyyat və İncəsənət” qəzetində dərc etdirdiyi “Ayna ləkəsiz olmalıdır” məqaləsində yazıçı filmin bütün cəhətlərini ustalıqla göstərmiş, həmin yazı Kinematoqrafçılar İttifaqının xüsusi yığıncağında müzakirə olunmuşdur.

Müstəqillik uğrunda milli oyanış hərəkatı başlayanda N.Əbdülrəhmanlı bu mübarizəyə qoşulan ilk ziyalılarımız arasında olmuşdur. Bu zaman o, kino yaradıcılığını davam etdirmiş, “Kino” və “Yeni filmlər” qəzetində ayrı-ayrı filmlər və ekran ustaları haqqında dalbadal tənqidi qeydlərini çap etdirirdi. Adil İsgəndərov haqqında “Boşluq ağrısı”, Kazım Ziya haqqında “Bədbəxt Kazım Ziya və günahsız övladlar”, Yusif Yıldız haqqında “Yusif Yıldız kimdir?”, Xeyri Əmirzadə haqqında “Azərbaycan kino sənətçisi olan bir Krım türkü”, Yusif Nərimanov haqqında “Nərimanov soyundan olan bir talesiz sənətçi” , Zeynəb Kazımova haqqında “Bu dünyada nəyi qaldı?”, habelə “Azərbaycan kinosunda müharibə mövzusu”, “Azərbaycan-gürcü kino əlaqələri”, Serqo Zakaradze

haqqında “Gürcü xalqının əsgər atası”, Türkan Şoray haqqında “Yaşılcamdan doğan ulduz”, Fatma Girik haqqında “Atəş gözlü mələk” kimi sanballı yazıları məhz həmin məhsuldar illərin bəhrəsidir.

Müəllif bir çox kino və səhnə ustaları, Hamlet Xanızadə haqqında “Mələklə iblis arasında”, Hüseyn Seyidzadə haqqında “Bu da elə bir ömürdü”, Ülvi Rəcəb haqqında “Şimşək kimi çaxan ömür”, Nodar Şaşıqoğlu haqqında “Mixaylo yenə şəhərdədir”, Şamil Mahmudbəyov haqqında “İlk milli kino təşkilatçısı Şamil Mahmudbəyov”, Rasim Balayev haqqında “Sənətin əzabları və sevincləri”, Fəxrəddin Manafov haqqında “Sənət yolu əzablardan keçir” və eləcə də Şahmar Ələkbərov, Vaqif Mustafayev haqqında yazdığı portret xarakterli yazıları “Azadlıq”, “Rezonans”, “Xalq qəzeti” qəzetlərində və “Qobustan”, “Xəzər” dərgilərində nəşr etdirirdi.

Azərbaycanın ayrı-ayrı kino və kino xadimlərinə həsr etdiyi yazılarla yanaşı o, türk, rus və gürcü kino və kino xadimləri haqqında da bir çox maraqlı yazıların müəllifidir. “Nazimin ekran ömrü”ndə türk şairi Nazim Hikmətin kino yaradıcılığını araşdırmış, sonra “Başıbəlalı Aşıq Qərib”, “Məddahlıq peşə idi”, “Qatır Məmmədin ekran taleyi”, “Şair ömrü ekranda” (Nizami Gəncəvi və Səməd Vurğunun həyatı və ekran) filmlərə resenziyaları (“Kökdən qopmağın faciəsi”, “El bir olsa”, “Yarımçıq səmimiyyət olmaz”, “Bir dəfə yüksələn bayraq”, “Mozalan” kino jurnalı (Ziyafət Abbasov), “Azərbaycanfilm” kinostudiyası (Ramiz Rövşən) baş redaktorları və yazıçı ssenariçi Mövlud Süleymanlı ilə müsahibələri, xarici kino sənətçiləri Andrey Tarkovski (“Mələyi görən adam”), Briçit Bardo (“Taleyin ünvanı: Reomyur küçəsi, 100”), Ronald Reyqan (“Həyatla ekran arasında”), Rober Osseyn (“Tək-tənha ağlayan adam”), Merlin Monro (“əsrin ən gözəl əfsanəsi”), Ömər Şərif (“Şərqlə Qərb arasında”), Yılmaz Güney (“Mübarizəyə aldanmış sənətçi”), Martin Skorseze (Martin Skorsezenin son günahı”), Con Qaffari (“Hollivudda bir içərişəhərli”), Lyu de Funes (“Bir gülüş alverçisi vardı”), Türkan

Şoray (“Əsrin türk əfsanəsi”), eləcə də Lev Nikulin, Jan-Lyuk Qodar, Brüs Linin portretləri, Otar İoseliani (“Məndən ötrü başlıca şey insanlar arasında münasibətdi”), Revaz Çxeidze (“Bizi bağlayan tellərdən biri də kinematoqrafdır”), Aftandil Maxaradze (“Azərbaycan kinosu üçün nakəs ola bilmərəm”) ilə müsahibələr N.Əbdülrəhmanlının kinopublisistikasının bir hissəsini təşkil edir. Onun “Kiçik pəncərədən görünən dünya” (rejissor Oqtay Salamzadənin eyni adlı kitabı), “Aktyorun portret cizgiləri və xarakter düzümü (Əlisəftər Hüseynovun “Həsən Məmmədov” monoqrafiyası), “Gərəkli bir işin başlanğıcı” (T.İsmayılovun “Türk cumhuriyyətləri kino tarixi” üçcildliyi) ressenziyaları, həmin illərdə “Ədəbiyyat və incəsənət” qəzetinin dəyirmi masasında səsləndirdiyi fikirlər də kino kino araşdırıcıları üçün maraq kəsb edir. Sonralar Əlisəttar Atakişiyev, Hüseyn Seyidzadə, Əjdər İbrahimov, Şamil Mahmudbəyov, Hamlet Xanızadə, Səməndər Rzayev, Vidadi Paşayevin yaradıcılıq portretlərinə müraciət etməsi məhz ekrana olan sevgisinin nəticəsi idi. Bütün bunların nəticəsi kimi, o, sonralar hələ işıq üzü görməmiş dördcildlik “Azərbaycan kino sənəti tarixi” monoqrafiyasını qələmə alıb.

Nəriman Əbdülrəhmanlı digər janrlarda yazdığı əsərlərdə olduğu kimi, ssenarilərində də çox maraqlı portretlər yarada bilmişdir. Kinostudiyanın nəzdində yaradılmış “Yaddaş” sənədli filmlər studiyası N.Əbdülrühmanlının bu yöndəki fəaliyyətində böyük rol oynadı. Məhz həmin studiyada redaktor və baş redaktor kimi işlədiyi illərdə o, özünün kinossenari yaradıcılığında ilk qələm təcrübəsi olan “Haray” ssenarisini qələmə aldı. Burada Daşkəsəndə sadə əmək insanı olan Cəlal kişinin öz peşəsinə məhəbbətindən söz açılır. Sonralar onun ssenarisi üzrə çəkilmiş «Sərhəd», «Ağ-qara dünya», «Miras», «General Rəsulbəyov», «Şeytanbazar», «Əzablı yollarla» (3 seriyalı, N. Nəsibzadə və Y.Tunalla birgə) sənədli filmləri bir sıra beynəlxalq festivallarda mükafatlara layiq görülüb.

1992-93-cü illərdə Qurban Səidin “Əli və Nino” romanının motivləri əsasında “Burulğanlar” ssenarisini, eləcə də ”Çevrilmə”, “Qurd qapısı”, “Zədə”, “Noktürn”, “Adsız”, “Aşıq”, “Qəbir daşları” və onlarla bu kimi bədii və sənədli filmlər ssenarisi yazmış, amma həmin ssenarilər müxtəlif səbəblər üzündən gerçəkləşdirilməyib. 1993-cü ildə “PAKT” kinostudiyası tərəfində çəkilən tanınmış yazıçı C.Əmirovun “Qara Volqa” əsərinin motivləri əsasında çəkiləcək filmin ssenarisini yazmaq N.Əbdülrəhmanlıya təklif olundu. Bu, artıq sözü gedən sahədə N.Əbdürrəhmanın tam püxtələşdiyindən xəbər verirdi. Çünki, yazılışından bir neçə on il keçməsinə baxmayaraq “Qara volqa” hələ də öz papulyarlığını itirməmişdi. Həm də bu ssenarini elə yazmaq lazım idi ki, əsərin roman variantına xələl gəlməsin. O, bu işin öhdəsindən gəldi. Film geniş tamaşaçı kütləsinin rəğbətini qazandı. Sonra isə görkəmli sənədkarımız Şamil Mahmudbəyovun son ekran işi olan “Adam” (B.Abbaszadə ilə birgə) bədii televiziya filmi üçün yazdığı ssenari isə 2008-ci ildə ekranlaşdırıldı, bir neçə il sonra tejissor, Əməkdar İncəsənət Xadimi Nizami Abbas tərəfindən tamamlandı.

N.Əbdülrəhmanlının 2003-2004-cü illərdə “Lider televiziyasında çalışan zaman gerçəkləşdirdiyi layihə də böyük maraqla qarşılanıb. Tarixdən bəllidir ki, məşhur fransız yazıçısı A.Düma Qafqaza səfər etmiş, Xurşudbanu Natəvanla görüşmüş, bir-birinə hədiyyələr bəxş etmişlər. O, “Düma ömrünün qırx günü” telehekayəsində qeyd etdiyimiz məsələdən bəhs olunur. “Ömürdən uzun yol” da Ahısqa türklərinin acınacaqlı sürgün həyatından, “Gündoğar ölkəyə sevgilərlə”də yapon mədəniyyətinin özəlliklərindən, “Yaddaş sınağı”nda 20 yanvar hadisələrindən bəhs edir, “Tökülən yarpaqların qoxusu”nda yazıçı Vidadi Paşayevin, “Bütün qadağaların fövqündə”də kinorejissor Hüseyn Seyidzadənin, “Şöhrət, yaxud unudulan adam”da kinorejissor Əlisəttar Atakişiyevin, “Şimşəklər kimi”də kinorejissor Lətif Səfərovun yaradıcılıq yolu izlənilir. O, eyni zamanda «Paris kədəri» (Ceyhun bəy Hacıbəyli haqqında), «İşıq ömrü» (Həsən bəy Ağayev

haqqında), «Vaxtın o üzündə» (Caz ustası Pərviz Rüstəmbəyov haqqında), «Turan sevgisi» (Əli bəy Hüseynzadə haqqında), «Yeddi duyum» (Əli Kərim haqqında), «Tanrı adamı» (Xudadat bəy Rəfibəyov haqqında), «Qürbət eskizləri» (rəssam Səlim Turan haqqında),«Tale yolları» (Əhməd bəy Ağaoğlu haqqında), «Çarpaz bucaqlar arasında» (Vidadi Məmmədov haqqında), «Qəlbin ay işığı» (bəstəkar Qənbər Hüseynli haqqında), "Yarımçıq triptix» (rəssam Yalçın Əfəndiyev haqqında), «İşığın rapsodiyası» (rəssam Nailə Seyfi haqqında), «Bahar ömürlü insan» (professor Faiq Bağırzadə haqqında), «Günorta qatarı» (bəstəkar Rafiq Babayev haqqında), «Naxışlı hekayət» (Gəncə muzeyi haqqında), «Nikanın nağılları» (sənətçi Nigar babayeva haqqında), «Qərib bir səs» (müğənnı Nərminə Məmmədova haqqında) sənədli televiziya filmlərinin ssenari müəllifidir, eyni zamanda ssenariləri əsasında həm də neçə-neçə etüdlər lentə alınıb.

Onun kino sənətindəki fəaliyyəti təkcə gözəl ssenarilər yazmaqla bitmir. O, həm də bir sıra ekran əsərlərinin redaktoru kimi tanınırr. "Birlik" studiyası tərəfindən çəkilmiş "Terra inkoqnito" ("Nəməlum torpaq") və "Borçalı" studiyası tərəfindən çəkilmiş "Fövqəldünya" sənədli və "Hər şey yaxşılığa doğru" bədii filmləri məhz belə ekran əsərlərindəndir.

N.Əbdülrəhmanlının kino yaradıcılığını izləyəndə aydın olur ki, o, hələ də kinoda öz sözünü tamam deməyib, elə öz əsərləri üzrə maraqlı ekran əsərləri üzə çıxarmaq mümkündür. Bu yöndəki fəaliyyətini o, "Mənim nakam sevgim" kimi xarakterizə edir. Əminik ki, azərbaycan kinosu onun ekran istedadından yetərincə istifadə etməməyinin acısını bir gün çəkəcək.

Müəllifin qələm dostu Əlabbas yazır: *"Nərimanın ortaya çıxardıqlarını xatırlayaraq (kino sənətinin tədqiqinə dair 1000 səhifəlik tədqiqat əsərindən tutmuş araya-ərsəyə gətirdiyi irili-xırdalı yüzlərlə əsərəcən) o şeyə mat qaldığımı gizlədə bilmirəm ki, insan beyni yəni, gerçəkdən, bu qədər geniş, hüdudsuz, bitib-tükənməyən imkanlara, enerji, güc və izaha gəlməyən sirlərə malikdir?"*

***

Yaşıdları olan ədəbi nəslin isdedadlı qələm adamı kimi qiymətləndirdiyi N.Əbdürrəhmanlı öz qələmini bədii ədəbiyyatın çox çətin sahəsi olan tərcümə sahəsində də sınayıb və uğur qazanıb. Tərcümə zamanı digər dillərdən xalq aforizmlərini, atalar sözləri və məsəllərin dilimizdə qarşılığını tapmağın çətinliyini nəzərə alsaq, bu işin ağırlığını başa düşmək heç də çətin deyil. Yazıçı isə bu çətin işin öhdəsindən məharətlə gəlir və xalq şairi Sabir Rüstəmxanlının Natiq Səfərov haqqında dediyi *"o, bu əsərləri tərcümə etmir, dilimizdə yazır"* sözlərini tam mənasıyla Nəriman Əbdülrəhmanlıya da aid etmək olar. *(Sabir Bəşirov, göstərilən əsəri, səh 6).* Özü də bu yolda ilk addımlarımı atmağa hazırlaşan bu sətirlərin müəllifi tərcümə işinin çətinliyini az da olsa başa düşür. Ağır maddi çətinliklər şəraitində xarici dillərdən əsərləri tərcümə edən təmənnasız Məhəmmədin təmənnasız ümməti ədəbiyyatımızın bu sahəsini ölməyə qoymur.

Yeri gəlmişkən, təəssüflə onu da qeyd etmək lazımdır ki, N.Əbdülrəhmanlının xarici dillərdən etdiyi tərcümələr müqabilində onun əsərlərinin xarici dillərə tərcüməsi müqayisəedilməz dərəcədədir. Onun yalnız bir sıra əsərləri rus, türk, gürcü, ingilis və ərəb dillərinə çevrilib, həmin dillərdə çıxan Azərbaycan ədəbiyyatı antologiyalarına daxil edilib, "Dönəlgə" povesti (bir neçə müəllifin əsəri ilə birgə) və "Könül elçisi" romanı isə Türliyədə işıq üzü görüb.

Təkrardan qorxmayaraq qeyd edək ki, tərcümə bütün ədəbi növlər içərisində ən çətinidir. O, hələ tələbəlik illərində dünya ədəbiyyatından etdiyi mütalilələrin köməyi ilə bu ağır işin öhdəsindən bacarıqla gəlir.

İndi marksizm klassiklərindən nümunə gətirmək dəbdə olmasa da, deyim ki, K.Marks pambıqçı əməyini qul əməyi adlandırırdı. Şəxsi qənaətimə görə isə, ümumiyyətlə, yazıçı də əməyi qul əməyidir. Bunu yaradıcılığa başladığım bir neçə

il ərzində qət etmişəm. Həm də düşünürəm ki, ağır işin müqabilində cüzi haqq verilən tərcümə əməyi daha dözülməz qul əməyidir.

N.Əbdülrəhmanlının rus, türk və gürcü tərcümə etdiyi əsərlərin siyahısı zəngindir. Yaradıcılığının ilk mərəhələsində o, olyak yazıçısı Beata Buşelevanın "Nəzakət əlifbası"ndan parçaları, rus yazıçısı Leonid Larinin "Qızıl qayğılı illər" əsərini, gürcü ədəbiyyatından Tofiq Mirzə ilə birgə Revaz İnanişvilinin "Gözəl göz yaşları", "Səfehlər", Merab Abaşidzenin "Kvazimodo", Qiya Lomidzenin "Siçan", Qoderzi Çoxelinin "Küknarlara məktub", "Rezo Çeyşvilinin "Tənqidi məqalə" hekayə və povestlərini dilimizə tərcümə edib. Sonralar Q.Çoxelinin N.Əbdürrrəhmanlı və T.Mirzənin birgə tərcümə etdikləri "Yabanı gül dəstəsi" adlı hekayəsi əsasında "Yuğ" teatrında çox uğurlu bir tamaşa hazırlandı.

O, tərcümə üçün seçdiyi publisistik əsərlərdə əsas diqqəti vətənpərvərliyə, ermənilərin xalqımıza xəyanətinə yönəldir. Bu məqədlə İvane Cavaxişlinin erməni xəyanətindən bəhs edən "Şərhə ehtiyac olmayan həqiqət" əsərinin tərcüməsini qeyd etmək lazımdır. Tarixdən də bəllidir ki, ermənilərin torpaqlarımıza iddiası olduğu kimi, gürcülərlə də Cavaxeti bölgəsi ilə bağlı torpaq problemi qaldırmışlar.

Bütün bunlarla yetinməyən N.Əbdülrəhmanlı sonralar müstəqil olaraq Nodar Dumbadzenin "Teymur-Ləng", Tamaz Giladzenin "Durna", Nuqzar Şataidzenin "Payız", İrina Leyavanın "Xoşbəxtlik", Merab Abaşidzenin "Manekenin təbəssümü", Manana Amirecibinin "Bekarçılıq, yaxud eşikdə qar yağıb, içəridə isti olanda", Cemal Karçxadzenin "Ucaboy kişi", Cemal Topuridzenin "Kişi", Georgi Bakanidzenin "Çörək", Quram Petriaşvilinin "Təbib", Revaz İnanişvilinin "Əlliyaşlı kişi", "Qışqabağı kədər" və sair hekayə və povestlərini tərcümə edib. Tərcümə bacarığını hekayə və povestlərlə təkmilləşdirəndən sonra o, dünya ədəbiyyatından irihəcmli əsərlərin tərcüməsinə başlayıb. 1999-cu ildə ədəbiyyat üzrə Nobel mükafatı nominantı Otar Çiladzenin Borçalının real tarixindən bəhs edən və XIX əsrin sonu, XX əsrin əvvəlləri Cənubi Qafqaz tarixindən dəyərli

məlumatlar verən 1999-cu ildə Nobel mükafatına təqdim olunan "Uğruma çıxan adam"ı tərcümə edib. Artıq onun tərcüməsində ikicildlik "Gürcü nəsri antologiyası" (bir neçə tərcüməçinin iştirakı ilə), görkəmi yazıçı, Revaz İnanişvilinin (M.Məmmədoğlu ilə birgə) və Qoderzi Çoxelinin nəsr topluları öz çapını gözləyir. Bütün bunlar N.Əbdülrəhmanlının gürcü ədəbiyyatına mükəmməl bələd olmasının nəticəsidir.

Amma göründüyü kimi, tərcümə ədəbiyyatını nəşr etdirmək, ayrıca kitablar halında çapdan çıxarmaq çox çətindir. Bu çətinliyi nəzərə alan N.Əbdürrəhmanlı istər kiçik, istərsə də iri həcmli əsərləri tərcümə etdikcə "Avropa", "Sənət qəzeti", "525-ci qəzet" və "Yol" qəzetlərində, "Xəzər" "Ulduz", "Mars" və sair jurnallarda nəşr etdirib. O, Nobel mükafatçısı, alman yazıçısı Henrix Bollun "Axşam", kolumbiyalı Nobel mükafatçısı, dünya şöhrətli Qabriel Qarsiya Markesin "Məhəbbət əvəzinə ölüm labüdlüyü", Sənin qar üstündəki izinlə" hekayələrini, Vasili Radlovun "Qırğızlar" tədqiqatını, Şəmsi Bəllinin "Atatürkün eşq həyatı" kitabını, bir müddət sonra isə Q.Q.Markesin "Gəmidən dənizə yıxılan adamın hekayəti" povestini, "Vəba çağının sevgisi" romanından parçanı, Yuri Kazakovun "İki nəfər dekabrda" hekayəsini, Herman Hessenin "Gənc şairə məktub", "Dil", Onore de Balzakın "Gözəllik haqqında traktat", E.Q.Markesin "Təbaşir dairəsi" esselərini, U.Folknerin "Qısqanclıq", "Nimfolepsiya", Yuko Misimanın "Qatilin fəlsəfi gündəliyi", "Turşəng çiçəkləri", Haruki Murakaminin "Öyümə", Boris Pelevinin "Kafedəki Ziqmund", yenə Herman Hessenin "Otaqda gəzinti", Hənif Qureyşinin "Dörd mavi stul", Patrik Züskindin "Dərinlik həsrəti", "Təkbətək", Milorad Pavliçin "Uzun gecə səfəri" roman, povest, hekayə və esselərini dilimizə çevirib, yuxarıda adları qeyd olunan qəzet və dərgilərdə nəşr etdirib.

N.Əbdülrəhmanlı 2005-ci ildə sonuncu iran şahı Məhəmməd Rza şah Pəhləvinin xanımı, milliyətcə azərbaycanlı olan Fərəh xanım Pəhləvinin "Xatirələr"ini dilimizə tərcümə etdi. Bu, ədəbi aləmdə böyük maraq doğurdu və dəfələrlə təkrar

çap olundu. Tərcüməni həyatının bir parçası hesab edən N.Əbdülrəhmanlı müəyyən vaxtlarda sifarişlə də tərcümələr edir.

2008-ci il onun yaradıcılığı üçün çox uğurlu oldu. Bu ildə o, dünya ədəbiyyatından seçmələr toplusunu çap etdirərək həmin topluya rus, gürcü, Avropa, Amerika yazıçılarının ən çox oxunan əsərlərini daxil etdi. Bu toplunu müəllif "Bir kədərli qadın" adlandırdı.

Sonrakı illərdə də məhsuldar məşğul olduğu tərcümə yaradıcılığı tək sadaladığım əsərlə bitmir. N.Əbdülrəhmanlının uzun bir siyahı təşkil edəcək, çevirdiyi, lakin çap etdirə bilmədiyi dünya ədəbiyyatının ən gözəl seçmələri ölkə Prezidentinin sərəncamı ilə nəşr edilən 150 cildlik Dünya Ədəbiyyatı Kitabxanası seriyasından çap olunur. Artıq həmin seriyadan Nobel mükafatı laureatları Jan-Pol Sartr, Migel Anxel Asturias, Orxan Pamukun, eləcə də görkəmli qələm ustaları Luis Xorxe Borxesin, Tomas Vulfun, Nəcib Fazil Qısakürəyin, Andrey Platonovun, Paulu Koelyonun kitabları oxuculara çatdırılıb, daha bir "nobelçi" Kenzaburo Oenin "Seçilmiş əsərləri" isə çapdadır. Eyni zamanda tərcüməçi Kobo Abe, Tomas Bernhard, Antonio Tabukkini kimi orijinal dəsti-xəttə malik yazıçıları da Azərbaycan oxucularına tanıtmağı arzulayır.

N.Əbdülrəhmanlının tərcümə yaradıcılığında türk ədəbiyyatının sanballı şəkisi var. O, artıq Türkiyədə və dünyada tanınmış yazıçıların romanlarının dilimizdə səslənməsinə böyük zəhmət sərf edib. Oxucularımız onun tərcüməsində Nəcib Fazil Qısakürəyin hekayələri və pyesləri ilə yanaşı, Ahmet Hamdi Tanpınarın "Saatları qurma institutu", Ziya Şakirin "Həzrəti Əli", Rasinm Özdənörənin "Quyu", Nobel mükafatı laureatı Orxan Pamukun "Mənim adım Qırmızı", Qara kitab" və "Beynimdəki qəribəlik", İsgəndər Palanın "Şah və Sultan" və "Od", Elif Şafakın "Eşq", "Qara süd" və "Ustam və mən", Ahmet Ümitin "İstanbul xatirəsi", Gül İrepoğlunun "Cariyə" və "Kölgəmi qoydum zanbaq bağçalarında", Mehmet Mollaosmanoğlunun "Cənnət ayrıcı" romanları ilə tanış olublar.

Bununla yanaşı, N.Əbdülrəhmanlı müxtəlif ölkələr ədəbiyyatına həsr olunmuş antologiyalar tərtib etməyi öz yaradıcılığının bir yönümü sayır. Onun Latın Amerikası, Skandinaviya ölkələri, Slavyan ölkələri, İtaliya, Yaponiya, Avstriya, Polşa ədəbiyyatları nümunələrindən ibarət antologiyaları öz çapını gözləyir. Həmin seyiadan nəşr etdirdiyi "Ədəbi Nobel antologiyası" bu istiqamətdə sanballı addım idi. Nüfuzlu ədəbi mükafata layiq görülmüş 67 nasirin yaradıcılığını əhatə edən topludakı əsərlərin əksəriyyətini tərtibçi özü çevirib.

Heyrət doğuracaq məqam odur ki o, çətin maddi *(eləcə də mənəvi)* imkan şəraitində məhsuldar çalışır, tərcümə ədəbiyyatımızı zənginləşdirir. Bu gün N,Əbdülrəhmanlı mənə ədəbiyyatımızda H.B.Zərdabini xatırladır. Zərdabi bir vaxtlar M.F.Axundzadəyə məktubunda yazırdı: *"Elə fikirləşməyin ki, xalqın maariflənməsi bir məqalə, ya pyeslə düzələsi şeydir. Xeyr, burda görüləsi işlər çoxdur. Bu yolda külüng vura biləcək onlarla adamın əməyi və həyatı da bu iş üçün azdır. Bəlkə Sizi belə bir şey düşündürür ki, nə üçün başqa birisi deyil, məhz siz, özü də müftə, bir quru "çox sağ ol" eşitməyə belə ümidimiz olmadan bu barədə zəhmət çəkəsiniz... Xalqın, həm də geridə qalmış avam xalqın, sənin və mənim qardaşımın maariflənməsi işinə özünü həsr edən adamı belə bir fikir yoldan qoymamalıdır. O, mükafatını öz-özünə, işini görə-görə vicdanı qarşısında duyacaqdır".* Zaman bu böyük maarifçinin necə də haqlı olduğunu bu gün göstərir. N.Əbdülrəhmanlının da bu sahədəki əməyi layiqincə qiymətləndirilməsə də o, yazıb-yaradır.

HEKAYƏLƏRİ

N.Əbdülrəhmanlının hekayə yaradıcılığı mövzu cəhətdən bir o qədər də zəngin deyil. "Yelçəkən" kitabında toplanan on hekayənin təhlili bunu deməyə əsas verir ki, bir-ikisini çıxmaq şərtilə hekayələrinin mövzu cəhətdən, demək olar, oxşar süjetlidir. Həmin hekayələrin əsas mövzusu dövrünün (ovet dövrünün və bugünümüzün) bir çox çatışmazlıqlarıdır. Həm də təkcə bu hekayələrə görə onu yetkinlik yolunda inamla irəliləyən bir yazıçı hesab etmək olar.

Tanınmış tənqidçi alimimiz Cavanşir Yusifli N.Əbdülrəhmanlının hekayə yaradıcılığına toxunaraq yazır: *"Onun həyatı ilə yazdığı mətnlər, demək olar ki, eyni şeydir, ona görə də hər bir hekayəsində və yazısında nəsə təzə model-dünya yaratmağın fərqində olmur... Nərimanın təzə, hamının işlətməyə çalışdığı texnoloji-improvizə vasitələrindən də bəhrələnməyə çalışır, yazdığı, hördüyü mətndə, necə deyərlər, "küyün sıfır dərəcəsini" almağa cəhd göstərir. ...Ən kiçik, başqalarının bəlkə də heç önəm vermədiyi şeylərdən çox geniş diapazonda bəhs edir, bu kiçik zərrələri çox ağır zərbələrə qatılaşaraq böyüdür, onları elə mənalandırır, elə rakurs altından keçirir ki, mənzərə həyatın bir anına çevrilir, çərçivələnir, model olduğunu gözə soxmadan bizimlə nəsr diliylə danışır...". [12]*

Çətin anlaşılan, sətir altı mənalar ifadə edən və o zaman hələ Azərbaycan oxucusunun ruhuna çətinliklə yol tapan bu hekayələr haqqında, görünür, N.Əbdülrəhmanlıya dəfələrlə oxucu sualları bildirilmiş, amma üslub və dil cəhətdən müəllif diqqəti çəkməyi bacarmışdı.

Sonrakı illərdə o, bir-birindən maraqlı romanlar yaza-yaza püxtələşmiş və bu gün potensial bir romançı kimi tanındı, Azərbaycan romanının çox gözəl nümunələrini yaratdı. Belə düşünürəm ki, N.Əbdülrəhmanlı ilk kitabını çox gec, 40 yaşında çap etdirməsi heç də özünü ədəbi aləmdə tanıda bilməməsindən deyil, öz üzərində daha gərgin çalışmaqla oxucuların qarşısına yetkin və hazırlıqlı çıxmaq istəməsi ilə bağlıdır.

N.Əbdülrəhmanlının yaradıcılığının erkən dövründə qələmə aldığı **"Çıxış"** hekayəsində sadə bir peşə adamından söhbət açılır. Məhər bənnadır, hörgü işləri ilə məşğuldur, təbi rəvandır, Coşqun təxəllüsü ilə şeirlər yazır. *"Şöhrəti artıq rayonun sərhədlərini aşmaq ərəfəsindədi".* Şeirləri tez-tez "oxuculara çatdırılan" Məhər daha böyük şövqlə yazıb-yaradır. O, *"birliyin fəal üzvlərindəndir",* şeirləri tez-tez rayon qəzetində çap olunur.

Bir gün Bakıya, şeir oxumağa gedəcəyini eşidəndə Məhər hədsiz dərəcədə sevinir. Yola hazırlıq görmək üçün arvadından evdəki ehtiyat puldan istəyir. Ancaq bizdə bir çox yaradıcı insanların həyat yoldaşları kimi Səhnə də ərinin yaz-pozusuna biganədir.

"-Yaman da qazanıb gətiribsən. Ağ kağız, qara qələm, yazmaqdan vaxt tapırsanmı? Vur-tut əlli manat var. O da ki, iki möşöy unun puludu, bir də uşağın ayaqqabısı tökülüb, ona on manat saxlamışam", - deyir. [1,9]

Bir gənc olaraq hələ ailə həyatını yaşamasam da öz ailəmizdən, bizə yaxın olan ailələrdə apardığım müşahidələrdən belə qərara gəlmişəm ki, Azərbaycan qadınları bir sıra müsbət xüsusiyyətləri ilə dünya qadınları içərisində birincidir. Dünyanın ən yaxşı anaları olan qadınlarımızın şəxsi həyatı yoxdur, son dəqiqəsinə qədər övladına qayğı göstərir. Amma çox təəssüf ki, bir çoxları ailədə maddi dəyərləri mənəvi dəyərlərdən üstün tutur. Səhnə də belələrindəndir. Əlbəttə, onun öz uşaqlarının gələcəyini düşünməyinə haqq qazandırmaq olar. Amma o, həyat yoldaşının yaradıcılığına biganədir, ərinin şeir yazmasına əhəmiyyətsiz, ikinci dərəcəli bir iş kimi baxır. "Bir möşöy unu" Məhərin yaradıcılığından üstün tutur.

İlk dəfə olduğu Bakı Məhəri heyran edir, onlar redaksiyada olurlar, şeir oxuyurlar, Məhərin şeirini hamı bəyənir. Bir gün sonra isə o, televiziyada çəkilişdə iştirak edib kəndə qayıdır.

Kəndə hamı səbirsizliklə Məhərin televiziyadakı çıxışını gözləyir. O, kəndin işıqlarına baxan Əlizamanı da evinə dəvət edir ki, işdir işıqlar sönsə, düzəltsin.

Budur veriliş başladı, amma onun çıxışı verilmədi. Məhər bu işdən əməllicə sarsılır. İnsan belə halda depresiyaya düşüb cinayət də törədə bilər, özünə qəsd də edə bilər. Səhnə ərinə təsəlli vermək əvəzinə *"onun başına sarı iki əlli qaralama göndərdi". Mantyor "Əlizaman isə ona təsəlli verir, qalxıb qapıya doğru gedə-gedə:*

-Əşşi, heç vecinə alma, ya-yağın pa-paxıllıqlannnan eləyiblər, sə-səni kimi şa-şayır hardadı?

Səhnə isə bütün bunlara biganə kimi Əlizamanı ötürməyə çıxan ərinin dalınca:

-Möşöyün dibini dünən çırpdım, un alınasıdı.

Mən sovet dövrünü yaşamasam da bu dövrə məxsus biganəlik, pul verməklə iş aşırmaq, istedadı boğmaq kimi eybəcərliklər haqqında eşidib-oxumuşam. Və o cəmiyyətdə Məhər heç də tək deyildi. Bu dövr çox insanların qabağına sədd çəkib. Tənqidçi Sabir Bəşirov yazır: "N.Əbdülrəhmanlının ədəbi qəhrəmanlarının bir qismi aldanılmış və yaxud aldanmış insanlardır. Nəticə etibarilə aldanışda məğlubuyyət də var, udmaq da, itki də, hətta ölüm də..." [6, 38-39].

"Gecələmə" hekayəsinin əsas mövzusu biganəlikdir. Üzdə özlərini dost, qohum kimi göstərib dostların və qohumların gəlişinə yalnız bir anlıq mehribanlıq göstərən insanlar tənqid olunur. Hekayənin qəhrəmanı avtobusa gecikir, gecələmək üçün yer axtarır. Bütün tanışlarını bir-bir fikrindən keçirir. Yadına düşür ki, xalası oğlu Nəsibin ikiotaqlı evi var.

Nəsib xalası oğlunu çox mehribanlıqla qarşılasa da arvadı onu könülsüz qəbul edir. O Nəsibdən bu yaxınlarda onunçün bir ev kirələməsini xahiş edəndən sonra hadisələr kulminasiyaya qalxır. Nəsibin qohumuna: *"Ə, bir də ayıb döyülmü... kirə-zad gəzirsən, bura öz evin döyülmü? Allaha şükür, gen-bol yerimiz var, gecikəndə, çəkinib-eləmə, bizə gəl,"* - dediyini eşidən Nəsibin arvadı mətbəxdə qabları bir-birinə çırpmaqla buna kəskin təpki göstərir.

Xalasıgildə gecələməyin mümkün olmayacağını başa düşüb küçəyə çaxır, bir müddət nə edəcəyini götür-qoy edir, heç bir qərara gələ bilmir. Birdən telefon köşkündə yataqxana dostu Cəmili görür. Onu arxadan-peysərindən tanıyır, onunla birlikdə Cəmilgilə gəlirlər. Lakin o, burda da özünə qarşı bir laqeydlik, soyuqluq hiss eləyib oranı da tərk edir.

Həmişə avtobusa gecikəndə gecələdiyi Pərinaz qarını xatırlayır, onlara getməyi qərara alır. Qarı isə həmişə onu görəndə şad olur. *"Bir də deyirdi ki, sən gələndə, oğlumun ruhu da şad olur, bilir ki, həyanım var, başıma bir iş gəlsə kömək əlini uzadar; qarı onu da deyirdi ki, səndən pul almaram, amma hər cümə axşamı Göy məscidə gedib oğlumun ruhuna dua oxudaram, sənin də canına özüm dua eləyirəm".* Yaxın qohumundan, yataqxana dostundan görmədiyi nəvazişi bir qarıdan görür.

N.Əbdülrəhmanlının bəzi kişi qəhrəmanları bizim vərdiş etdiyimiz Azərbaycan kişilərindən fərqlənirlər. Bu qəhrəmanlar taleyin sınaqlarında zərbə almış, sınmış, cəmiyyət tərəfindən sındırılmış, bu səbəbdən də həyatda özlərinə yer tapa bilməyən adamlardır. Onlar Sabir Bəşirov çox haqlı olaraq qeyd edir: *"Yeri gəlmişkən, yazıçının evli ədəbi qəhrəmanlarının bir hissəsi öz evinin sahibi deyil". [6, 44]*

"Dönüm" hekayəsinin mövzusu istər sovet cəmiyyəti üçün, istərsə də bugünkü gün çox aktual bir mövzudur. Hekayənin qəhrəmanı kişi mövcud həyat tərzinə arvadının etirazından cana doyur, yaxşı yaşasınlar deyə dövlət pulunu mənimsəyir və buna görə həbs olunub səkkiz il iş alır. Anası bu dərdə dözə bilməyərək dünyasını dəyişir. Arvadı uşaqlarını internata verib, başqa ərə gedir. Azadlığa çıxandan sonra o iki yol arasında qalır. Yenicə tanış olduğu, onu başa düşən, qayğısına qalan qadının yanında qalsın, yoxsa uşaqlarının ardınca getsin. O, birinci yolu seçir. Sevimli qadınının yanında qalmağı qət edir. Yolda fikrini dəyişib maşını saxlatdırır.

"-Saxla, gedəsi olmadım.

-Niyə? - Sürücü hələ də bir şey başa düşə bilmirdi. Maşını yoldan çıxarıb əyləci basdı. Sürücüyə üzürxahlıq edə-edə maşından düşdü.

-Sənə uğur olsun,- dedi, mən vacib bir şeyi unutmuşam".

"Düşüb qapını çırpdı, geri, lakin gələcəyə doğru addımlayır. İç dünyasının səsinə qulaq asır. Onun bu hərəkətini əlbəttə uşaqlarından imtina kimi başa düşmək olmaz. Uşaqları etibarlı yerdə - bacısının yanındadır. Həm də sonralar uşaqlarını yanına da gətirə bilər. Əsas odur ki, öz ömrünə gözəl bir həmdəm tapıb". Onun bu hərəkətini əlbəttə, uşaqlarından imtina kimi başa düşmək lazım deyildir. Əgər o, həyatda axtardığı qadını tapa bilibsə, bu qadın onun özünü sevdiyi qədər uşaqlarını da sevəcəkdi.

Tez-tez həyatımızda belə bir deyimlə rastlaşırıq: *"Allahın mənə verdyi ruzunu əlimdən heç kim ala bilməz".* Lakin unuduruq ki, bu, imanı möhkəm olan insanlara aiddir. İmanı zəif olan, Allahın xoşuna gəlməyən insanların əlindən ruzusunu şeytan çox asanlıqla ala bilir.

Bu üç hekayəni, eləcə də kitabına daxil etmədiyi, amma vaxtilə qəzet-jurnallarda və ədəbi toplularda işıq üzü görmüş **"Məktub", "Çəpər", "Bayrama üç gün qalırdı"** və başqa qələm təcrübələri daha çox onun öz ədəbi duyumunu sınaqdan keçirmək, dilini və yazı üslubunu cilalamaq baxımından maraqlıdır.

***

Yaradıcılığının dönüş mərhələsindən, daha doğrusu, 40 yaşından sonra qələmə aldığı əsərlərində onun artıq püxtələşmə yoluna qədəm qoyduğunu, get-gedə yetkinləşdiyini müşahidə edirik.

"Şeytan mövsümü" hekayəsinin qəhrəmanı ət kombinatındakı işinə çax-çux edən kiçik qulluqçu kimi başlayır. Az sonra kombinatın direktoru *"kişi"*nin qılığına girib *"boynu sex"*ə müdir təyin olunur, onun ən yaxın adamına çevrilir. İndi həyatından da, *"kişi"*dən də çox razıdır. *"Allah mənim ömrümdən kəsib onun*

ömrünə calasın" deyir. Kişinin sayəsində *"evində gündə bəlkə də üç dəfə ət xörəkləri bişirilirdi; o qədər ət yeyirdilər ki, uşaqları danışanda az qala cöngə kimi böyürürdülər, gözləri irilənib hədəqəsindən çıxırdı, günün yarısını da cöngəsayaq səvərib yatırdılar".* O, kişiyə bir qul sədaqəti ilə bağlıdır, ona kombinatda *"gözün üstündə qaşın var"* deyən yoxdur. Çünki, *"kişi"* ət kombinatında dəmir qayda qoyub. Heç kəs onun sözündən çıxmağa cəsarət eləmir.

Müəllif hekayədə iki yanaşı dünya qoyur. Bu dünyalardan biri ət kombinatı, digəri isə çiyələk sahəsidir. Birinci dünyanın insanları-ət kombinatında çalışanlar halal-haram nə olduğunun fərqinə varmadan oğurlayır, çalıb-çapırlar. Amma bir yandan öz qazanclarına haram qatdıqca halal qazandıqlarını itirirlər. Bir gecə həyətyanı sahəsində əkdiyi çiyələk sahəsinə baş çəkməyə gedəndə ilbizləri-şeytanları çiyələklərə daraşıb yeyən gördü.

"Qəfildən yadına düşdü ki, şeytanlar bağa ilk dəfə "boynu sex"ə yiyiləndiyi il daraşmışdılar. Amma onda bu qədər çox deyildilər, bir balaca əl gəzdirəndən sonra vurduqları ziyan azalırdı. Bir də onu xatırladı ki, çiyələk nəsə uşaqlıqda yediyinin dadını vermir, elə təzə əkdiyi illərdə ətindən, ləzzətindən doymaq olmurdu. Sonra fikirləşdi ki, sabah gərək bir əlac tapsın, yoxsa şeytanlar bağı viran qoyacaqlar".

Deməli, o, nə qədər xalqın, dövlətin malını az yeyirdisə, ilbizlər də çiyələyə bir o qədər az daraşırdılar. Qazancına haram qatdıqca ilbizlərin də sayı artır.

Taleyim elə gətirib ki, məni əhatə edən dostlarımın, tanışlarımın əksəriyyəti yaşı altmışı, yetmişi keçmiş insanlardır. Bəziləri bunu irad tutsalar da, çoxları *"belə yaxşıdır, tez müdrikləşərsən,"*- deyirlər. Elə həmin yaşlı dostlarımdan biri də uzun illər ət kombinatında *"oxran"* işləyib. Sovet dövründəki hərc-mərclikdən istifadə edib, əməlli-başlı varlanıb. Sovet quruluşu dağılandan sonra yaşlı dostumun böyük məbləğdə pulu əmanət kassalarında it-bat oldu. İndi ürək yanğısı ilə həmin

hadisəni xatırlayır, hər xatırlayanda da deyir: *"Halal qazandıqlarım əlimdədir, oğurladıqlarımı isə banklar yedi"*.

O, həm də çiyələyin dadsızlığından gileylənir, ilk əvvəllər çiyələk dadlı idi. Həmin ilbizlər kimi ət kombinatına daraşdıqca, ilbizlər də çiyələk sahəsinə daraşırlar. Həm də o nə qədər çalışırsa, şeytanların qabağını ala bilmir. Çünki, özü də həmin şeytanların biridir.

"Lələ" hekayəsindəki kədərli hekayə insanı kövrəldir. Burada anadan ağlıkəm doğulmuş bir yeniyetmədən söhbət gedir. Onun adı ən yaxın adamlarından başqa kimsənin yadında qalmayıb, sünnət toyunda aşığın "Əsli və Kərəm"dən oxuduğu

Ərzurumun gədiyindən aşanda,
Gəldik, gördük birər-birər qar gəlir.
Dedim, lələ, gəl qayıdaq bu yoldan,
Xan oğluydu, gördüm ona ar gəlir.

- şerindən *"Dedim, lələ, gəl bu yoldan qayıdaq"* kimi tez-tez təkrar etdiyinə görə, adını Lələ qoyublar. Səhər tezdən axşama qədər *"Ay lələ, e-e-e-y-y-y"*sözlərini özü bilən kimi zümzümə edən Lələ bir növ məhəllənin zəngli saatıdır. Onun səhər oxuduğu ilk mahnısından *"yarımca saat sonra Kərəm avtobusunu xoddoyub məhəllədən çıxacaq; avtobusun səsi göyəm kolunu keçməmiş Məsmə arvad bərkdən söylənə-söylənə süpürgəçiliyini eləməyə yollanacaq, sonra dərsə gedən Səriyyənin dikdabanlarının taqqıltısı küçəni başına götürəcək, taqqıltı dikə qalxanda "toy" səsi qəfildən kəsiləcək, təzədən başlayanda, daha əvvəlki şuxluğundan əsər-əlamət qalmayacaq"*.

Məhəllənin itlərinin, pişiklərinin belə sevdiyi Ləlәni adamlar arasında sevməyənlər də var. Bu xəstə canına da həsəd aparırlar. Hətta doğma valideynləri də Lələnin ölümü ilə *"canlarının ondan qurtulmasına"* bir növ sevinirlər. Çox

haqlı olaraq, müəllif onları ata-ana deyil, *"əkib-doğan"* adlandırır. Belə düşünürəm ki, bu yazıçının tapdığı çox incə məqamdırr. Doğma balasının xəstə halını onunla yaşamayan, qayğısına qalmayan valideyn ata-ana sayılmaz. Eynilə də xəstə, qoca valideynlərini qocalar evinə göndərənləri övlad saymaq olmaz.

Lələ isə bütün olub keçənləri vecinə almaz, yolda oturub sevimli Səriyyəsini gözləyir. Bir gün xəbər məhəlləyə xəbər yayılır ki, Səriyyəni ərə veriblər. Lələ bir daha *"toy"* çalmadı, xəstələnib yatağa düşdü. Onun valideynləri belə bezikib *"qismətləri ilə barışmışdılar".* Səriyyənin toy gecəsi bu dünyanı tərk edir. Onun balışını çırpanda konfetlər yerə tökülür. Bu, Səriyyənin hər dəfə rastlaşanda ona verdiyi konfetlərdir.

Lələnin ölümündə günahkar kimdir? Valideynlər, yoxsa zaman? Hər halda belə bir həyat tərzini o, özü-özünə seçməyib. Oxucu kədərli hekayəni oxuduqca bu suallara cavab axtarır. Sabir Bəşirov yazır: *"Lələni heç kim aldatmır, o, özü-özünü aldadır. Burada kimsəni günahlandırmaq olmur. Ancaq bu aldanışda saflıq, paklıq, ülvilik var". [6,40-41].*

Düzələcəyinə ümid etdiyin halda düzəlməyən, mənəviyyatı pozulmuş, içki düşkünləri, daha doğrusu, həyatda özyerlərini tapa bilməyən adamların taleyi **"Gələn adam"** hekayəsinin əsas mövzusudur. Hekayənin qəhrəmanı öz xasiyyəti üzündən ailəsini dağıdan, yaşamağa normal yeri olmayan, gününü ondan bundan siqaret almaqla keçirən, kiminsə onu içkiyə qonaq etməsini gözləyən, aldığı borcu qaytarmayan adamdır. Üstəlik də o, köhnə tanışlarının iş yerində saatlarla oturur, telefonunu məşğul edir, işləməyə qoymur. Müəllif bunu onun gəlişini gözləyən digər bir pesonajın dilindən belə ifadə edir: *"Zəng eləyən də elə bilir, danışan mənəm. Daha bilmir ki, Allahın göndərdiyi bəladı, keçib boğazıma, at gənəsi kimi buraxmır ki, buraxmır". [1, 63]*

Hekayə adından söylənilən şəxs iş yerimi dəyişsə də onun əlindən canını qurtara bilmir. İşləyə-işləyə də onun gəlişi ilə bağlı həyəcan yaşayır.

“...İndicə qapı açılacaq...”

“Deyəsən, dəhlizin qapısı açılıb-örtüldü...

“Allah, özün kömək ol!”

Müəllif “Gələn adam”dakı intizarla Vaqif Səmədoğlunun *“Gəlişinə lap az qalıb, cəmi iki saat”* şeiri ilə maraqlı bir bənzətmə yaradır. *“Amma o gəliş hara, bu gəliş hara? O gəliş poetikdı, melodramatikdi, bu gəlişsə psixoloji dramdı, tragi-farsdı, tragikomediyadı, nə bilim, daha nədi?”. [1,61]*

C.Yusifli yazır: *“Gələn adam” hekayəsi Nərimanın ən xarakterik yazısıdır. Hekayənin məzmun və strukturu çox sadədir. İnsanın yaşadığı ömrün içindəcə tapdığı obraz yeriyir, hərəkət eləyir, bu elə bir obrazdır ki, sonu, aqibəti özü diktə eləyir, sənə əl-qol açmağa imkan vermir”.*

Bəzən yumşaq yumordan ən sərt satiraya keçilməsi Nəriman Əbdülrəhmanlını oxuculara daha da sevdirir. Hekayənin bütün dövrlər üçün aktuallağı nəzərə alınaraq “Doqquz iqlim” jurnalında çap olunub.

“Yelçəkən” hekayəsində əvvəlki problemlər bir az başqa formada qabardılır. *“Qaçqın çadırına oxşayan pencək”* geyinən hekayənin qəhrəmanı ədəbi aləmdə tanınmış simadır. Hamı onun elmi qabiliyyətini bəyənir. Redaksiyaya, Elmlər Akademiyasına, Yazıçılar Birliyinə - hara gedirsə, hörmətlə qarşılanır. Hər kəs təzə yazdığı şeirini, hekayəsini ona oxumaq, ondan məsləhət almaq istəyir. O, neçə-neçə adam üçün monoqrafiya yazıb onları alim etsə də, şəxsi həyatında heç nəyə nail ola bilməyib. Başqaları üçün yazdıqları müqabilində qazandığı cüzi gəlirdən isə əlində heç nə qalmayıb. Üstəli, aadamlarla “dil tapmağı” bacarmır, heç kəsdən qorxmur, kimliyindən asılı olmada fikirləşdiklərini hamının üzünə şax deyir. Müəllif qəhrəmanın dostunun dilindən yazır: *“Sözə qulaq asmadığına görə bu günə qalıbsan; nə institutu bitirdin, nə də əməlli-başlı bir işdə işlədin, düşdün absurd ideyaların dalınca, sonra da oturdun ona-buna elmi əsər yazmağa, elə bildin, bunnan özünə bir gün ağlayacaqsan; sənin qələmiyin hesabına neçələri*

elmlər namizədi, doktor oldular, kitab çıxardılar, ad-san qazandılar, vəzifədə oturdular; sən də elələrindən sıxıla-sıxıla aldığın halalca haqqını havaya sovurdun... olan-qalanın dörd-beş yeşik kitab dəftərin, qalaq-qalaq yazı-pozundu, onu da həftə səkkiz-mən doqquz bu evdən-o evə daşıyırsan, şəhərin elə bir məhəlləsi yoxdu ki, kirayədə qalmamış olasan..." [1,78].

Otuz ilinin dostunun bu nəsihətlərinə bundan sonra əməl edəcəkmi?

Onu Öndərin özü də şəxsən tanıyır. Bağın yanından keçəndə pərişan halını görür, yanına çağırır, bir saatacan söhbət edirlər. Lakin qəhrəmanın halında heç bir dəyişiklik baş vermir. Yazıçının qənaətinə görə, hərənin öz alın yazısı olduğu kimi, onun da alnına ömrünü səhv yaşamaq, günlərini yelə vermək, arvad-uşaq sahibi olmamaq, yel hara aparırsa, ora getmək yazılıb.

"-Belə... Gözdə-qulaqda ol, bəlkə yel gətirib sənin rastına çıxardı. Gücün çatsa, bir az yelini al, de ki, dünyanın sovuruğuna getməsin...". Yelçəkəndir, külək hara aparırsa ora gedir. Ömür isə heç kəsi gözləmir, öz axarı ilə gedir". [1,79]

Sabir Bəşirov bu hekayəni N.Əbdülrəhmanlının yaradıcılığında *"forma və üslub cəhətdən ən mükəmməl əsər"*i hesab edir. *[1,53].*

Sabir Bəşirov daha sonra yazır: *"Dünyanın yelini canına çəkən adam - Yelçəkən ədəbiyyatımızda kifayət qədər maraqlı və orijinal obrazdır, oxucunun yaddaşında özünə yer tutur". [6,54]*

"İşıqsızlıq" hekayəsinin qəhrəmanı maddi ehtiyac içindədir, uzun götür-qoydan sonra vəzifədə çalışan Dostuna üz tutur, ona zəng etmək qərarına gəlir. Tərəddüd edir, sonda əlləri əsə-əsə onun iş nömrəsini yığır. Dostu: "*Əşşi, fikir eləmə, düzələr, dur gəl, gözlüyürəm".* Az sonra o, artıq dostunun kabinetindəddir. Bir müddət gözləyəndən sonra dostu kabinetindən bir gözəl xanımla çıxır. Dostundan pul istəməyi heç cür özünə sığışdırmır, bu, ona ölümdən betdər gəlir. *"Dostu söhbəti Qulamhüseyn məqamına çatdırdı, nə qədər lazımdı?" - dedi.*

-"Qırx-əlli manat".

Dostu isə "cəmi iyirmi manatım var," - deyir. Qadının döşləri arasına xeyi pul basan Dostu (bunu xəyalında canlandırır) ona əlli manatı qıymır. Qəhrəmanın vəziyyəti həqiqətən çıxılmazdır, neçə aylardır ki, maaş almır, işdə də ki, kim müdirdən maaş soruşsasa, aqibəti heç də yaxşı olmur, üstəlik, arvadı üzünü danlayır, uşaqları da götürüb atası gilə gedib

"Bəsdi, - demişdi, - *camaat qaz vurub, qazan doldurur, sən də quru bəy kimi qalıbsan ortalıqda! Üç il səngərdə can çürütdün, axırı noldu? Pensiyan çörəyə çatmır, maaşın da siqaretə. Bu yazı-pozuyla qarnımız doyacaq, yoxsa əynimiz sevinəcək?"*

"İşıqsızlıq" hekayəsini oxuyanda böyük S.Vurğunun:

İnsan! O müqəddəs bir kainatdır,
O saf qəlbi pozan yalnız həyatdır.

-misralarını xatırladım. Ehtiyac yenilməz qəhrəmanı da sındırıb qul edə bilir.

Hekayənin qələmə alındığı dönəm insanların dolanma çətinlikləri, maddi sıxıntılarla yanaşı işıqların tez-tez söndüyü qazın isə, ümumiyyətlə, olmadığı bir dövrdür. Sabir Bəşirov yazır: *"Çox təəssüf ki, cəmiyyətin böyük hissəsini təşkil edən bələləri üçün dünya zülmətdir. Bu zülmətdə, bu işıqsızlıqda yaşamaq dəhşətdir". [1,47]*

Şair və yazıçıların öz əsərlərini əcnəbi dillərə tərcüməsi ilə bağlı qeyd etmək istəyirəm ki, indi istənilən qələm sahibi istədiyi əsəri müəyyən məbləğ müqabilində istədiyi əcnəbi dilə tərcümə etdirə bilər. Amma həmin əsərin əcnəbi nüfuzlu qəzet və dərgilərdə çap etdirməsi əsil problemdir. Amma **"İşıqsızlıq"** hekayəsi ingilis və rus dillərinə tərcümə olunub, "Literaturnıy Azerbaydjan", Rusiyanın "Podyom" jurnallarında dərc edilib.

Uşaqlıqdan ona *"kişi qırığı"* deyirlər. (*Söhbət müəllifin* **"Kişi qırığı"** *hekayəsindən gedir*). Atasının, babasının onu oxşamaq üçün dediyi bu söz sonra onun ömürlük adına çevrilir. Əvvəllər bu sözdən hirslənib coşsa da sonralar necə deyərlər *"qulağı dolur"* və bu adla razılaşmalı olur. Ümid edir ki, evlənəndən sonra kişi olacaq, bu ad onun üstündən götürüləcək. Amma bəxtindən ona elə həyat yoldaşı qismət olur ki, arzusu ürəyində qalır. Arvadı uşağa qalıb qarnı qalxdıqca dili uzanır və *"kişi qırığı"*nın hüquqları daha da azalır. Tədricən evdəki bütün işləri o görür, bazar-dükana gedir. Üstəlik, gözəgörünməz məxluq olan, evinin (bəlkə də beyninin) içində Şərxata *"Kişi qırığı, dəyəsən, başlanır, hə?"* - deyib onu daha da qıcıqlandırır. Arvadı bir stəkan çayı da ona gətizdirir.

Uşaq doğulandan sonra *"kişi qırığın"*nın qayğıları daha da artır. İndi o, tək yaşamalıdır, arvadı uşağını atasıgilə aparır, *"yayda istidir", "qışda soyuqdur"* - deyib onu qayınatası evində saxlayırlar. Sanki Amazon qadınları kimi, kişi onlara ancaq uşaq dünyaya gətirmək üçün lazımdır.

Bu da azmış kimi, o, özü də yenicə doğulmuş uşağını *"kişi qırığı"* adlandırır, doğum evində qaynanasına *"Kişi qırığına salam de"* deyir. Şərxata da onun yarasına duz basır: *"...elə bilirsən, başqası ilə xoşbəxt olacaqsan? Yox, başqası da sənə başqa dərdlər gətirəcək; başını aşağı sal, yaşa, birdəfəlik anla ki, dünyada mütləq xoşbəxtlik yoxdu, insanların sayı qədər dərd var..."*.

Bir gün arvadı növbəti uşağa qalmaq üçün evinə gəlir. Gecə bir yatağa uzanırlar. Şərxata isə onu bu dəfə də qıcıqlandırır:

"-Hə, noldu, kişi qırığı, bu dəfə də suyuldun, dəəsən?!..

"-Nə yaman tərlədin?" - Arvadının səsində rahatlıq, minnətdarlıqla yanaşı, qələbə çaları da vardı.

Dillənmədi, beynindən keçirdi, yaxşı ki, Arvadı qaranlıqda səssizcə ağladığını görmür, innən sonra həyatında nəyisə dəyişməyə gücü yoxdu, ömrü elə beləcə ötüb keçəcək". [1,101]

Beləliklə də taleyi ilə barışmaqdan başqa əlacı qalmır.

Cavanşir Yusifli yazır: *"Kişi qırığı" hekayəsi müəyyən mənada psixoloji ovqat və obrazlar üzərində qurulmuş bir mətndir. Hekayənin dili əhvalatın hərəkət axarına uyğun və yatımlıdır, burada təsvir olunan qorxacaq kişinin, necə deyərlər, içindən çıxan və əsas etibarilə bütün kini, nifrəti, ironiya və təşəxxüsü və ona yönələn obrazlar... Əhvalatın əvvəlindən sonuna qədər vəziyyətə adekvat, həm də onun müxtəlif istiqamətlərdən kəsib doğrayan reaksiya kimi "dillənir".*

N.Əbdülrəhmanlı xarakter yaratmaq ustasıdır. Bu mənada *"Kişi qırığı"* obrazı heç də istisna deyil. Həmişə cəmiyyətimizdə belə *"kişi qırığı"* statuslu insanlara nə qədər desəniz, rast gəlmək mümkündür.

"Kəpənək" hekayəsində müharibə görmüş cavanla elə həmin müharibədə ərini itirmiş, maddi sıxıntı içində olan cavan qadın təsvir olunur. Özü də, övladı da çətinlik içində yaşayan qadın uşaq üçün balıq almaqdan ötrü özünü satmağı düşünür. Lakin bunu edə bilmir. Əvvəlcə avtobusda rast gəldiyi yad kişinin evinə getməyə razılaşır, dərhal da peşman olur. *"Mənim ərim davada ölüb", - dedi, ayaqları dolaşa-dolaşa geri, dayanacağa doğru götürüldü". [1,111]*

Hekayədə oxucuya ən çox toxunan, təsir edən məqam həmin qadının və onunkimilərinin dövlətin və cəmiyyətin diqqətindən kənarda qalmalarıdır. Yazıçı bu qadınla divara qonmuş qara kəpənək arasında maraqlı bənzətmə yaradır. Sabir Bəşirov yazır: *"Əri davada ölən qadın da qapının yuxarısına qonan kəpənək kimidir, tutmaq istəyəndə uçub gedir, çünki qara kəpənəklərə əllə toxunduqda çox yaşamırlar". [1,47]*

Namuslu qadınlar da belədir, onlara yad əl toxunanda məhv olub gedirlər.

Bu gün öz namusunu satmamaq üçün *"qul bazarı"* deyilən bazarda cüzü muzdla ən ağır işləri belə görməyə hazır olan qadınlar cəmiyyətimizdə ən böyük hörmət və ehtirama layiqdirlər.

Hekayələrindən aydın görünür ki, yazıçı az sözlə daha çox fikir ifadə etmək, böyük tarixi hadisələri bir neçə cümlə ilə bildirmək bacarığına malikdir. Onun hər sonrakı hekayəsi irəliyə doğru bir addımdır. Həm də bu hekayələrin hamısının mövzusunu canlı həyatdan götürülüb. Ümumiyyətlə, N.Əbdülrəhmanlıda təxəyyül uydurmalarına çox cüzi rast gəlinir. Həm də hekayələrində təsvir etdiyi məsələləri qəbul etmək cəmiyyətimiz üçün nə qədər ağır olsa da, bunlar reallıqdır, bütün bunları qəbul etmək zorundayıq. Zamanında "Ölülər"i də qəbul etmir, "Ölülər" müəllifini az qala xalq düşməni kimi damğalayırdıq. Sabir Bəşirov yazır: *"...Şübhəsiz ki, N.Əbdülrəhmanlı növbəti hekayələrində oxucunu daha gözlənilməz formalarla heyrətləndirəcək. Çünki, dünya ədəbiyyatına bu qədər dərindən bələd olan qələm sahibinin tapdanmış yolla gedəcəyinə inanmıram". [6,61]*

Əminəm ki, povest və hekayələrin bir çoxunda təsvir olunan hadisələr N.Əbdülrəhmanlının həyatıdır, olub-keçənlər şəxsən öz başına gələnib. Yazıçı **"Yelçəkən"** toplusunun sonunda *"Ömürlüyüm"*də yazır: *"Uşaq vaxtı günuzunu havanın qaralmasını ürək döyüntüsüynən gözləyirdik. Vədə yetişən kimi çıxıb çaylaq daşından hörülmüş evimizin dəlmə-deşiklərində gecələyən sərçələri tutarduq. Qorxudan ürəkləri ovcumda partlayan quşçuğazları indiyəcən yadımdan çıxara bilmirəm.*

...Və günlərin birində mənim də ürəyim həyatın ovcunda partlayacaq".

***

N.Əbdülrəhmanlının hekayə yaradıcılığı təkcə "Yelçəkən"də toplanmış hekayələrlə bitmir. O, bu yöndəki fəaliyyətini sonralar da davam etdirib. Yazıçının 2015-ci ildə nəşr olunmuş **"Dönəlgə"** nəsr toplusunda haqqında söz açdığımız əsərlərlə yanaşı **"Gözəl kişi", "Cümə axşamı", "Ağ bayraq", "Qapı", "Təsadüfi adam"** hekayələri də yer alıb, həmin hekayələrin hər birində bu gün cəmiyyətimizdə mövcud olan maddi və mənəvi problemlərdən söhbət açılır.

“Cümə axşamı” hekayəsində əsərin qəhrəmanı rəhmətə getmiş müəlliminin xatirəsini əziz tutaraq onun cümə axşamına yollanır. Lakin yolda tamam başqa bir situasiya ilə qarşılaşır. Telefon nömrəsini bir qadına verib həsrətlə onun zəngini gözləyir. Cümə axşamı ikinci plana keçir. Bu N.Əbdülrəhmanlının bütün yaradıcılığı boyu davam edən qismət konsepsiyasıdır. Hadisələr hadisələrdən doğur. Cümə axşamına getməsəydi indi artıq yetkin yaşda olan sevgilisi ilə rastlaşmazdı.

“Gözəl kişi”də təsvir olunan qadın personaj cəmiyyətdə tanınan Gözəl kişiyə vurulur, ömrünün qalan hissəsini həmin kişiylə bağlı duyğularını öz içində saxlaya-saxlaya tənhalıq içində keçirir. Onun öz keçmişində faciə - sevmədiyi adamlarla yaşamaq faciəsi var, buna görə də ancaq platonuk sevgisinin hesabına həyatda qala bilir, Gözəl kişi vəfat edəndən sonra isə sanki yaşamaq üçün bir səbəbi qalmır, xatirələri ilə birgə dünyadan köçür. Bu, hekayədə qadının kişi qarşısında təslimiyyəti təsvir edilib.

“Ağ bayraq” hekayəsinin qəhrəmanı olan qadınsa hər şeydən çox özününkü olmayan hər şeyə nifrət edən, özününkü olanı isə heç kəsə verməyən adamdır. O, həyatına daxil olduğu ərini müxtəlif yollarla, hətta başqa qadınlarla əlaqədə olmasına göz yummaqla belə, özünə bağlamağı bacarır, nəticədə onun “ağ bayraq” qaldırmasına nail olur. Hekayənin süjeti müəyyən mənada “Kişi qırığı”nı xatırladır. Burada da kişinin qadın qarşısında məğlubiyyətinin şahidi oluruq.

“Qapı” hekayəsi isə artıq insanın həyat qarşısında məğlubiyyətini oxuculara təqdim edir. Əsərin qəhrəmanı üçün bu dünyada ən ağır iş qapı açmaqdır. Bunun hansı qapı olmasının fərqi yoxdur. Daha çox qazanmaq, daha yaxşı yaşamaq üçün meşin qapılar açmaq lazım gəlir, bir yandan da evində böyük çətinliklə artırdığı yeni otağa qapı açmalıdır, arvadı hər gün o qapının açılmasına təkid edir. O, meşin qapıları aça bilmir, evindəki qapını açanda isə əlini yaralayır.

Onu da qeyd edək ki, son üç hekayə müəllifin yaradıcılığında, ümumiyyətlə, ədəbiyyatda nadir hallarda rast gəlinən üslubda qələmə alınıb. Belə ki, hekayələrdəki hadisələr bircə cümlədə təsvir olunur, həm də "qapalı çevrə" xüsusiyyətinə malikdir, süjet xətti qırılmadan başladığı yerdə də sona çatır. Əlbəttə, bunu gerçəkləşdirmək yazıçıdan az ustalıq tələb etmir.

N.Əbdülrəhmanlın çoxşaxəli yaradıcılığı ilə tanışlıq zamanı aydın olur ki, o, dünya ədəbiyyatını müntəzəm mütaliə etməklə və ən möhtəşəm nümunələrini dilimizə çevirməklə yanaşı, o, üslub yeniliklərini yaxşı mənada əxz etməyi bacarır. Məşhur Avstriya yazıçısı Tomas Bernhardın xatirəsinə həsr olunmuş **"Təsadüfi adam"** hekayəsini fikrimizə sübut kimi misal çəkə bilərik. Düşünürəm ki, hekayədə təsvir olunan problem dünya ölkələrinin hamısı üçün eyniyyət təşkil edir. Burada yazıçı, belə demək mümkünsə, "əks istiqamət" üslubundan istifadə edib, yəni hadisə axırdan başlayıb əvvəldə bitir, bununla belə, dramatizmini sanacan saxlayır. Üstəlik, müəllifin T.Bernhardın nəsr havasını süjetə gətirməsi bütöv bir kompoziyanın yaranmasına səbəb olur.

Yazıçışnın hələ kitablatına daxil edilməmiş, ancaq mətbuat vasitəsi ilə oxuculara təqdim olunmuş **"Yarımçıq gün"** və **"Təkan"** hekayələrini birləşdirən ümimi leytmotiv ömrün mənasının axtarışıdır.

Birinci hekayənin qəhrəmanı ömür hekayətini yazmaq üçün sakit bir guşə axtarır, nəhayət qış günü şəhərətrafi sanatoriyada yerləşəndə dərk edir ki, əslində, bu da əbəs cəhddir, yazmaqla ötən ömrü geri qaytara bilməz, qismətinə düşən taleyi yaşamalıdır, əlindən bundan başqa bir şey gəlmir, qalan ömrünü də elə bu cür yaşamalıdır. Ədəbiyyatşünas Mehman Qaraxanoğlu haqlı olaraq qeyd edir ki, *"...hekayə bütövlükdə predmetlərin metaforası üzərində qurulub: sulu qara çevrilən qar dənəcikləri, ağ mələfə və yastıq üzləri, ağ kağız və qələm, yolüstü alınan alma, çantanın cibindəki qatlama bıçaq, almanı soyarkən deşilən çeçələ barmağı, oradan kağıza damçılanan qan, qan ləkəsinin böyüyərək tədricən "O"*

hərfinə dönüşü, "O"-nun assosiasiyası... Və "O"-nun qəfildən adi "O"-ya - Qadına çevrilməsi. Və iki "O"-nun hekayəti..."

İkinci hekayənin qəhrəmanı da ömrün yeknəsəqliyindən qurtulmaq üçün çırpınır, amma çıxış yolunun nədə olduğunu bilmir. Sevgisiz şəxsi həyat, gündəlik qayğılar, yorucu işlər, mənasız görüşlər içində həyatını dəyişdirəcək bir təkan axtarır, həmin təkanın isə nədən ibarət olduğunu, nə vaxt baş verəcəyini bilmir. Amma yazıçı bizi həmin təkanın mütləq olacağına inandıra bilir.

"Səsindən yıxılan" isə zamanın və şəraitin insanı dəyişdirməsi təsvir olunub. O dəyişikliklərin baş verdiyi adam bunu nə qədər gizlətməyə çalışsa da səsi hər şeyi büruzə verir. Üstəlik, o səsin iki yaxın insan arasında yaratdığı uçurum o qədər dərindir ki, istər-istəməz baş vermiş dəyişikliyə inanmalı oluruq. Ədəbiyyatşünas Zakir Məmmədin haqlı olaraq qeyd etdiyi kimi, *"Nəriman Əbdülrəhmanlı sözünü bir dostun, tanışın zəngindən (səsindən) başlayıb gəlib səsin dünya çapındakı zəhmində, ağırlığında dayanır. Daha doğrusu, yazıçının görəvi mesajını verməkdi. Səs də nüfuzun və gücün, acizliyin və gücsüzlüyün daşıyıcısı olur".*

Əlbəttə ki, N.Əbdülrəhmanlının hekayə yaradıcılığını məhsuldar saymaq olmaz. O, son 20 il ərzində cəmi 20-yə yaxın hekayə üzə çıxarıb. Bununla belə, yaradıcılığının ilk dövründə yazdıqlarını nəzərə almasaq, qalan kiçikhəcmli əsərlərini ədəbiyyatımızı uğurlu nümunələri saya bilərik.

POVESTLƏRİ

N.Əbdülrəhmanlı yaradıcılığa 80-cı illərdə başlasa da ilk nəsr kitabı olan "Yelçəkən"i 2004-cü ildə çap etdirib. Həmin kitaba yazıçının on hekayəsindən başqa iki povesti - "Göy adamı" və "Dönəlgə" *(yazıçı eyniadlı nəsr toplusunda bu povesti roman kimi təqdim edir və fikrimizcə əsərdəki hadisələrin miqyası da buna imkan verir)* daxil edilib.

N.Əbdülrəhmanlı o yazıçılardandır ki, öz əsərlərinə tənqidi münasibəti, obyektiv baxışı sevir. Yazdığı hər bir əsərində təsvir etdiyi hisslərin oxucuların da onunla birgə yaşamasını arzulayır. *"...Əgər bu yazıları oxuyanda, kimsə eyni duyğunu yaşayacaqsa, deməli, nəyəsə nail olmuşam... Hər halda, mənim də dünyadan qazancım budu. Başqa bir şeyə gümanım yoxdu ki, sizinlə bölüşüm...".*

"Göy adamı" povestinin mövzusu qismən "Lələ" hekayəsinə oxşayır. Baş qəhrəman Məhəddin də Lələ kimi, ayrı aləmin adamıdır insanlarla təmasdan qaçır, dərvişlər sayaq təkcənəlik dünyasına qapanır. O, torpağın üstündə yaşasa da insanlarla deyil, başqa aləmlə - Göylə təmas qurur. Hamı, doğma anası belə onu səy, yəni ağlıkəm hesab edir.

"-Mən sana neyləmişdim, a göydəki, bir züryət verdin, onu da səy elədin!"

Onu hətta səy hesab edib məktəbə belə götürmək istəmirlər. Məhi ətrafında heç şeyə reaksiya vermək istəmir, bütün canlıların içində ürək qızdırdığı tək insan hesabdarın qızı Çiçəkdir. Çiçəyin anası da qızının ona meyl etdiyini biləndə od qoparır. Lakin dad qıldığı adamlar səy adlandıra-adlandıra onun məktəbini yarımçıq qoyduqları kimi (baxmayaraq, Məhi hamıdan nümunəvi idi), oğlana bunu da çox görür, qızı başqasına nişanlayırlar.

Ona görə də Məhi həmin acgöz, hər şeydə öz xeyirlərini güdən adamların arasında yaşamaq istəmir, qurdu-quşu insanlardan daha üstün hesab edir. O, Çiçəyi özünün Tanrı payı sayır. Lakin qəsdinə duran kəslər bu payı ona vermək istəmirlər, sədrin oğluna layiq görürlər. Məhəddin də toy günü Çiçəkgilin pəncərəsi altına

gəlib daşürək, başqalarının işığını oğurlayan insanlara və bütün dünyaya üsyan edir:

"Çiçəyin toyu olan günü özünü saxlayammadı, canının, ruhunun ağrısını dilinə gətirdi:

-Süng elədilər dünyanı,-kəndin arasıyla gəzib qışqırdı, -işığımı taladılar, qoymadılar, bircə qırıq işıq qalsın. Dünyanın malından doymadılar, bir-birinin işığını oğurladılar, işığını keçirdilər... Hanı mənim işığım?! Sədrin oğlu oğurladı, özünün işığı yoxdu, işıqsız adamdı... Qanmır ki, özgənin işığıynan yaşamaq olmaz! Saxlamayacaq mənim işığımı, keçirəcək,vallah, vallah keçirəcək. Allah süng eləsin sizi! Allah işığınızı keçirsin, necə ki, keçirib!.. [1,49].

Məhəddinin nifrini keçir. Çiçəklə sədrin oğlu müəllifin təbirincə desək, "nə qədər süpürləşir, imsiləşirlər", Çiçəyin boynuna uşaq düşmür ki, düşmür. Çiçək anlayır ki, bunun səbəbi Məhəddinin qarğışıdır. Ona görə, Məhinin yanına gəlib üzürxahlıq edir, ona yalvarır. Məhi ona uşaq üçün Şəmilin yanına getməyi məsləhət görür. Sonda belə də olur. Çiçək Sədrin oğlundan ayrılandan sonra çoban Şəmilə ərə gedir.

Çiçəyi görəndən sonra Məhi həyatdan tamam küsür, sarsılır, üç gün özünə gələ bilmir. Belə bir vəziyyətdə onun dadına Ocaq oğlu Nəsir çatır. Hələ nə yaxşı ki, bu süng olmuş dünyada xeyirxah, başqalarının halına yanan insanlar var. Belə məqamda sovet sədri Ocaq oğlu Nəsir kömək əlini uzadır, onu axtarıb tapır, *"başına ağıl qoyur".* Onu tanıyan bütün insanlar arasında (hətta doğma anasından də) təkcə Ocaq oğlu Nəsir onu başa düşür, dərdinə şərik olur, ac qalmağa qoymur, kəndə enməyə, hətta evlənməyə razı sala bilir, daxmasını qaydaya salır.

Çiçək ərə köçəndən sonra çöldə qurd-quşla baş-başa qalan, geçələr isə Göylə danışan Məhəddin *"Allah axırınıza çıxsın"* deyib pis adamları daim qarğıyan Məhi bir də kəndə yeddi il sonra, anasının ölüm xəbərini eşidəndə sonra enir. O, hətta anası öləndə belə dəfninə gəlmir ki, adamlarla rastlaşmasın, qəbri üstünə gecə

qaranlığında gedir. Anasının ölümü ilə dünya ondan ötrü daha qatı zülmətə çevrilir, Məhəddini bu daha da zülmətləşən dünyada yaşamaq qorxusu bürüyür.

Niyə o, insanlardan qaçır, niyə kənddə, öz evində yaşamaq istəmir, tərki-dünya, guşənişin əyat tərzi keçirməyə çalışır. Ona görə ki, *"səs küyün içində səsi Allaha çatmır; həm də ki, dünyanın işləri yuxarıdan daha yaxşı görünür".* O, Ocaq oğlu Nəsirə *"...yer üzü məsələrinnən özün məşğul ol, sən halal adamsan; amma adamlara tapşır ki, göydə işləri olmasın".* Yazıçının bir sıra digər əsərlərinin qəhrəmanları kimi, Məhəddin də xarakter kimi, zəifdir, zamanın və pis adamların əməlləri qarşısında acizdir. O, işığını keçirmək istəyən adamlara qarşı mübarizədə elə bu acizliklə də göylərə əl açıb şikayətlənir.

Ocaq oğlu Nəsir *"Dəryalılarının Alısının altı qızından böyüyünü"* - Çəməni ona alır. Hamı onu səy hesab etsə də bircə Nəsir Məhiyə inanır. İnanır ki, tezliklə o da başqaları kimi, hər şeyi unudacaq, oğul-uşaq sahibi olcaq. Nəsir evlənəndən sonra da onlardan qayğılarını əsirgəmir.

Məhəddinsə əvvəllər hər dəfə Çəmənə baxanda Çiçəyi görür. O, zifaf gecəsi Çəmənlə şərt kəsir: *"Tanrıyla mənim arama girmə, eşitdinmi?!"*

Evlənəndən sonra Məhəddinin əsil həyatı başlayır. Nəsir ona ürək-dirək verir: *"Alışacaqsan, çətini örgənənətəndi, sonra oğul-uşaq basacaq, hər şey yoluna düşəcək".* Elə Məhi özü də bir neçə günün içində həyatının dəyişdiyini etiraf edir.

Lakin baş verən daha bir hadisə Məhəddinin bu həyata olan-qalan ümidini də məhv edir. Pis adamlar Ocaq oğlu Nəsir kimi, güclü, əlində müəyyən səlahiyyət olan kəsi də sındırır, böhtan atır, tor qururlar. Namərdlərlə üz-üzə qalan kişi bir gün onun yanına gəlib deyir: *"Elə yer oleydi, - dedi, başımı götürüb gedeydim çörəyi dizinin üstündə olan nakişiləri görmiyeydim... -Bir xeyli susdu, sonra köksünü ötürüb davam elədi. - Adamlar niyə belə olublar, bilmirəm... Bu qədər nanəciblik hardandı, a Məhi?! Hökumətin mal-dövlətini dağıdanlar üzümə*

dururlar, a qardaş, məni güdaza verirlər... Bu qədər Allahsızlıq olarmı, a Məhi?! Mən kimə pislik eləmişəm?".

Bu sözlərdən sonra heç Çəmənin paltarının altında get-gedə şişən qarnı da onu ovundura bilmir. Bir gün Ocaq oğlu Nəsirin həbs olunması Məhəddinin bu həyata da, insanlara da olan inamını tamam itirməsinə səbəb olur. Bu süng olunmağa layiq dünya niyə belə vəfasızdır? Heç körpəsinin dünyaya gəlişi də onu həyata bağlaya bilməir. Məhi göylərə üz tutub haray çəkir: *"Daha qaraltını görəmmirəm, səsini də eşidəmmirəm, işığım da çatmır! Yerdə yaşammıram! Apar məni, öz dərgahına apar! Apar!!! Apar!!! Apar!!!"* Bundan sonra da intihar edib birdəfəlik "süng olunmuş dünya"dan gedir. Amma özünü ağacın başından asır ki, Yerdən və aşağıdakı pisliklərdən uzaq olsun.

Məhəddini tipik obraz hesab etsəm, tənqidçilərin mənimlə razılaşıb-razılaşmayacaqlarını bilmirəm. Amma Məhi kimi bütün zamanlarda haqqı pozulan, hər addımbaşı səy, dəli adlandırılıb təhqir olunan minlərlə insanlar var. Dünya isə düzəlmir ki, düzəlmir. Məhi *"Göylə işiniz olmasın"* deyir. Amma insanlar Göyü rahat qoyurmu?.

"Göy adamı"nda təsvir olunan hadisələr, fikrimcə, yazıçı təxəyyülünün uydurması deyil, sırf real həyatdan götürülüb. Bu gün Azərbaycanın hər bir kəndində bir neçə Məhyəddin kimisinə rast gəlmək mümkündür. Amma bu məhyəddinlərə qəhmar çıxan, himayə edən Ocaq oğlu Nəsir kimiləri isə barmaqla sayıla biləcək qədər azdır. Tədqiqatçı Sabir Bəşirov yazır: *"N.Əbdülrəhmanlının ədəbi qəhrəmanları işıq həsrətində olan adamlardır. Yerdə işıq tükənəndə, Yer məxluqları işığı məhv edəndə, işıq həsrətində olanlar göyə üz tuturlar...".*

N.Əbdülrəhmanlının əsərlərinin demək olar ki, əksəriyyətinin qəhrəmanları talesiz insanlardır. Bu özlüyündə müsbət haldır. Xöşbəxt adamların onsuz da hər şey də bəxtləri gətirir, onların həyatından yazılmış əsərin bu qədər təsirli olacağına onanmaq çətindir. Yaxşıları hamı görür, tanıyır, əsas məsələ cəmiyyətin unutduğu

nakamları, talesizləri üzə çıxarmaqdır. Bu mənada **"Dönəlgə"** povestinin mövzusu çox aktualdır. Povestdə bir neçə nəsil insanın taleyindən bəhs edilir. Əsərdə Birinci Dünya Müharibəsində Sarıqamış əməliyyatında əsir düşüb böyük əziyyətlə Tiflisə yetişən, yarısı yolda qırılan "Osmanın yesirləri", repressiyaya məruz qalan bir nəsil və yüz minlərlə insanların arzularını puç edən İkinci Dünya Müharibəsinin fəsadları təsvir olunur.

Əsərin istər mənfi, istərsə də müsbət qəhrəmanları talesiz insanlardır. Xəstə Qadın da, onun hər lki Əri də, Xəstə Qadının qızı da, Dazbaş da, "Lütkom"da, hətta erməni postalçı da talesiz, nakam insanlardır. Ən boyük bədbəxt isə erməni postalçıdır. Tarix boyu başqalarının əlində alətə çevrilən, heç nəyə nail ola bilməyən ermənilərin tipik bir nümayəndəsidir.

Əsərin süjeti indiyəcən xəstəliyin, dava-dərmanın nə olduğunu bilməyən, qəfildən xəstələnib yatağa düşən bir qadının keçmişinin xatirələridir. Övladları böyüyüb hərəsi bir yana pərvazlanmış, damın altında tək qalmış xəstə bircə gün yatmağı arzulmasa da, bunda da bəxti gətirmir. İndi olub-keçənləri xatırlayır. On il ərzində iki dəfə ər itirmişdi.

Birinci ərindən razıdır. Onun qayğısına qalır, sevib əzizləyirdi. Lakin bu xoş günlər çox çəkmir. Kolxozlaşma başlayanda ərinin min əziyyətlə əldə etdiyi heyvanları alıb kolxoza qatırlar. Buna dözə bilməyən Əri Bedkoma *(kənddə hamı ona "Lütkom" deyir)* etiraz etdiyi üçün bir müddət sonra şər atıb gedər-gəlməzə yollayırlar. Qadın əziyyətlə qızını böyüdür, *"adına ləkə gəlməyə qoymaur".* Bu məğrur qadın korluq çəksə də "Lütkom"u öldürənlərin qızıl dolu küpünü rədd edir.

Bir müddət sonra ona *"Osmanlı yesirlərindən"* olan bir oğlanla ailə qurmağı məsləhət görürlər. Oğlan Sarıqamış əməliyyatında ruslara əsir düşən osmanlı türküdür, həyat yoldaşı ölüb, taleyi üzünə gülməyib, ona görə də içkiyə qurşanıb. Oğlan cuhud doktorla münasibət saxlayır, kəndə hansı yollasa gəlib çıxmış bir erməni postalçının yanında sərxoşluq edir. Cavan arvadını itirəndən sonra nakam

Oğlanın içkiyə qurşanması ailəsini narahat edir. Oğlanın yaxınları onu ikinci dəfə evləndirmək qərarına gəlirlər. Onda "Lütkom"un güdazına gedən zavallının yığvalsız arvadı yada düşür: *"Gözəl-göyçək gəlindi, ərinin başına o iş gələndən, adına güldən ağır söz deyilməyib, arnan-namusnan dolanır, evi-eşiyi də var". [1,165]*

Həmişə özgə millətlərə mərhəmətli olan xalqımız erməni postalçıya əhəmiyyət vermir, onu yazıq bilib sayıqlığı itirir. Kənddə yalnız məktəbin qaravolçusu ayıq-sayıqdır, gecə gündüz ermənini güdür, xətalı adam olduğunu bildirir, lakin heç kəs ona qulaq asmır. Çox keçmir ki, ermənin NKVD-nin agenti olduğu üzə çıxır.

Beləliklə də qadın ikinci dəfə "Osmanlı yesiri"nə ərə gedir. Qadın ona iki oğul doğur, lakin onların bu ailə səadəti uzun sürmür. Fələk dəftərində qaralanmış qadın ikinci dəfə bədbəxt olur. Müharibə başlayır, kişini cəbhəyə aparırlar. Lakin bir çoxları qayıtsa da, Qadının əri qayıtmır. Bu azmış kimi o, tez-tez NKVD-yə çağırılır, "Dazbaş" adlanan əməkdaş tərəfindən sorğu-sual edilir. Şaiyə gəzir ki, əri sağdır, hansısa xarici ölkədədir. Bir yandan da Qadını NKVD-nin agenti olan poçtalyon narahat edir, ərinin gəlib-gəlməməsini soruşur.

Sədr əsərdə müsbət obraz kimi verilib. Sovet sistemində çalışmasına baxmayaraq, hələ ürəyində az-çox rəhm qalan Sədrin ürəyindən Qadına, Osmanlı yesirlərinə kömək etmək keçir. Dazbaşı güllələyib, sürgünə göndərilmək üçün stansiyaya aparanları xilas etmək istəyir. Lakin o, haqlı olaraq fikirləşir ki, bunun o bədbəxtlərə heç bir xeyri yoxdur. Buna görə də sürgünə göndərilənlərə məsləhət görür ki, hökumətin qərarına qarşı çıxmasınlar, səbirli olsunlar, gec-tez həqiqət öz yerini tapacaq. O bir müddət tərəddüd edəndən sonra qadına kömək etmək qərarına gəlir, amma vəzifə borcu buna imkan vermir.

Belə bir xalq deyimi var: *"Ananın ömrü balaya borcdur".* Qadın qızını da bir Osmanlı yesirinin oğluna verir. Zəhmətkeş olan oğlan araba düzəltməklə külfətini dolandırır. Amma az sonra erməni postalxanasına dadanıb içkiyə qurşanır. Arvadı

onu bu işdən çəkindirmək üçün çox çalışır, bir gün o postalxananı dağıdacağı ilə hədələyir.

Həyat Oğlanın atası üçün də asan keçməyib. O, Sarıqamışda əsir düşüb. Bir Qaraçöplü Hacı onların bir neçəsini əsirlikdən xilas edib, yaralarını sağaldıb, evləndirib, ev-eşik sahibi edib. Sonralar Hacının də əmlakı hökumət tərəfindən alınıb. Povestdə təsvir olunan müsbət qəhrəmanların hər biri xeyirxah insanlardır. Lakin onlar bunun müqabilində pislik və xəyanətlə üz-üzə gəlirlər. Sabir Bəşirov yazır: *"İnsan dərk edəndən bəri onu düşündürən suallardan biri yenə cavabsız qalır: yaxşılıq, xeyirxahlıq edənlərin çoxu niyə pislik, yamanlıqla rastlaşır, xoş gün görmürlər". [6,53]*

Məshəti türklərinin acınacaqlı taleyinin, Qazaxıstana sürgün edilmələrinin təsviri əsərin ən təsirli səhnələridir. Təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, bu hələ ki, ədəbiyyatımızda nadir hallarda rast gəldiyimiz hal olduğuna görə, alqışalayiq işdir. Çünki bugün Məhsəti türklərin həyatından yazan çox az qələm adamına rast gəlinir.

Əsərin tənqid diapazonu çox genişdir. Xəstəxanada həkimlərin dərmanları qədərindən çox yazması, sonra onları aptekçi ilə bölüşməsi... Bu sətirləri oxuyanda yazıçı Aqil Abbasın "Dolu" romanını xatırladım. Ağdamın müdafiəçilərindən biri olan Musanın evinə qrad düşür. Döyüşçünün anasının ayaqlarını kəsmək üçün Bakı xəstəxanalarının birinin həkimi nin manat pul istəyir. Cəbhədəki əsgərlər həmin məbləği yığıb Bakıya - həkimə göndərirlər. Hipokrat andı içmiş bir həkimin *"Mənim qismətimə həmişə kasıb-küsub, ya da qaçqın-köçkün düşür"* - deməsi bu günkü həyatımızın reallıqlarından biridir.

Şəxsi qənaətimə görə, dünya yer üzərində əşrəf kimi yaradılan insanların əməlləri ilə tənzimlənir. Həm də mən dünyanın ən çox tərəzi ilə müqayisəsini düzgün hesab edirəm. Dünya həqiqətən tərəzidir, bir gözündə şər, bir gözündə xeyir var. Pislik yaxşılığı üstələyən kimi, dünyanın tarazı pozulur, təbii fəlakətlər

baş alıb gedir. Bir rüşvətxor, süründürməçi məmurla bacarmadıqda üzümüzü göyə tutub: "Dağıl, a dünya" deyirik. Dünya da dağılır. *"Fələyin dönəlgəsi dönsün..." - Anam belə deyərdi"* xalq deyimini "Dönəlgə" povesti üçün epiqraf seçib.

Yazıçı Əlabbas "Şairlər yurdunun nasiri" məqaləsində yazır: *"Dönəlgə" kimi əsərləri yalnız dilin min arşın dərinliyinə yenməklə, yaxşı mənada sözün başına oyun açmaqla yazmaq olar. Bu adam təkcə onları eləməyib, gəlin baxın, dialoqları necə qurub, təhkiyədə necə ustalıqlar eləyib, üslubda hansı gözəlliklər var...".*

N.Əbdülrəhmanlının "Dönəlgə" povestini təkcə müəllifin yaradıcılığında yox, bütövlükdə Azərbaycan nəsrində ən yaxşı bədii mətnlərdən biri saysaq, fikrimizcə, heç də səhv etmərik.

ROMANLARI

KÖNÜL ELÇİSİ

yaxud Don Xuan de Persia - Oruc bəy Bayatın hekayəti

N.Əbdürrəhmanlının yaradıcılığında tarixi mövzuda yazdığı "Könül elçisi, yaxud Don Xuan de Persia – Oruc bəy Bayatın hekayəti" *(bundan sonra qısaca "Könül elçisi" adlandıracağıq)* romanı xüsusi yer tutur. Müsahibələrinin birində qeyd etdiyi kimi, müəllif romanı qələmə almaq üçün hazırlığa təxminən 20 il sərf edib. Belə məlum olur ki, yazıçı bütün yaradıcılığı boyu bu ideyanı beynində daşımış, nəhayət 2006-cı ildə yazıb çap etdirib. Xalq şairi Zəlimxan Yaqubla söhbətlərimin birində hörmətli şairimizdən ölməz "Peyğəmbər" poemasını nə vaxtdan yazmağa başladığını soruşdum. "Peyğəmbər"i bütün ömrüm boyu yazmışam", - dedi.

Əsərin mövzusu 1599-cu ildə I Şah Abbas tərəfindən Osmanlı imperiyasına qarşı müttəfiq axtarmaq məqsədi ilə Avropaya göndərilmiş diplomatik missiyanın, əsasən səfarətin birinci katibi, elçi heyətinin əksər üzvləri kimi, orada qallıb bir daha vətənə dönməmiş Oruc bəy Bayatın həyat və fəaliyyətidir. Roman yazılana qədər adını yalnız tarix kitablarından tanıdığımız Oruc bəy İspaniyada diplomatik fəaliyyətlə yanaşı (çoxlarının güman etdiyi kimi, yalnız eşq məcaraları ilə məşğul olmayıb), 1604-cü ildə ispan dilində 4 hissədən ibarət olan *"DE DON İVAN DE PERSİA" ("İranlı Don Xuanın həyatı")* adlı kitab yazıb nəşr etdirir. O.Əfəndiyev və A.Fərzəliyev tərəfindən Azərbaycan dilinə tərcümə olunmuş bu əsərdə Səfəvi dövləti, qızılbaş tayfaları, əmirlər və şahzadələr arasında hakimiyyət uğrunda gedən mübarizədən, hətta daxili saray çəkişmələrinə qədər bəhs olunur. Onu da qeyd edək ki, həmin əsər bu gün Səfəvilər tarixini öyrənmək baxımından qiymətli mənbə sayılır.

Araşdırmaçı kimi belə düşünürəm ki, roman janrı nəsr nümunəsi kimi bədii təxəyyül məhsulu olsa da, bu tarixi romanlarda bu istisna təşkil etməlidir. Tarixi romanlarda daha çox tarixilik gözlənilməlidir. O mənada ki, tarixi bilməyən oxucu

bu əsəri oxuyar və hansı hadisənin tarixi fakt, hansınınsa təxəyyül uydurması olduğunun fərqinə varmaz. Bu səbəbdən də tarixi gerçəklik və bədii ədəbiyyatın sintezi ehtiyatlı münasibət tələb edir.

Əsər boyu müəllif iki məqsəd güdür: Şah Abbasın Avropa ölkələrinə göndərdiyi böyük səfarətin iflasa uğramasının və Oruc bə Bayatın xristianlığı qəbul edib Vətənə dönməkdən imtina etməsinin səbəblərini aydınlaşdırmaq. Hər iki səbəb üçünsə ilk növbədə Şah Abbasın şəxsiyyətini olduğu kimi xarakteriza etmək lazımdır. Çünki, romanda təsvir olunan bütün hadisələr bunun üstündə qurulub. Buna görə də gəlin tarixə müraciət edək.

I Şah Abbas paytaxtı Qəzvindən *(I Şah Təhmasib 1548-ci ildə dövlətin mərkəzini Təbrizdən Qəzvinə köçürmüşdü)* İsfahana köçürməklə Azərbaycan Səfəvi dövlətinin farslaşdırrılması üçün zəmin yaratdı. O, türkmən mənşəli bir çox görkəmli dövlət xadimlərini və sərkərdələri digər etnik mənşəli adamların fitvası ilə edam etdirdi. Səfəvi-Osmanli savaşları zamanı onun əmri ilə yüz illər boyu böyük çətinliklə əkin üçün yararlı hala salınmış torpaqlar yandırıldı, su qoyuları doldoruldu, əvəzində isə xalqa heç bir kompesasiya ödənilmədi. Qurbanlıq üçün hər iki halda kəsildiyi üçün onun toyda və yasda kəsilməsinin heç bir əhəmiyyəti olmadığı kimi, Azərbaycan üçün də bu savaşlarda hansı tərəfin qalib gəlməsi, əslində, heç bir məna kəs etmirdi. Çünki hər iki halda ölkə böyük dağıntılara məruz qalır, əhali var-yoxdan çıxır, doğma yerlərini tərk edib gedirdilər. Çünki, həmin savaşlar əsasən Azərbaycan uğrunda gedirdi, həm də Azərbaycan ərazisində aparılırdı.

Şah I Abbas qonşu dövlətlərlə bağladığı müqavilələrdə verdiyi vədə yerinə yetirmirdi. *(1612-ci ildə Sərab sülhünə görə, Osmanlılara vəd etdiyi yüz yük ipəyi verməkdən imtina etmiş, həmin ipəklə portəgizlərdən odlu silah almışdı).* Ən böyük qəbahətlərindən biri xalqı doğma yerlərindən köçürüb didərgin salması idi.

Minlərlə insanın məhvinə səbəb olan bu hadisə *"Tarixin qəmli simfoniyası"* adlanır.

Böyük Şah Abbas əzifəyə təyin etmək üçün *"peşkəş"* adlanan xüsusi vergi təyin etmiş, bununla da rüşvət verib vəzifəyə gəlməyi bir qanun çərçivəsinə salmışdı, bundan da ölkədəki farslar, ermənilər və başqüa etnik qrupların nümayəndələri faydalanırdılar.

Fikrimizcə, o, paytaxtı İsfahana deyil, Arazın şimalındakı şəhərlərdən birinə-Şamaxıya, Gəncəyə, Bakıya köçürtsəydi, bu gün ermənilər bizə *"Sizin cəmi yüz il dövlətçilik ənənələriniz var"* deməzdilər. Özünü *"İran Aslanı" (Azərbaycan aslanı deyil, məhz İran aslanı)* adlandıran I Şah Abbasın siması, əslində, budur. Sadaladığımız keyfiyyətlər onun portretini cızmağa kifayət edir və düşünürəm ki, I Şah Abbasın ya özündən, ya da dövründən əsər yazan hər bir kəs bu keyfiyyətləri əsas götürməlidir. Bütün bunlara əsaslanaraq da Şahın elçilik missiyasının iflasa uğraması, o cümlədən, Oruc bəy Bayatın dinindən dönüb xristanlığın katolik məzhəbini qəbul etməsi və vətəninə dönməməsinin birinci səbəbi kimi, Şah Abbasın yuxarıdakı keyfiyyətlərini göstərmək olar.

İkinci səbəb kimi Şah Abbasın xristianlara, xüsusilə də ermənilərə göstərdiyi izaholunmaz etimad idi. Şah Abbas anasının və qardaşının ölümünü bəhanə gətirib 22 qızılbaş əmirinin boynunu vurdurmuş, ailələrini, tayfalarını təqib etmişdi. Lakin qardaşı Həmzə Mirzənin başını ülgüclə üzən, əslən erməni olan dəllək Xudaverdinin ailəsini də, nəslini də heç vaxt təqib etmədi. Əsərdən oxuyuruq: *"Amma qibleyi-aləm qardaşını qurbanlıq qoyun kimi boğazlayan məlundan da hiyləgər "mömin müsəlman" pərdəsiylə gizlənib altdan-altdan tor toxuyan idbar bir kəsi özünə məsləhətçi götürüb məmləkətin aləmdə nüfuzunu qaldırmağı ona etibar eləyib".*

Oruc bəy oğlu Sultanəliyə məktubunda yazırdı: *"Ciyərparam Sultanəli, mən yaşadığım əlli ilin (on ilini ömrümdən saymıram) iyirmi beş ilini Şahımıza,*

məmləkətimizə, uca dinimizə xidmətdə olmuşam. Ancaq görəndə Şahımızın dörd bir yanını bürüyən satqınlar, yaltaqlar, kafirlər sayəsində məmləkətimiz də, dövlətimiz də, dinimiz də təhlükəylə üzləşir, onda əlimi yanıma salıb oturmağı özümə rəva görməmişəm".

Oruc bəyin öz əsərində ermənilər haqqında bircə kəlmə də yoxdur. Buna isə təəccüblənməyə dəyməz, çünki, bizdə milli təəssübkeşlik dini təəssübkeşlikdən həmişə zəif olub. Bu, bizə milli birliyimizi məhv etmək istəyən ərəblərdən miras qalıb. Təsadüfi deyildir ki, Oruc bəy Şahın ermənilər-xristianları himayəyə götürdüyünü dedikdə səfarətin başçısı Hüseynəli bəyin sərt baxışları ilə qarşılaşır. Əslində, erməni amili bütün tarix boyu baş verib, sadəcə işıqlandırılmayıb. . Müəllifin ermənilərlə bağlı qəhrəmanının dilindən səsləndirdiyi fikirləri isə tarixi həqiqətlərə söykənən yazıçı narahatlığıdır.

Əsərlə tanışlıqdan məlum olur ki, I Şah Abbas hakimiyyətə gələn gündən Osmanlı imperiyasını çökdürmək, məhv edib tarixdən silmək məqsədi ilə Avropa dövlətlərinin dəstəyini qazanmağa çalışır. Elə bu əsnada türk dilini gözəl bilən, özünü Şotland kralı Ceymsin əmisi oğlu kimi qələmə verən Ser Antoni Şeirlin adlı bir fırıldaqçı Şahın yanına gəlir, özünü 8 Avropa dövlətlərinin nümayəndəsi kimi təqdim edir, Şahı bu işə şirnikləndirir, nəticədə məqsədinə nail olur. Beləliklə də *"yalançı tamahkarı aldadır".* Şah Osmanlılara qarşı Avropa ölkələrinə geniş tərkibdə nümayəndəlik göndərir. Lakin I Şah Abbas başa düşə bilmirdi ki, Avropa dövlətləri o qədər sadəlöv deyillər, türk dövlətlərinin birini zəiflədib digərinin güclü olmasına imkan yaratmayacaqlar. Onların hədəfi bütövlükdə türk dünyasını zəiflətmək və asılı vəziyyətə salmaq idi. Dil tapa bilməyən şiə qızılbaşlar və sünnü osmanlılar bir-birinə qarşı nəinki xaçpərəstlərlə, hətta buddistlərlə belə ittifaqa girməyə razı idilər. Onlar, özlərilə bir dinə, bir Allaha sitayiş edən, Məhəmməd peyğəmbərə beyət edən din qardaşlarını *kafir* adlandırırdılar. Roma katolik

papasına göndərdiyi məktubunda Şah Abbas yazırdı: *"Dinimiz ayrı olsa da düşmənlərimiz birdir. Ümüd edirik ki, əməkdaşlığa uzanan əlimizi tutacaq və köməyinizi əsirgəməyəcəksiniz".* Avropa dövlət başçılarına yazdığı məktublarında isə o, daha irəli gedərək bildirirdi: *"Xristian ölkələri arasındakı ixtilaflar Səfəvi dövlətini sarsıdır və şah ümid edir ki, bütün bunlara son veriləcək, xristianlar səylərini Ali-Osmana qarşı yönəldəcək. Səfəvi dövləti isə öz növbəsində Qərbdən 150 minlik qazi və 60 min nəfərlik qorçu ilə düşmənə sarsıdıcı zərbə endirəcək. Bu müttəfiqlik sayəsində xristianlar Səfəvi dövlətinin bütün ərazisində azad ticarət edə, kilsələr tikə bilərlər".*

Oruc bəy Bayat səfarətin birinci katibi kimi bütün bunlardan xəbərdar idi, onun öz dinnidən üz döndərməsi *(əslində, o, islamdan zahirən üz döndərir, tək qalanda və gizlində həmişə Qurani-Kərimə üz tutur)* və vətənə qayıtmaqdan imtina etməsinin səbəblərindən biri də bu amil sayılmalıdır.

Bunla yanaşı o, artıq qanıqarışıqların fitnəsi nəticəsi olaraq, dövlətin özəyi olan qızılbaş əmirlərinə əsla etibar etmirdi. Hansı qızılbaş əmiri bir gün ətrafını bürümüş satqınların və yaltaqların fitvası, Şahın əmri ilə qətl olunmayacağına əmin ola bilərdi? Avropa ölkələrində uğursuzluğa düçar olmuş, üzvlərinin bir hissəsi bu və ya digər səbədən xristianlığı qəbu edib qürbətdə qalmış səfarətin birinci katibi kimi, Oruc bəy özü də edam oluna bilərdi. Oruc bəylə Əliqulu bəyin dialoqundan bunu aydın surətdə başa düşmək olur.

"-Sən məmləkətin yolunda qılınc çalmısan, tüfəng atmısan, qan tökmüsən, Əliqulu bəy, - dedim, - o məmləkətdə sənin oğul-uşağın, doğmaların, nəhayət, xatirələrin qalıb, bu cür fikirləri özünə necə yaxın buraxırsan?

-Düz deyirsən, onda bəs niyə Şahımız altdan-altdan farsları, kürdləri, cürbəcür qanıqarışıqları yanına çəkir, gavurlara kölgə salır, bizisə bir-birimizə qırdırıb zəif salır? – Onun dodaqlarında kinayəli təbəssüm vardı, görünür, sorduğunun cavabını məndən də yaxşı bilirdi. - Bir məmləkətin ki, taleyi gürcü atlılarından,

erməni Xoca Səfərlə ingilis Antoni Şeirlidən asılıdısa, sənin-mənim o məmləkətdə olmağımızın xeyri varmı?

-İndiyəcən səndən bu cür fikirlər eşitməmişdim... - Təccüblə onu süzdüm.

-Ona görə ki, yolunda qan tökdüyümüz məmləkətdə bu sözlər söyləyənin gözlərinə mil çəkir, qulaqlarına qurğuşun tökür, ya da boynunu vururlar, - Əliqulu bəy əlini boğazına çəkdi. Onsuz da Xoca Səfər Həsənəli bəyin uğursuzluğunu, şahımız da əlinə fərman verdiyi ser Antoninin fırıldağını, üç təbəəsinin də dönük çıxdığını bizə bağışlamayacaq. Gedib məmləkətdə günahsız ola-ola dar ağacına çəkilməkdənsə, qürbətdə əzab çəkə-çəkə yaşamaq daha məqbul deyilmi? Heç olmasa, övladlarım rüsvayçılıqla ölümümü görməzlər".

Elə Hüseynqulu bəyin bu hərəkəti də diplomatik heyətdə ən çox Oruc bəyə təsir etmişdi.

Bəs niyə Oruc bəyi böyük elçiliyin tərkibinə daxil edilmiş, ona bu elçiliyin birinci katibliyi etibar olunmuşdu? N.Əbdülrəhmanlı bunun səbəbini onunla izah edir ki, Oruc bəyin atası Sultanəli bəy Şah I Təhmasibin çox yaxın adamı olmuşdu. Şah ən məsuliyyətli tapşırıqları ona etibar etmişdi. Şah I Abbasın edam etdirdiyi qızılbaş əmirləri arasında Bayat tayfasından heç kəs yox idi. Elə səfirliyin başçısı Hüseynəli bəy də Bayat qəbiləsindən idi. Misiyanın iflasını qabaqcadan görən Oruc bəy bunun qarşısını almaq üçün çox cəhd edir, Əliqulu bəyi inadından döndərməyə çalışır, bir neçə dəfə geriyə qayıtmaq barədə düşünür. Amma qorxur ki, bu *"Şahımızın daha artıq qəzəbinə səbəb olardı, üstəlik Bayat tayfasının, nəslimin, Şahımızın, xanədanımızın, axırda məmləkətimizin şərəfinə xələl gətirərdi"*. O, yalnız son çarə, İspaniyada yaşamaq imkanı qazanmaq imkanı kimi katolikliyi qəbul edir.

Oruc bəyin Səfəvi məmləkətinə dönməkdən imtina etməsinin bir səbəbini də *(zənnimcə, əsas səbəblərdən biri)* onun ilk gündən Avropa həyat tərzinə alışması və bu həyatın Səfəvi dövlətindəkindən çox-çox üstün olduğunun fərqinə varması

idi. Qızılbaşlar məmləkətindən fərqli olaraq burada saray çəkişmələrdən əziyyət çəkmir, insanlar öz dindaşlarını kafir adlandırmır, doğmalarını qətl etdirmirlər. Heç bir xristian dövləti digərinə qarşı əks dindən olan ölkələrlə ittifaq bağlamağa çalışmır. *(bu, baş versəydi də əsil vətəndaş müharibəsi olardı).* Onlar bircə nəfər dindaşlarının belə qətlinə razı olmurlar. Yüzminlərlə müsəlmanların ölümünə fitva verən, xristianları müsəlmanlara qarşı səlib yürüşünə səsləyən Papa günah işlətsə belə *(Səfəvi şahının hədiyyələrini qarət edir),* ser Antoninin cəcalandırılmasına razı olmur, hətta onu himayəyə götürür. Elçiliyin bir-neçə üzvü Avropa həyat tərzini gördükləri ilk gündən islam dinindən imtina etmələri də onun addımının daha bir səbəbi idi.

Avropa ölkələri Şahın Osmanlılara qarşı ittifaq təklifini alqışlayır, amma heç bir konkret tədbir görmürlər. Onlar heç də sadəlöv deyillər, iki qonşu dövlət arasında düşmənçilik vəziyyətinin qalması başlıca məqsədləridir.

Şah Abbasın qılığına girib onu Osmanlılara qarşı qızışdıran, əslən erməni olan Xoca Səfərlə avropalıları birləşdirən ümumi cəhətlər var. Bəlkə də bu elçilik Xoca Səfərlə ser Şeirlinin ortaq hiyləsinin nəticəsi idi. Onlar ermənilərі himayəyə götürülmələri baradə məktublarını Avropa dövlət başçılarına, Roma Papasına vermək müqabilində Şahın göndərdiyi, ser Şeirliyə etibar edilmiş bəxşişləri fırıldaqçının mənimsəməsi üçün asanlıqla razılığa gələ bilərdilər. Ola bilsin, missiyanın iflasa uğramasının bir səbəbi də məhz bu idi.

Bunu ilk günlərdən başa düşən Oruc bəy mübarizə aparır. Lakin Əliqulu bəydən başqa özünə həmfikir tapa bilmir. Müəllif Oruc bəyin dilindən yazır: *"Mən hələ xəyalıma gətirə bilmirdim, əgər əcnəbi hökmdarlar Şahımızın naməsinə istədiyi cavabı versələr, osmanlılarla davada məmləkətimizə necə kömək eləyəcəklər: gəmilər göndərəcəklər, yoxsa ləşkər çəkəcəklər? Osmanlıların qabağında əcnəbilərin bir neçə min qoşunu neyləyəcək? Bundansa Şahımız Sultanla dil tapıb ortaq məsələləri çözə bilməzmi?"* Amma göründüyü kimi, bu iki türk hökmdarı

heç vəchlə bir araya gələ bilmirdilər. Aralarındakı məzhəb ixtilafı buna imkan vermirdi. Gah Osmanlı sultanı Səfəvi elçisini, gah da Şah Osmanlı elçisini təhqir edir, həbsə salır, öldürtdürürdü.

Oruc bəyin öz dinini dəyişməsinin bir səbəbini açıq-saçıq, daha sivil Avropa qızları ilə bağlasaq *(hərçənd ki, müəllif bu haqda əsərdə danışmır)*, zənn edirəm ki, yanılmaram. Avropa qadınlarının türk-müsəlmana ilk baxışdan vurulduqları kimi, müsəlman kişisinin də çılğın avropalı qadınlarına vurulması tamamilə təbiidir. Bir də ki, bu, tarixdə yeganə hal deyil ki! Bəs müsəlman-türk hökmdarlarının başlarına gələn bəlaların səbəbkarı həmin açıq-saçıq qadınlar deyildimi? Qəzəl şairləri meyi-meyxanəni ibadətdən üstün hesab etdikləri kimi, müsəlman kişilərin də bəziləri avropalı qızları din-imanlarından üstün hesab edirlər. Bəs, Osmanlı sultanları avropalı qadınları həvəslə arvad edib, bu qadınların və onlardan olan uşaqların ucbatından Aralıq dənizi hövzəsini və Ərəbistanı itirmədilərmi?

Amma bir məsələ yəqindir ki, Oruc bəy İspaniya qadınları ilə eşq məcarası qurana qədər onun vətənə dönməməsi üçün kifayət qədər əsas vardı. Moskva knyazının verdiyi ziyafət məclisində şərab içməsi, səfarətin bir neçə üzvünün islamdan üz döndərib katolikliyi qəbul etməsi, xüsusilə də Şahın özü qədər inandığı Əl-Fəqihin öldürülməsini Şah, elçiliyin birinci katibi kimi məsuliyyət daşıyan Oruc bəyə heç vaxtı bağışlamayacaqdı. O, sadəcə Avropada yaşamağa məcbur idi. Avropada yaşamaq üçünsə yeganə yol katolikliyi qəbul etmək sayılırdı. Özü də rekonkistanın yüz il əvvəl başa çatdığı İspaniyada.

Nəriman Əbdürrəhmanlı Don Xuanın *(Oruc bəyə Don Xuan adı məhz qadınlara çox meyilli, İspaniyada qadın düşgünü kimi məşhur olduğuna görə yox, qaydaya görə, dinini dəyişəndə zəruri şərt kimi, ispan adı götürəndə tərcüməçisinin adını daha münasib saydığına görə verilmişdi)* eşq məcaralarına uzun-uzadı yer verməyib, əsas diqqəti onun yaradıcı fəaliyyətinə və Vətən nisgilinə yönədir. Onun öz xalqına, vətəninə, Şahına, adət-ənənələrinə sədaqətindən uzun-uzadı söhbət açır.

Bundan başqa müəllif Oruc bəyin müəmmalı ölümü haqqında da oxuculara məlumat vermir. Bu təbiidir: roman onun dilindən qələmə alınıb, Gürcüstan səfərində həlak olan oğlu isə atasının ölümündən xəbər tuta bilməzdi.

Əsərin böyük bir hissəsi Oruc bəyin yol xatirələrinə həsr olunub. Fikrimizcə, onun İspaniyadakı fəaliyyətinə dana çox yer verilməli idi. Çünki, Oruc bəyin öz dinindən üz döndərməsi və yazdığı əsərində islamı sərt şəkildə tənqid etməsinin başlıca səbəbi kimi, Avropa həyat tərzi və İspaniyadakı eşq məcaraları göstərilir. Amma görünür, vətənpərvər insan olan N.Əbdürrəhmanlı bu böyük türk babamızın obrazını öz ideallarına uyğun yaratmaq istəyib.

Əsər boyu o, daim öz ailəsini - oğlu Sultanəlini, xanımı Nisəxanımı düşünür, müəllimi və qayınatası Mirzə Qədimi dönə-dönə xatırlayır, səfərin bütün çətinliklərinə dözür, Şahın missiyasını yerinə yetirib tezliklə doğmalarının yanına qayıtmağa can atır. Bu məqsədlə hər bir əzaba qatlaşır, yalnız qələmi ilə təsəlli tapır. Roman haqqında fikirlərini qələmə almış mərhum şair-publisist Tofiq Abdin yazır: *"Bu dözümün ona gətirdiyi ən böyük xoşbəxtlik əlində qələm olmasıdır və bu qələmi də çox gözəl məqsədə, yəni gündəlik yazmağa yonəltməsidir".*

Müəllif Oruc bəyin qürbət taleyini alın yazısı hesab edir. Ümumiyyətlə, Nəriman Əbdürrəhmanının yaradıcılığı ilə tanışlıq zamanı onun alın yazısına güclü inamının şahidi oluruq. Burda isə mənim hörmətli müəlliflə razılaşmadığım məqamlar var. Belə çıxır ki, alnına pis işlər yazılan birisinin yaxşılığa cəhdi əbəs sayılmalıdır. Axı, onsuz da o öz alın yazısını yaşayacaq.

"Könül elçisi" ölkələr haqqında məlumat və tarixi faktlarla coğrafiya və tarix dərslikləri qədər zəngindir. Burada yüzlərlə coğrafi adlar - çaylar, şəhərlər, heyvanlar aləmi haqqında məlumat verilir. Oxucu istər Azərbaycan, istərsə də İspaniya ədəbiyyat və sənət adamları haqqında çoxlu bilgilər alır. Belə böyük bir əsərin təhlilinin bir neçə səhifəyə sığmayacağını nəzərə alaraq qeyd edək ki, həmin

coğrafi adların sadalanması da imkan xaricindədir. Roman böyük bir dövrün zəngin tarixi hadisələrini əhatə edir.

Əsərdə oxucunu ən çox məşğul edən Oruc bəyin kitabın əlyazması ilə birgə oğlu Sultanəli bəyə göndərdiyi məktubdur. Bu məktubu yazmaqda Oruc bəyin məqsədi nə idi? Təkcə sağ-salamat olduğunu bildirməkmi? Elə düşünürəm ki, bu, kitaba onun özündən asılı olmayaraq, məcburən daxil edilmiş islamı *"bütpərəstlərin və iudaizmin yalançı sektası"* adlandırılması, *"Mənim babalarım və ulu babalarım saxta etiqada qulluq eləyirdilər, mən də həmin şəraitdə, Məhəmmədin yalançı sektasına mənsub olan şəraitdə böyümüşəm, çox-çox uzaqlardan, İspaniyadan, bu kitabı yazdığım Valyadolid şəhərindən üç min lyö məsafədə yerləşən bir ölkədə, əqidəsiz xanın hökmü altında olan məmləkətdə yaşamışam"* sözlərindən duyduğu vicdan əzabı idi. O, məcbur qalaraq kitabın dördüncü hissəsini yazır, lakin çap etdirmir, əlyazması halında oğlu Sultanəli bəyə göndərir. *(Hərçənd ki, umumiyyətlə, bu dördüncü kitabın Tiflis əlyazmalar institutunda həqiqət mövcud olması, yoxsa bunun bir yazıçı uydurması olması romanda heç cür anlaşılmır).*

Professor Bədirxan Əhmədli haqlı olaraq Oruc bəy Bayatın dördüncü kitabını Kamal Abdullanın "Yarımçıq əlyazma" əsəri ilə müqayisə edir. Hər iki əlyazmanın yarımçıqlığı, hər ikisində postmodernist ideyaların mövcudluğu həmin mətnlərin posmodern xüsusiyyətlərlə izah olunur.

Oruc bəyin vətənə dönmək yolları bağlansa da o, Avropada ləyaqətli bir həyat tərzi keçirib, qızılbaş şərəfini ləyaqətllə daşıyıb, Niderland üsyançılarına qarşı vuruşub, öz vətəninin şöhrətini həmişə uca tutmuşdur. *(Təəssüf ki, müəllif bütün bu faktların üstündən sükutla keçir).* Təsadüfi deyildi ki, haqqında yazılan 7 sonetdə Oruc bəy *"kübar görkəmli, sıx qalın saçlı, Neptun sayaq vüqarlı, görəndə Appolunun utana-utana gözünü döydüyü, dinməz-söyləməz əzab çəkən, ötüb-keçən illərin yeyib tükətdiyi"* bir insan kimi təsvir olunur.

Əsər bir nəfərin - Oruc bəyin adından söylənilən xatirə romandır, səyahətnamədir. Müəllif ya personajlar arasında dialoq qurmağın çətinliyindən, ya da bizə məlum olmayan tamam başqa bir səbəbdən bu ədəbi janra üstünlük verir.

Oxuduğum tarixi romanlarda ilk axtardığım yazıçının tarixə münasibətidir. Çox olur ki, yazıçı tarixi hadisələri tərif edir, öz təxəyyülündə uydurduğu hadisələrlə əvəz edir. "Könül elçisi"ndə Nəriman Əbdülrəhmanlının tarixə münasibəti obyektivdir. Sabir Bəşirov yazır: *"Tarix, tarixi şəxsiyyətlər, tarixdə az-çox iştirakı olan insanlar haqqında ehtimal, güman, fərziyyə ilə danışmaq olmaz. Tarix də riyazi qanunlar qədər dəqiqdir. Tarixi yaradanlar belə riyazi dəqiqliyə əməl edirsə alacaqları nəticələri görürsə, məqsədinə çatır, əks halda onları məğlubiyyət gözləyir". [1,69]*

Oruc bəylə oğlu Sultanəli hər ikisi 1625-ci ildə vəfat etdi. Görünür ki, tale oxşarlığında, alın yazısında N.Əbdülrəhmanlıya bəzən haqq qazandırmalı olacağıq.

Nəriman Əbdürrəhmanlının bütün başqa əsərləri kimi "Könül elçisi" romanı gərgin əmək nəticəsində hasilə gəlib. Həyatında olduğu kimi yaradıcılıqda da onunçün heç nə asan başa gəlmir. Görünür, bu da müəllifin alın yazısıdır.

QEYD: "Könül elçisi" yazıçı Qaraçuxanın (Elçin Hüseynbəylinin) 2007-ci ildə qələmə aldığı eyni məzmunlu "On üçüncü həvari-141-ci Don Juan" romanı ilə bu sətirlərin müəllifi tərəfindən müqayisəli təhlil olunmuş və Kult.Az (indiki Axar.az) saytında 15 yanvar 2015-ci ildə oxuculara təqdim olunub).

“YALQIZ” ROMANI

Cəmiyyətin həyatında, demək olar, elə bir problem yoxdur ki, müəllif ona münasibət göstərməsin. Bununla belə, tənhalıq mövzusu Nəriman Əbdülrəhmanlı yaradıcılığının əsasını təşkil edir desəm, yanılmaram. O, bu mövzunu hələ 80-90-cı illərdə yazdığı hekayələrindən başlamış sonralar qələmə aldığı romanlarında davam etmişdir. Vidadinin yaradıcılığının əsasını qürbət mövzusu təşkil etdiyi kimi, N.Əbdürrəhmanlının da yaradıcılığının əsasını yalqızlıq, tənhalıq təşkil edir. Bu mənada onun hekayə, povest və romanlarını bir-birinin davamı hesab etmək olar.

Tənha, cəmiyyətdən təcrid olunmuş insanın kədərli həyat hekayəsi olan “Yalqız” romanı da müxtəlif problemlər qaldırmaq baxımından N.Əbdülrəhmanlının yaradıcılığında xüsusi yer tutur. Əsərdə bu gün cəmiyyətdə mövcud olan bir sıra problemlər - kommunal xərclərin çoxluğundan insanların döğma evində kirayənişin kimi yaşamalarına, ilikin dini qaydalara uyğun gəlməyən hüzr məclislərinə, lap elə toylardakı bayağı dəbdəbəyə rast gəlmək olar. Toylardakı ifrat israfçılıq, hüzr məclislərindəki təmtəraq bu gün yazıçını da əksər vətəndaşlarımız kimi çox narahat edən məsələlərdəndir.

Mənəvi dəyərlərin aşılandığı cəmiyyətdə kimi istəsən, irəli apara bilərsən, aftafa gəzdirənin birini belə, avtoritet səviyyəsinə qaldırmaq mümkündür. Gözəl yazar xanımlarla “məhrəm ünsiyyətdə” olub, onların səviyyəsiz kitablarına sponsorluq etmələri, amma onlarla istedadın maliyə imkanı olmadığından kitab çap etdirə bilməməsi, heç bir istedadı olmayan, ondan-bunda köçürən, eyni vaxtda bir neçə əsər üzərində işləyən, bacardı-bacarmadı, hər bir janrda yazan, yaşı qırxı-əllini ötmüş adamların gənc adlanması bugünkü ədəbi proseslərin təsviri, bir sözlə, cəmiyyətin mənfi təzahürləri əsərdə inandırıcı qələmlə ifadə edir. Daha ifadəli desək, müəllif, cəmiyyəti “Yalqız” adlı güzgüyə baxmaqla öz eybini düzəltməyə çağırır.

Hələ orta məktəb illərindən haqqı pozulan, sürüdürülən, doğma qardaşı tərəfindən belə yardım göstərilməyən. cəmiyyət tərəfindən, hətta arvadı tərəfindən atılan, anasından və nakam dostundan başqa heç bir xatırlayanı, yada salanı olmayan həmin qəhrəman, elə bilirəm ki, müəyyən mənada *(ailə uğursuzluğunu çıxmaq şərtilə)* elə Nəriman Əbdürrəhmanlının özüdür. Bunu müəllifin özü də müsahibələrinin birində təsdiq edir: *"..."Yalqız", əslində, mənim də mənsub olduğum 80-cı illər ədəbi nəslinin taleyidir. "Yalqız"ın göz qabağında olmağı, ictimai fəallığı sevməyən qəhrəmanı müəyyən mənada mənim prototipimdir". [12]*

N.Əbdülrəhmanlı insanların bir-birini istismar etdiyi bir dövrdə ədalətli cəmiyyət arzusunda olan insanlar kimi, belə düşünür ki, hər kəs layiq olduqlarını almalı, heç kəsin haqqı pozulmamalıdır. Bəs, əgər bu haqq pozulursa? Bax, bu haqqın pozulmasına qarşı mübarizə resepti N.Əbdülrəhmanlıda yoxdur, sadəcə, cəmiyyətə yüngül etirazlar var. Bir az da dəqiq desək onun qəhrəmanlarında döyüşkən, mübariz ruh, elə bil ki, hiss olunmur. Əsərdə oxuyuruq*: "...axı, niyə ağlım kəsməmiş atam xəstələnib ölməliydi.., niyə o vaxtdan hamının mənə yazığı gəlməliydi, niyə məktəbdə ildə bir dəfə atasız uşaq kimi yardım (özü də nə yardım) eləməliydilər, niyə hamıdan yaxşı oxuya-oxuya bir dörd yazdılar (bədən tərbiyəsindən) – qızıl medala düşməyəydim, niyə universitetdə başıma eyni oyunu açdılar, - fərqlənmə diplomu almayaydım, niyə şəhərdə qalmağa haqqım ola-ola üç illiyə ucqar bir rayona sürgün elədilər, niyə sonralar işlədiyim yerlərdə məni tərifləyə-tərifləyə başqalarını irəli çəkdilər, niyə ev növbəsində çoxundan qabaq ola-ola lap axırda, üstəlik, məşəqqətlə mənzil aldım-sonrasından da az-çox xəbəriniz var; mən Allahın verdiyi ömrü bütün bu ağrılarla xərcləyəcəkdimsə özümə məxsus olan həyatı kefim istədiyi kimi yaşamayacaqdımsa, umumiyyətlə, var olmağın mənası vardımı; hərə haqqımdan imkanı olan qədər götürmüşdü; bir az tale, bir az orta məktəb müəllimlərim, bir az da universitet müəllimlərim, bir az da əlinin altında işlədiyim müdirlərim-özümə ancaq bir şey qalmışdı, ona da şeytanın*

aldadıb evləndirdiyi, ilyarım yastığa baş qoyduğum o binəva yiyə durmağa çalışırdı, olan-qalanını da güzəştə getsəydim, gərək özüm-özümün fatihəmi oxuyaydım...".

Bu misralar cəmiyyətin biganəliyi üzündən aldığı zərbələrdən müvazinətini qoruyub saxlayan, yıxılmayan bir ziyalının fəryadıdır və cəmiyyətimiz hələ neçə belə insanı əzəcək, haqqını pozacaq, təhqir edəcək, bunu deyə bilmirəm.

Çox yazıçılar öz işlərini təkcə yazmaqla bitmiş hesab edirlər. N.Əbdürrəhmanlının qəhrəmanı isə belə hesab edir ki, *"Yazıçılıq təkcə yazmaqdan ibarət deyil, gərək başqalarını da oxuyasan".* Bu gün cild-cild əsərləri olanlar var ki, paytaxtdan bir neçə kilometr aralı tanınmır. Az sözlə daha çox fikir ifadə etmək tərəfdarı olan qəhrəman belə bir qənaətdədir ki, *"Zavallı ilham pərisini şöhrət xatirinə zorlamıram, qoy sabaha on-beş iyirmi yox, bir kitabım qalsın, amma oxuyanda atamı qəbirdən çıxartmasınlar".*

Yazıçı *"Gündə bir hekayə, həftədə bir pyes, ayda bir roman yazanları sözə bakirə qız kimi baxanlar yox, qəhbə arvadlar kimi baxanlar"* hesab edir.

N.Əbdülrəhmanlı bugünki mənəvi mühiti çoxlu əmcəkləri olan bir inəyə bənzədir, istedadsız, *"realist yazıçı"* adı qoyulmuş istedadsız adamların gecə-gündüz əmdiyi iridöşlü inəyə layiq olanlar isə qıraqda durub tamaşa edirlər. Tonlarla kağız sərf edib yazanlar, ətək-ətək pul xərcləyib tanınmış qələm sahiblərindən bir neçə tərifli söz qoparanlar, söz verib ona əməl etməyənlər "Yalqız"ın əsas tənqid hədəfləri sırasındadır. Müəllif yazır: *"...söz ki, ağzından çıxdı, daha səninki deyil, sözü özününkü eləməkdən ötrü gərək kağıza köçürüb, altına imzanı qoyasan, bir yerdə çap edəsən, yoxsa sonra nə qədər tullanıb düşsən də xeyri yoxdu".*

"Yalqız"ın maraqlı epizodlarından biri də onun öz çarpayısında uzanıb qonşudakı gözəl xanımın qaməti haqqında düşünməsidir. Bu sətirləri oxuyanda yadıma məşhur Hind eposu "Kəlilə və Dimnə" düşdü. Eposun həyat ağacı

haqqında hekayətində siçanların gəmirdiyi iki budaqdan yapışıb ayağını dörd ilanın başına qoyan və quyudan kənardakı qızmış dəvənin qorxusu altında bir anlıq ölüm təhlükəsini unudub budaqdakı balı yeməyə başlayan bir adam təsvir olunur.

Həyatda xoşbəxtliklər bir-birini əvəz etdiyi kimi, bütün uğursuzluqlar ard-arda gəlir. Yalqızın xəstə olması kifayət deyilmiş, üstəlik, ailə uğursuzluğu ilə qarşılaşır, həyat yoldaşı onu tərk edib gedir. Bu, onu əməlli-başlı sarsıdır. Axı, *"...kişinin söykəndiyi qala ailədi, ailəsi yoxdusa, nə qədər pulu olsun, nə nə qədər şıq geyinsin, fərqi yoxdu, ciddi adam kimi qəbul olunmayacaq".* Lakin Yalqız ziyalıdır, səbirlidir, güzəştə getməyi bacarır. Həyat yoldaşını sevib almasa belə, kifayət qədər müdrik davranır, ailəsinin dağılmasını istəmir, həyat yoldaşının yaxınları vasitəsi ilə onu islah etməyə çalışır. Bu, baş tumadıqda isə öz dəyanətini qoruyub saxlaya bilir. O, belə fikirləşir ki, hər kəs özünə münasib həyat yoldaşı seçməlidir. *"...toyumuzdan ikicə həftə sonra jurnalda çıxan yazımı göstərəndə heç təəccüblənib-eləmədi, bircə onu soruşdu, buna qədər pul verəcəklər, dediyim rəqəmi eşidəndə üz-gözünü turşutdu, pah, dedi, mən də elə bildim, əməlli-başlı bir işlə məşğulsan, camaat qaz vurub qazan doldurur, sən də vaxtını gör nəyə sərf eləyirsən, hələ bir fəxrlə mənə də göstərirsən, ac qalanda kağız yeməyəcəm ha..."* Yalqızın bu qarşılaşdığı bu vəziyyətdən hələ ailə qurmamış, gələcəkdə yaradıcılığıma hörmətlə yanaşan, hər bir uğuruma sevinən bir həyat yoldaşının arzusunda olan bir adam kimi, məni indidən həyacan bürüyüb.

Yataqda xəstə yatan Yalqızın Nadir Şah haqqında düşüncələri çox maraqlıdır. O, Nadir şah haqqında əsər yazmaq istəyir, beynində süjet qurur, Şahın yalqızlığının səbəbini aydınlaşdırmağa çalışır, hətta özü ilə Nadir şahın arasında tale oxşarlığı olduğunu düşünür. Vəliəhdi və böyük oğlu Rzaqulu xanı kor etdirəndən sonra Şah yaqızlaşır. Nadir Şah Hindistandan saysız sərvətlə - üç milyard rupi ilə qayıtmış, İmperiyanın bütün əhalisini üçillik vergilərdən azad etmişdi, geniş quruculuq işləriylə məşğul olmaq fikrində idi. Bu zaman ona

Mazandaran meşəsində qəsd edirlər - tüfəng atəşi ilə baş barmağını yaralayırlar. Qəsdçini hər yerdə axtarmaqda ikən bir gün Şah öz çadırında qardaşı oğlu Əliqulu xan tərəfindən atılmış (bu, çox sonralar bəlli oldu) bir kağız parçası tapır. Kağızda yazılmışdı: *"Şah həzrətləri, bilirsiniz sizə kim qəsd edib? Fikirləşin, görün sizdən sonra taxta kim çıxacaq?"* Şah isə Rzaqulu xandan çoxdan şübhələnirdi. O, Şahın özü tərəfindən özünün ölməsi ilə bağlı şaiyəsinə inanmış, II Təhmasibi uşaqları ilə birgə edam etdirmişdi. Şah oğluna hansı cəzanı verəcəyini çox götür qoy etdi. Sonda gözlərinə mil çəkdirmək qərarına gəlir. Əsərin bu səhnəsini kədərlənmədən oxumaq mümkün deyildir.

Əslində bu da alın yazısı, tale qisməti, hakimiyyəti dövründə 14 batman *(112 kq)* göz çıxartdıran Nadirə Allahın cəzası idi. Tale doğma oğlunu ona kor etdirdi ki, bunun *"ləzzətini"* görsün.

Əmir Teymur hakimiyyəti başlı-başına buraxıb eyş-işrətlə məşğul olduğunu eşidincə onu yanına çağırıb demişdi. "Səni öldürmərəm, öldürsəm, atayam, ömrüm boyu əzab çəkərəm. kor da etmərəm, etsəm, gərək əllərindən tutum gəzdirim. Elə edərəm ki, yaşayasan, amma səni dünyanın ən şirin nemətindən məhrum olarsan," - deyib Miranşahı axtalatdırmışdı. Şah da oğluna buna bənzər bir cəza verə bilərdi. Onsuz da islam aləmində bədən naqisliyi olanı şah seçmirdilər.

Nadir Şahda Allah qorxusu güclü olsa da hakimiyyət eşqi, vurub-yıxıb dağıtmaq həvəsi daha böyük idi. Düşmənləri vəliəhdini, övladlarının ən igidini aradan götürdülər. Şah Rzaqulu xanı zərərsizləşdirmək üçün daim öz yanında saxlaya, özü ilə döyüşlərə apara, ev dustağı edə bilərdi.

Təhmasib şah oğlu İsmayılı 19 il Qəhqəhə qalasında dustaq etmişdi. Son çarə kimi oğlunun xeyrinə hakimiyyətdən əl çəkib sərkərdə kimi, Rzaqulu xanı daxili və xarici hücumlardan qoruya bilərdi. Biz tarixdə Qara Yusifin timsalnnda belə bir hadisəni bilirik. Hər halda Nadir şahın həyat tarixində oğul qatili damğası var və buna heç vəchlə haqq qazandırıla bilməz. Sonralar etdiyi qəddarlıqlar üçün də

Rzaqulu xanın xəyanətini əsas gətirirdi. Nadir şahın haqqında daha əvvəllər şəxsiyyətini və fəaliyyətini debat təhlilə cəlb edərək yazdığımdan bunun üzərində çox dayanmaq istəmirəm. Amma onu qeyd edim ki, bu, məsləyə bir tərəfdən yanaşmadır.

Digər tərəfdən yanaşdıqda hamı Rzaqulu xanı kor etdirdiyi üçün Şahı amansızlıqda suçlandırır. Başa düşmək çətin deyil ki, ata qatilinə haqq qazandırmaq ollmaz. Bəs oğulun necə öz atasına - şöhrəti dünyaya sığmayan ataya üç dəfə sui-qəsd etməsinə necə, haqq qazandırmaq mümkündürmü? Bəs ən kiçik bir nöqsan üstündə baş kəsən, göz çıxardan Nadir Şah oğluna güzəştə gedəcəksə, digərləri ona itaət edərlərmi? Görün tarixdə neçə belə hadisələr olub. Uzun Həsən, İvan Qroznı, I Şah Abbas, I Pyotr *(və mənim bilmədiyim neçə-neçə digərləri)* öz doğma övladlarını öldürmədilərmi? Ona görə də bu gün *"kimdir müqəssir"* sualına asanlıqla cavab vermək olar: Rzaqulu xan!

Qeyd etdik ki, "Yalqız"ın tənqid diapazonu genişdir. Adi bir ləkədən iyrənən vasvasılar, redaksiyalardakı süründürməçilik, ayrıseçkiliyin tənqidi də əsərdə xüsusi yer alır. Yalqızın redaksiyalardakı süründürməçiliklə bağlı şikayəti mənə çox doğmadır. Gənc olmağıma baxmayaraq özüm də bu mərhələni keçmişəm. Hər şey bir gün ədəbiyyat müəllimimin mənim tarix müəllimim olan atama *"Gör oğlun necə yaxşı inşa yazır"* sözlərindən sonra başlandı. Atam çox sevindi. Onda mən atamla hansı qəzetin qapısını döydüksə, nə yazdıqlarımı oxuyan, nə də üzümüzə baxan oldu. Elə bu gün də tez-tez məni başımdan yuxarı tullanmaqda suçlandırırlar.

Yalqız insanlardan aralı bu tənha həyatından razıdırmı? Düşünürəm ki, yox. Onu yalqız edən cəmiyyətdir. Portret yaratmağın ustası olan N.Əbdürrəhmanlı 80-90-cı illərdə *(elə bugünün özündə)* cəmiyyətdə sayı kifayət qədər olan yalqızların tipik obrazını yaradır. Daniel Defonun "Robinzon Kruzo" romanında belə bir epizod var. Gəmi qəzaya uğrayandan sonra sahilə çıxan Robinzon bir müddət

sonra gəmiyə qayıdır, özünə lazım olan əşyalardan götürür. Lakin pul götürmür, *"İndi siz mənim nəyimə lazımsınız"?* - deyir. Fərq ondadır ki, Yalqız insan cəmiyyətində yaşaya-yaşaya yalqızdır - bu isə daha ağırdır.

Yalqız bütün mənəvi və maddi sıxıntılara baxmayaraq, ədəbi prosesləri dərindən izləyir. *"...onun-bunun gözünə soxduğu romanını filan yapon yazıçısından köçürübmüş, daha doğrusu, əvvəl oxuyub xoşuna gəlib, bir qəzetlə də danışıb barışıbmış ki, çevirim, çap eləyin, guya anons da verəcəklərmiş, nə qədər gözləyirlər, bu gənc və istedadlı oğlan gəlib çıxmır, beş-altı aydan sonra da romanı peyda olur; deyir babalı danışanların boynuna, guya oturub özü bildiyi kimi çevirib, böyrünü-başını da düzəldib, şübhəsiz hadisələri məmləkətimizə köçürüb qəhrəmanları dəyişdirib, cəlbedici adlar qoyub, olub romanın halalca müəllifi..."*

Burada söhbətin kimdən getdiyi bəllidir. Müəllif daimi gənc yazıçılardan birinin qələmə aldığı romanın yapon yazıçısı Haruki Murakamidən köçürülməsinə işarə edir. Bu məsələyə zamanında Anar da münasibət bəsləyib. O, yazır: *"Bəzən ədəbiyyata çox səthi baxışla yanaşan adamlar - onların arasında təəssüf ki, peşəkar tənqidçilər də olur - çox sadə bir şeyi dərk etmir və ya dərk etmək istəmirlər ki, süjet oxşarlığı hələ heç nə demək deyil. Dünya ədəbiyyatı bəlkə beş-on süjetin və beş-on mətləbin ətrafında fırlanır - həyat, ölüm, mübarizə, sevgi, ayrılıq, xəyanət, sədaqət və s."* N.Əbdülrəhmanlı özü də təsdiq edir ki, *"Tarix boyu cəmi beş-on süjet mövcud olub, bu vaxtacan yazılanlar həmin mövzuların formaca müxtəlif variantlarıdı".*

Niyə cəmiyyətdə hər kəs layiqli yerini almır? Çoxlu xeyirxah əməllərin sahibi olan insanlar dura-dura, hamam deşiyindən lüt arvadlara tamaşa edən, göbək rəqsi oynayan qızın göbəyinə dollar soxan yerdə şəkli çəkilən birisinin deputat seçilməsi millətin təəssübünü çəkən bir insan kimi N.Əbdülrəhmanlını narahat edir. Yazıçı

itin sədaqətini insan sədaqəti ilə müqayisə edir. Bu vəfalı heyvanların hərəkətləri bu gün çox ininsanlar üçün örnəkdir.

"Yalqız" hər dəqiqə ölümünü gözləyən, həyatla ölüm arasında mübarizə aparan, həyatdan küsmüş və xəstə olan bir insanın taleyindən bəhs edir. Lakin aydındır ki, ki, ölüm sifarişlə gəlmir. Allahın onunçün qoyduğu ömür tamam olmalıdır. Belə olmasaydı, əsərin qəhrəmanı 20 yanvar qırğınında ölümün pəncəsindən xırda bir yara ilə qurtula bilməz, tankların altında əzilərdi.

Bir çox zəif cəhətlərinə baxmayaraq, Yalqız dəyanətli, abırlıdır, yataq xəstəsi olsa da heç kəsdən yardım ummur. *"...kişi ki, öz problemini özü həll eləmədi, gərək boğazına kəndir salsın; kiməsə yük olmaqdan alçaldıcı bir şey yoxdu dünyada, qəhbəlikdən də pisdi, beləsi öz bədənini satır, pul qazanır, həyatını təmin eləyir, amma kiminsə yaxasından qalstuk kimi asılıb qalmaq, gözünü onun-bunun əlinə, cibinə dikmək, hamıdan nəsə ummaq mənən satılmaqdı, mənəvi ölümdü-buna başqa cür ad vermək olmaz".* Şair Nüsrət Kəsəmənli necə də gözəl deyib: *"Alçalıb yaşamaq ömür-gün deyil".*

Bütün bunlar *"başdan-başa dəlixana olan", "əyninə gəlməyən bir palтarı geyinib özünü gülünc gününə qoyan"* insanların yaşadığı bir dünyada mənən təmiz, çox sadə və ləyaqətli bir ömür sürən Nəriman Əbdülrəhmanlının həyat idealıdır. Onun hər bir oxucuya aşılamaq istədiyi hisslərdir.

Yalqız bir insan kimi zəifdir, gücsüzdür, bədbindir, daim psixoloji sarsıntı keçirir, ancaq ləyaqətini də son məqamacan saxlamağa can atır: *"Ömrün axırı ölümdü, heçlikdi, ondan ötrü bu qədər əlləşib-vuruşmağın, təngənəfəs olmağın, namərdlik eləməyin, yarınmağın, başqaları cəhənnəmə, özünü aldatmağın nə mənası var axı,..."*

Düşünürəm ki, Yalqız bəzən hətta layiq olmadığı bir həyatın iddiasındadır. Fikir verin, doğma ailəsində sabitlik yarada bilməyən bir adamın böyük işlərə iddia

etməsi absurdur. Amma bir həqiqət də var ki, ailə də tale məsələsidir, bu məsələdə onu qınamaq çətindir.

Hər şeyi alın yazısı ilə bağlayan Yalqız başqa bir çıxış yolu tapa bilmir, sonda intihar edir. Bu gün biz hər iki qolundan məhrum rəssam görəndə, hər iki gözündən məhrum dördqat dünya çempionu görəndə, əlil arabasında qızıl medal qazanan insanları görəndə Yalqıza haqq qazandırmaq mümkündürmü?.. Əlbəttə, yox. Amma insanın bu həyatla bağlayan son bağ qopanda bu addımı atmaq olar. Bu gün get-gedə artan intiharları göz önünə gətirəndə, Yalqızı ittiham etmək də olmur.

Çox hörmətli akademik və yazıçı Kamal Abdullanın işıq fəlsəfəsinə görə, işıq qaranlığın arxasındadır. Deməli, işığa qovuşmaq üçün qaranlığı yarıb keçmək mütləqdir. Tamamilə razıyam. O mənada ki, Allah da dünyanı əvvəl qaranlıqda yaratmışdı. O ki, qaldı işıqla qaranlığın, xeyirlə şərin mübarizəsinə, bu, bütün dinlərdə öz əksini tapıb. İslam dinində şər qüvvələrə Allaha qarşı üsyan edən İblis adlı bir mələk başçılıq edir. Allah, *"onun buyruqlarını qəbul etməyən mələk*" iblisə qiyamət gününə qədər möhlət vermişdir.

Nəriman Əbdülrəhmanlını bu gün narahat edən problemlərdən biri də günümüzün televiziya kanallarında mövcud olan vəziyyətlə tam uzlaşır. Mənəviyyatımızın ekologiyasını pozmağa, minillərdən qalma dədə-baba adətlərinə, nəhayət, ailə institutnun dağıdılmasına yönəlmiş bir sıra televiziya verlişləri haqqında yazıçı qəhrəmanlarından birinin dili ilə həyəcan təbili çalır: *"...telekanallar da bir yandan üzümüzün suyunu töküb, hansını açırsan, utanmaz-utanmaz göbəklərini, dallarını oynadırlar, açıq-saçıq səhnələr də üstəlik; evimizdə uşaqlar böyüdürük, dedi, gözlərini açıb belə-belə şeylər görürlər, sabah bunların axırı necə olacaq, nə hökumət qabağını alır, nə də camaat səsini çıxardır. O abırsızların birinə bir söz deyəndə də cavabları hazırdı: azadlıq! - bu cür azadlıq kimə lazımdı?.."*

Yalız gah həyatından şikayət edib üsyan qalxır, gah da bütün bunları tale payı sayıb qisməti ilə barışır. Bu mənada N.Əbdülrəhmanlının yaradıcılığında ziddiyyət olduğunu düşünmək mümkündür. Amma son iruhəcmli romanlarından biri olan "Yolçu"da yazıçının bunun əksi olan fikri ilə rastlaşırıq: *"Əlbəttə, qismətə boyun əymək zəiflik əlamətidi; güclü adamlar ikinci, üçüncü dəfə cəhd göstərirlər, lap güclü olanlarsa məqsədlərinə çatanacan inadlarından əl çəkmirlər..."*

İndi həyatda bir çox şeylər insanların zövqünün korlanmasına yönəlib və bu zövqü korlanmış insanlar, təbii ki, pisi yaxşıdan ayıra bilmirlər. Ümid zamanadır. Zamansa böyük Sabir demiş, bir nəhrədir, çalxalanacaq-çalxalanacaq sonda yağı ayrandan ayıracaq.

N.Əbdülrəhmanlı müsahibələrnin birində deyir: *"Yalqız" əksər yaradıcı adamların, daha çox, mənim mənsub olduğum 80-cı illər ədəbi nəslinin obrazıdır. O nəslin ki, yaradıcılıq taleyi zəmanənin dəyişdiyi - bir sistemin başqası ilə əvəzləndiyi-ortada uzun keçid dövrünün olduğu vaxta düşdü. O nəsil çox şey itirdi. Deyim ki, o vaxt yaradıcılıq potensilına görə 60-cı illərin nəslindən də çox nəhəng nəsil gəlirdi. Saday Budaqlıdan tutmuş, Afaq Məsud, Səfər Alışarlı, Eyvaz Əlləzoğlu və sairə. Hamısı böyük iddialarla ədəbiyyata gəlmiş imzalar idi və çox təəssüf ki, bizim ömrümüzün bir hissəsi naməlumluq dövrünə düşdü".*

Professor Ə.Rəsulov "Yalqız" romanını N.F.Qısakürəyin 1938-ci ildə yazdığı və N.Əbdülrəhmanlının 2009-cu ildə dilimizə çevirdiyi "Bir adam yaratmaq" pyesinin qəhrəmanı ilə müqayisə edir. Məqalə müəllifi yazır: *"...pyesin qəhrəmanı yalqızlığı məşhur yazıçı olduğuna görə yaşayır. N.Əbdülrəhmanlının "Yalqız" romanının qəhrəmanı isə tam tərsinə, yazıçı kimi məşhur deyil, tanınmamaqdan, daha çox isə başa düşülməməkdən... əzab çəkir..."*

Qeyd etdim ki, "Yalqız"ın qəhrəmanı bir obraz olaraq xaraktercə zəifdir. O, N.Əbdülrəhmanlının digər qəhrəmanları kimi, işini ancaq gileylənməklə bitmiş hesab edir, yaşadığı çətin həyatın səbəblərini özündə deyil, özünün də bir fərdi

olduğu cəmiyyətdə axtarır. Belə başa düşmək olar ki, Yalqız üçün firavan həyatı onu özü deyil, başqaları yaratmalıdır. Amma o, həmin həyatı abırlı həyatı, namuslu əməyi ilə qzanmağa can atır, təəsüsüf ki, bu yolda keçilməz maneələrlə üzləşir. N.Əbdülrəhmanlının digər əsərlərində olduğu kimi, "Yalqız"da da cəmiyyət tərəfindən atılmış, unudulmuş, xəstə, yaxud özünü xəstəliyə vurmuş bu insanların onları unudan cəmiyyətə qarşı passiv olsa belə, mübarizə üsulları yoxdur. Əlbəttə, Yalqız unudulduğuna görə, müəyyən mənada cəmiyyətdən də, dövlətdən ummaqda haqlıdır. Məsələn, qədim inklərdə acından ölən adamın yaşadığı mahalın hakimi edam olunardı. Yazıçının qəhrəmanı isə yalnız bir şey – haqqının verilməsini istəyir, bunu almaq üçünsə heç bir yol tapmır.

Yalqızın azadlığa münasibəti çox maraqlıdır. *"Əsil azadlıq insanın içində olur, içindəki azadlığı qıraq təsirlərdən qorusan bəsindi, onsuz da bu dünyada mütləq azadlıq absurd bir şeydi".* Azadlığa bu münasibət mənə məşhur Fransız yazıçısı Jül Vernin "İyirmi min lyö su altında" əsərini xatırlatdı. Kapitan Nemo da cəmiyyətdə mütləq azadlığın olmadığı qənaətinə gəlmiş və bu azadlığı okeanların dibində axtarmalı olmuşdu.

Tədqiqatçı S.Bəşirovun qeyd etdiyi kimi, N.Əbdülrəhmanlı "Yalqız" romanında möhtəşəm ana obrazı yaradıb. Oğlunun halına acıyan, sonuncu tikəsini ona göndərən bu ana, onsuz da şəxsi həyatı olmayan, yalnız övladları üçün yaşayan Azərbaycan qadınlarının umumiləşdirilmiş obrazıdır.

“YOLSUZ” ROMANI

Qaldırılan problemlərin oxşarlığı cəhətdən “Yolsuz”u özündən əvvəl yazılmış əsərlərin davamı hesab etmək olar. İlk hekayələr, povest və romanlarında olduğu kimi, burada da nakam insanlardan, taleyin qismətiindən, alın yazısından söhbət açılır. Əvvəlki əsərlərinin təhlili zamanı qeyd etmişdim ki, yazıçının qismət konsepsiyasında ziddiyyət hiss olunur. N.Əbdülrəhmanlının qəhrəmanları gah taleyi ilə barışıb, bütün bunları Allahın qismәti sayır, gah da üsyan edib elə həmin qismətə qarşı çıxırlar. *“Əslində bu vaxtacən bir dəfə də olsun qismətimdən narazılığımı dilimə gətirməmişdim, ümidsiz günlərimdə belə, hardansa qapı açılacağına altıncı duyğumla duyurdum...”*

“Yolsuz” romanının qəhrəmanı həyatında hansısa bir möcüzənin baş verəcəyinə və möcüzə nəticəsində həyatının bir anda dəyişəcəyinə inanır. Möcüzələrsə baş vermir. Fikrimizcə, birdəfəlik dərk etmək lazımdır ki, Qurani-Kərim sonuncu möcüzədir və ondan sonra möcülərin baş verməsinə ümid etmək sadəlövhlükdür. Amma insanın möcüzə intizarında olmaqla təskinlik tapdığını da qeyd etmək lazımdır.

“Yolsuz”da müəllifin cəmiyyətə, ailəyə, qadına münasibət maraq doğurur. *“Bu xanım aktrisadı, incəsənət adamıdı, hamının tayı ola bilməz, hamı onunla yanaşı dura bilməz, sənətkar gərək kütlədən fərqlənsin”.* Əlbəttə adama elə gəlir ki, əsərin qəhrəmanı olan psixoloq-yazıçı bu düşüncələri ilə özü onun doğru yoldan azmasına şərait yaradır, arvadının oynaşı olmasını bilə-bilə ona güzəştə gedir. Axı bu sözlər həqiqətən də bir Azərbaycan kişisinə aid deyil. Ona görə də nəzərə almaq lazımdır ki, bizə dünya psixologiyası yaramır, milli mentalitemizə uyğun xüsüsi psixologiyamız olmalıdır. Amma onu da unutmaq olmaz ki, psixoloqun düşüncələri, cəmiyyətimizin həyatının bir reallığıdır, biz istəsək də, istəməsək də bu reallıqları qəbul etməliyik. Bu səbəbdən səslənən fikri yazıçının məsələyə ironiyası kimi başa düşülməlidir.

Digər əsərlərinin təhlilində qeyd etmişəm ki, Nəriman Əbdürrəhmanlının əksər qəhrəmanları psixoloji cəhətdən zəif təsir bağışlayır, son nəticə kimi intihara cəhd edirlər. Aktrisanın rəssamla münasibətdə olduğu üzə çıxsa, həyatdan köçsə belə *(hərçənd ki, onun ölümü müəmmalı qalır, bu mənim şəxsi fərziyyəmdir, bəlkə də yazıçı məsələni qəsdən açıq qoyub),* ər ayaq üstə dayana, özünə yeni həyat qura bilərdi. Axı arvadı ailə, uşaq sahibi olmaq istəmirdi, həyatını səhnəyə həsr etməkdə qərarlı idi. Bu qadının keçmişi yoxdur, arxada qoyduğu heç nə onu maraqlandırmır, ancaq bu gün və gələcəklə yaşayır, irəli, inkişafa, fəxri titullara can atır. O, bu yolda ailə səadətini belə qurban verməyə razıdır.

N.Əbdülrəhmanlının fikrincə, Yaradanın yer üzündə və yer altında insanlara bəxş etdiyi sərvətlər haçansa tükənə bilər. Ona görə də bu sərvətlərə ümid edib arxayınlaşmaq lazım deyil. Ən böyük sərvət insandır, özü də mənəviyyatlı insanlardır. *"...Xalqın ən böyük sərvəti torpağın altında-üstündə olanlar deyil; dedi, insanların mənəvi keyfiyyətləri daha vacibdi; dedi, nə qədər ki, bu həqiqəti anlamamışıq, inkişafımız həmişə yarımçıq qalacaq..."*

N.Əbdülrəhmanlı cəmiyyətə ünvanladığı saysız-hesabsız *"niyə"*lərlə bir növ özü hakim rolunda cəmiyyətin özünü ittiham edir. Onun qəhrəmanı bu cəmiyyəti dəyişdirmək üçün heç bir təşəbbüs göstətmir. Daha sadə dillə desək, öz haqqını tələb etmək onun üçün müşkül bir məsələyə çevrilir. M.F.Axundzadə demiş, yazıçı-psixoloq bununla bağlı *"zalımın atasını yandırmır, sadəcə yüngülvari giley-güzarla kifayətlənir".*

"Yolsuz"un qəhrəmanı qadına münasibətdə layiq olmadığından daha çox iddialıdır. Müəllif bunu qəhrəmanın dili ilə bu cür etiraf edir: *"Qorxurdum deyə, səkkiz il qadının olmuş kimsənin ruhuna bələd olmağı, qəlbinə girməyi, ehtiyac duyduğunu başqalarında axtarmasına yol verməməyi bacarmamısansa, bundan sonra nəyə iddia edə bilərsən, yollar basa-basa arayıb-axtarmağınım bir anlamı varmı?"*

Gənc olduğumsan, təbii ki, sovet dövründə yaşamaq imkanına mailik olmamışam. Amma həmin dövrün mənfi və müsbət cəhətləri haqqında yaşlılardan, kitablardan və mətbuatdan bəzi bilgilər əldə etmişəm. O dövrə məxsus rüşvətxorluq, süründürməçilikdən dəhşətə gəlməmək mümkün deyil. "Yolsuz"da təsvir olunan hadisələr sovet quruluşunun naqisliklərinin hələ də yaşadığı müstəqillik dövrümüzün ilk illərində baş verdiyindən burada qəhrəmana müəyyən qədər haqq qazandırmaq mümkündür. *"...Şairin cəmi üç kitabı çıxmışdı; biri bəxt qapısını hərdənbir arxasızların üzünə də aralayan sovet quruluşunda işıq üzü görmüşdü, üstəlik, bir az qonorar da alıb xeyli xoşbəxt olmuşdu, ikincisini düz qırx yaşında bir xeyirxah Allah bəndəsinin hesabına buraxdırmışdı, daha doğrusu, təsadüfən qəzetdə bir şeirini oxuyan o Allah bəndəsi şairi axtarıb tapmış, yaradıcılığı, maddi vəziyyəti ilə maraqlanmışdı; sonra da kitabını çıxartdırmağa boyun olub dediyini kişi kimi yerinə yetirmişdi".*

Bu gün cəmiyyətimizdə bahalı maşınlarda gəzən, dəbdəbəli villalar tikdirən və bununla fəxr edən insanlar cəmiyyətimizdə yetərincədir. Özlərini hamıdan ağıllı sayan, amma bəsirət gözləri kor olan belə insanlar həyatda mövcud olan hər şeyin, hətta özlərinin də yalnız Allaha məxsus olduqlarını, bu nemətlərin sadəcə daşıyıcıları olduqlarını dərk etmək istəmirlər. Yazıçı bu məsələlərə də biganə qala bilmir:

"...bu ev-eşik, bu var-dövlət, vəzifə, aradakı çəkişmələr anlamağın ağrılarını ört-basdır eləməkdən ötrüdür, sən də bunları yadımıza salan bir Allah bəndəsisən; qanmaz adamlara fikir vermə, dərviş, dedi, onlar elə anadan ruhsuz doğulurlar, ruh adamları səni sevirlər, bilirlər ki, sən Allaha bizdən daha yaxınsan, Allah da həmişə sevdiyi bəndələrini sınağa çəkir, bəzən də onu ruhundan ayrı salır; bir vaxt söylədiyin söz yadımdan çıxmır. Dərviş, dedi, dedin insan cisminin dərdini çəkdikcə ruhunu itirir, bilmirəm, o "sağlam bədəndə sağlam ruh olar" sözlərini

kim deyib, bordaq cöngə kimi sağlam, amma ruhsuz adamları azmı görmüşük, dedi...".

Ruhi xəstə sayılan dərviş, əslində, xəstə deyil, əsl xəstə onu özündən kənara atan cəmiyyətin özüdür. Dərviş bu bu xəstə cəmiyyətin sağlam üzvüdür. Kefli İsgəndər də yaşadığı cəmiyyətdə dəli adlandırılırdı. Amma başdan-başa dəlilərdən ibarət olan o cəmiyyətdə Kefli İsgəndər yeganə ağıllı adam idi. Bu mənada kefli İsgəndərlə Dərviş arasında bir oxşarlıq var. Fərq ondadır ki, İsgəndər xalqın arasında yaşayır, Dərviş isə öz istedanını təsdiq edə bilmədiyinə görə, tərki-dünyalığı seçib insanlardan kənar gəzir. Eyni zamanda da o, bu cəmiyyətdə heç də tək deyil.

N.Əbdülrəhmanlının fikrincə, cəmiyyətdə layiqincə tanınmaq üçün çoxlu əsərlər yazmaq mütləq deyil, bircə kitabla də tarixdə qalmaq mümkündür. *"Elələri var, Allahın diqtə etdiyi bir-iki əsər yaradandan sonra çəkilib ömürlərini sükut içində başa vururlar, yazdıqlarının da söz sərraflarının yanında qiyməti böyükdü; bir də ki, dərviş haqlıdı, hər kəs gərək öz sözünü söyləsin, onda sözünün də, səsinin də çəkisi, rəngi, dəyəri daha aydın görünür, söz yiyəsinin mahiyyəti də ortaya çıxır, saxta dəyərlər çıl-çılpaq qalır".* Bu sözlər tam mənası ilə yazıçı N.Əbdülrəhmanlının özünə də aiddir.

N.Əbdülrəhmanlının özəlliklərindən biri də odur ki, o, yazdığı bir çox əsərində növbəti əsərin anonsunu verir, süjetini qurur. Məsələn "Yalqız" romanında Şahla bağlı parçanı yadımıza salaq. "Yolsuz"dakı kor səyyah haqqında düşüncələri də yazıçının şüuraltı olaraq yeni bir əsər üzərində düşündüyünü xəbər verir. O, həmin düşüncələrini ifadə edərək yazır: *"Gözlərim yetmiş il yolda gördüklərimdən doyub kor oldu, indi xəyalımdakı yolları əriş-arğac eləməkdən başqa əlacım yoxdu, Allah-təalanın verdiyi möhlət bitib, bunda sonra nə yaşasam qənimətdi; deyirdi, məmləkətdən çıxan illər ərzində başımım tükü sanı yollar gördüm, amma qəfildən anladım ki, ALLAHIN YOLUndan başqa YOL yoxdu, bütün yollar O-na aparır, o*

Yoldan sapanlar yolsuzdan başqa bir şey deyillər...” Sonra Şaha da, kor səyyaha da yazıçının növbəti “Yolçu” əsərində rast gəlirik.

Adətən belə insanlar haqqında öldü, rəhmətə getdi yox, dünyasını dəyişdi deyirlər. Sağkən canlı ölülər, heç kəsin işinə yaramayan canlı ölülər, paxıllar cəmiyyətimizdə yetərincədir. Bu gənc yaşımda dəfələrlə belə halların şahidi olmuşam. Ali məktəbin üçüncü kursunda oxuyan bir gənc resbublikanın xüsusi çəkiyə malik olan, demək olar ki, bütün qəzetlərində böyük alimlər tərəfindən bəyənilən əllidən artıq elmi və publisistik yazılarını dərc etdirən, təsəvvürəgəlməz maddi çətinliklərlə ədəbiyyat nəhəngi Əli Fəhmi haqqında monoqrafiya yazan bu sətirlərin müəllifini sındırıb həvəsdən salmaq üçün ali məktəb tələbələri institutun divar qəzetində cəmi bircə səviyyəsisiz yazı çap etdirəni nümunə göstərir, *“Filankəs səndən yaxşı yazır”* deyirdilər. Mən, əlbəttə, tələbə yoldaşımın uğuruna yalnız sevinirdim. Amma bədxah müəllim bunu öz aləmində məni sındırmaq üçün bir *“vasitə”* hesab edirdi. *“Adamın bu dünyada yaşamağının mənası yoxdusa, onun ölümü bir-iki doğmasından başqa kimsəni ağrıtmır”.* Burada Mollla Cümənin aşağıdakı misralarını xatırlamaq yerinə düşərdi.

Bir gün ölsəm hamı deyər hayıfdır,
Canı yanan ya bir olar, ya iki.

Professor B.Əhmədlinin haqlı olaraq qeyd etdiyi kimi, *“N.Əbdülrəhmanlının bu romanında da nəsr dili çox çevikdir; demək olar ki, burada nəinki artıq hadisələr, fikirlər, heç cümlələr, sözlər belə yoxdur. Hətta əsərin əvvəlindən sonuna qədər dil materialından hər hansı bir sözü, ya hissəni çıxarsan, dərhal onun məzmununa xələl gətirəcək. Zatən çoxqatlı süjet xətlərinin çarpaz təsvirinə yazıçı dilin çevikliyi, sözlərin, cümlələrin məna yükü hesabına nail olur. Onun cümlələri*

aydındır, bəzən yarım səhifə, ya bir səhifədə mürəkkəb cümlələr adamı yormur...”
Əlbəttə, bunu da romanın daha bir müsbət cəhəti kimi qeyd etmək lazımdır.

“YOLÇU” ROMANI

Ədəbiyyatımızı bir çox nəsr əsərləri ilə zənginləşdirmiş Nəriman Əbdülrəhmanlı bu gün ədəbi aləmdə yetərli qədər tanınan söz sahibidir. Mövzuları olduqca aktual olan bu əsərlərin hər birində müəllif istər keçmişimizlə, istər də ki, bugünümüzlə bağlı ayrı-ayrı problemlərdən söhbət açılır.

“Yolçu” roman-salnaməsi isə müəllifin özünün də qeyd etdiyi kimi *“tariximizin fırtınalı bir dövrünə” (5,2)* - XVIII yüzilin birinci yarısında baş verən tarixi hadisələrdən bəhs edir. Əsər Mirzə Yusif Tiflisinin dilindən söylənsə də, təsvir olunan hadisələr, əslində, müəllifin öz narahatlığı, öz arzu və istəkləri, kitabda adları çəkilən coğrafi məkanlara Nəriman Əbdülrəhmanlının xəyali səyahətidir.

“Yolçu” gərgin araşdırmaların məhsuludur. Müəllif onlarla fars-ərəb dilli tarixi qaynaqları araşdırıb, hər bir fəslin ruhuna uyğun Quran ayələri, XI yüzildən başlayaraq, romandakı olayların bitdiyi XVIII yüzilin ortalarınacan yazıb-yaratmış şair və alimlərin şeirlərindən və hikmətli sözlərindən fəsillər üçün epiqraf seçib, Avropada, Osmanlıda və Səfəvi dövlətində onlarla coğrafi məkanın təsvirini verib.

“Yolçu” romanı yazılanacan bütövlükdə ədəbiyyatımızda səyahət-sələnamə fonunda bir boşluq mövcud idi, fikrimizcə, “Yolçu” həmin boşluğu xeyli dərəcədə doldurdu. “İbrahim bəyin səyahətnaməsi”ndən sonra bu mövzuda qələmə alınmış elə bir sanballı ədəbi nümunəyə rast gəlmirik. “Yolçu” romanı bəhs etdiyi dövrün bütün ictimai-siyasi hadisələrini əks etdirməklə sanki, oxucu şəxsən o hadisələrin şəxsən iştirakçısı olur, tam yarım əsrin xronikasının tamaşaçısına çevrilir.

Əsərdə müəllif əvvəlcə hələ I Şah Abbasın dövründən başlayaraq, Səfəvi imperiyasının çökməsinin səbəblərini təhlil edir. Bunun əsas səbəbi kimi Osmanlı dövləti ilə müharibələr göstərilir. Yüz ildən çox davam edən bu üzücü müharibələrin nəticəsi olaraq, vaxtilə dünyaya meydan oxuyan Səfəvi dövləti çökmüş, əfqanlar hücum edib onun mərkəzi əyalətlərini tutmuşdular. Mir Mahmud

xanın İsfahanı mühasirəyə alması, Sultan Hüseynin Mahmud xana təslim olmazdan qabaq ölkəni fəlakətə düçar etdikləri üçün xalqdan üzr istəməsi, onun qarşısında alçalması *(tacını öz əliylə onun başına qoyması)* imperiyanın faciəvi sonluğu idi. Mirzə Yusifin Səfəvi torpaqlarına gəlişi də məhz bu hadisələrə təsadüf edir.

Qurbanlıq üçün onun toyda və ya yasda kəsilməsinin heç bir əhəmiyyəti olmadığı kimi, iki ölkə arasında gedən müharibələrdə də hansı tərəfin qələbə qazanmasının Azərbaycan üçün, əslində, heç bir əhəmiyyəti yox idi. Hər iki halda ölkəmiz talanır, dağıntılara məruz qalırdı. Çünki bu müharibələr əsasən Azərbaycan uğrunda gedirdi, Azərbaycan ərazisində gedirdi.

Səfəvi naxədanınını son hökmdarları xalqı, o cümlədən də imperiyanın bir paçası olan Azərbaycanı xoşbəxt edə bilmədilər, əksinə, onu fəlakətə sürüklədilər. Nə yaxşı ki, xalqının qeydinə qalan, ölkəsi üçün, xalqı üçün əmin-amanlıq arzulayan Mirzə Mömin, Mirzə Hüseyn, Mirzə Mehdi xan, Məhəmməd Kazım, Mirzə Kəmaləddin kimi qeyrətli, millət təəssübü çəkən insanlar vardı və onlar bütün bunları duyur, görürdülər. Onların hər birini rüşvətxorluğun, aclıq və səfalətin və vəbanın tüğyan etdiyi bir dövrdə xalqın acınacaqlı taleyi ciddi narahat keçirir, xalqı fəlakətdən qurtarmağın yollarını arayır, dərdlərini bölüşməyə adam axtarırlar.

Mirzə Yusifin adından söylənilən məsələlər, qaldırılan problemlər, əslində, vətənpərvər ziyalı olan müəllifin vətəndaş narahatlığı, milli təəssübkeşliyidir. N.Əbdülrəhmanlı "Yolçu"dan əvvəl və sonrakı əsərlərində də o, Mirzə Cəlil kimi millətin ağrı-acısını öz çiyinlərində daşımağa artıq adət edib. *"Kim deyə bilər ki, yolçu həm də o müəllif deyil, vaxtının arzuladığı, prinsiplərini ortaya qoyduğu polifonizm "Yolçu"da öz pikinə çatıb" (7)*

N.Əbdülrəhmanlının bütün yaradıcılığını əhatə edən bir çox xüsusiyyətlər var ki, bunların biri onun tarixi keçmişimizə bağlılığı, vətənpərvərliyidir. Yazıçının yaradıcılığını tədqiq edən araşdırmaşı olaraq, bircə dəfə də olsun, onun keçmişi

mühakimə etdiyinə rast gəlmədik. Əksinə, o, daim tarixi keçmişinə ehtiram göstərir. Bu, bizə belə bir məşhur deyimi xatırladır: *"Əgər keçmişə tapançadan atəş açsan, gələcək səni topa tutar".*

N.Əbdülrəhmanlının həyatda birüzlü xarakteri, təkrardan, bayağılıqdan uzaq olması əsərlərində müəllifin imzası qoyulmasa belə, yazıçının şəxsiyyətini müəyyənləşdirməyə asanlıqla imkan verir. Düşünürəm ki, müəllif həyatda cilddən-cildə girməyi bacarmadığı kimi, bədii mətnlərində də bu cür xarakterə malik personajlar yaratmaqdan yan qaçır. Yəni, əslində, müsbət olandan mənfi, yaxud mənfi tipdən müsbət surətlər yaratmır. İstər həyatda, istərsə də bədii əsərlərdə fərdi fərd kimi, dəyişməz görmək istəyir. Hesab edirəm ki, onun səyahətnamə səpkili mövzulara üstünlük verməsi də elə bununla bağlıdır. Ona görə də "Yolçu"da surətlərin təhlilinə ehtiyyac qalmır, əsas diqqət süyetin təhlilinə yönəlir. Bu isə araşdırmaçı üçün müəyyən çətinliklər yaradır.

Nəriman Əbdürrəhmanlı şəxsi həyatında obyektiv olduğu kimi, müasir dövr ədəbiyyatımızda da öz obyektivliyi ilə seçilir. O. haqlı olaraq Nadir Şahın Azərbaycana yürüşlərinə obyektiv qiymət verir, onu əksər tarixçilərin qeyd etdiyi kimi, bir işğalçı kimi deyil, ölkəni birləşdirməsinə və əmin-amanlığı yaradılmasına cəhd edən bir insan kimi qəbul edir. Təəssüflə qeyd edək ki, bu məsələ hələ də tarixi ədəbiyyatda əsasən düzgün işıqlandırılmır.

Müəllifi narahat edən hansı məsələlərdir? Dinimizin iki yerə-sünni və şiəliyə parçalanması onun diqqətindən yayınmır.

Düşmənlərimiz tarix boyu həmişə bundan məharətlə yararlanıblar. Bu gün namaza iki azanla, bayramlara isə iki fətva ilə başlamağımız zaman-zaman hər bir müsəlmanın qəlbini ağrıdıb və ağrıdır. Nadir şah da vaxtında bunu görmüş, bu dini parçalanmanın türk dünyasını birləşdirmək yolunda başlıca əngəl olduğunu başa düşmüşdü. Əsərdən aydın olur ki, Suqovuşan qurultayında Nadir islamı didib-parçalayan bu iki məzhəb ixtilafı haqqında uzun-uzadı məruzə edir. İslam

müqəddəslərinə lənət yağdırmamağı, İmam Cəfəri-Sadiqin yaratdığı "Cəfəri" məzhəbini qəbul etməyi məsləhət bilir. Amma göründüyü kimi, Osmanlılar bu məzhəbi heç vəchlə qəbul etmək istəmir, buna Nadir Şahın hiyləsi, Osmanlı məmləkətini, islam dünyasının xəlifəliyini onların əlindən alınması kimi baxırdılar.

Cənab Allahın hər iki məzhəbin yüksək rütbəli xadimlərinə insaf verəcəyi və onların müqəddəs dinimizi birləşdirəcəyi arzusu ilə bu məsələni onların öhdəsinə buraxırıq. Müəllifin özü demiş: *"Üç şey barədə mülahizə yürütməkdə tələsmək olmaz: inandığına əmin olmamış Allah barədə, öz əməllərini xatırlamamış başqalarının əməlləri barədə, dan yerinin ağarmasını görməmiş sabahkı gün barədə" (5, 242).* Çünki, ərəblər deyirlər, *"gecə hamilədir, səhər nə doğacaq, bəlli deyil".*

Əksər tarixi romanlarda olduğu kimi, "Yolçu"da da yazıçı yalnız tarixi hadisələrin xronikasını verməklə yetinir, təsvir olunan hadisələrə Yolçu kənardan bir seyirçi kimi baxır, hadisələrə müdaxilə etmir. Hansı hadisədə Nadir Şahın haqlı olub-olmaması sanki onu maraqlandırmır. Milli mənafeyimizi erməni qızlarının ayaqları altına atılanda *"sapı özümüzdən olan baltalara"* etiraz səsini ucaltmır. Bəlkə də başının cəllad kötüyü üstünə qoyulmasından ehtiyyat edir. Əslində, bunun səbəbini əsərin salnamə üslubunda yazılması ilə izah edilsə, daha düzgün olar. Onun əksər qəhrəmanları kimi, Mirzə Yusif Tiflisi də yetərincə mübariz deyil. O, yalnız qəzavü-qədəri kağıza köçürməklə kifayətlənir. Müəllifin fikrincə, istər Mirzə Yusifin başına gələnlər, istər Nadir şahın əməlləri alın yazısı, tale, qismətdir. *"Qismət belədir", "yazıya pozu yoxdur"* - konsepsiyası N.Əbdülrəhmanlı yaradıcılığının əsas qayəsi bu əsərdə də aydın sezilir.

Ümumiyyətlə, N.Əbdülrəhmanlının da mənsub olduğu 80-cilər ədəbi nəslində zamandan şikayət bir ənənə halını alıb. Onlar cəmiyyətin nöqsanlarını yalnız göstərə bilirlər, bu nöqsanları dəf etməyin yollarını açıb göstərmirlər. M.F.Axundov demiş "zalımın atasını yandır"mağa təşəbbüs etmirlər. Həmişə 80-

cilər ədəbi nəslini mütaliə edərkən böyük fransız yazıçısı Jül Vernin taleyin hökmünə kor-korana boyun əyməyən, tənha adada xariqələr yaradan "Sirli ada" əsərinin qəhrəmanlarını xatırlayıram.

Bir araşdırmaçı olaraq tarixi-bədii əsərlərdə tarixi şəxsiyyətlərə yazıçı təxəyyülünün müdaxiləsinin əleyhinəyəm. Təxəyyül təsvirləri dövlət xadimlərinin, qəhrəmanların böyük şəxsiyyətinə kölgə salmamaq şərti ilə edilməlidir. Məsələn, M.S.Ordubadi tarixi romanlarında tarixi şəxsiyyətləri bir bədii obraz səviyyəsinə endirir ki, bu da, fikrimcə, yolverilməzdir. Bu mənada N. Əbülrəhmanlı istisnadır. O, "Yolçu" romanında Nadir Şahı tarixi şəxsiyyət kimi, olduğutək saxlamağa müvəffəq olub.

Nadir Şah, dövləti möhkəmləndirmək yolunda heç kimə rəhm etmir. Yeganə qardaşı, anasının ölümqabağı ona dönə-dönə tapşırdığı kiçik qardaşı İbrahim xanı kiçik bir nöqsana görə, Əbivərddə qoşunun gözü qarşısında qamçılatdırır, böyük oğlu və vəliəhdi Rzaqulu xanın gözlərinə mil çəkdirir. Bununla yanaşı, o, böyük sərkərdəlik məharətinə malik olsa da, siyasətdə fərsizdir. Təsadüfi deyil ki, ermənilər hökmdarın bu zəifliyindən məharətlə yararlanırlar. Onlar asanlıqla Nadir Şahın qılığına girir, ondan fərmanlar alır və müxtəlif yerlərə səpələnmiş ermənilərı Üçmüəzzin ətrafında yerləşdirirlər. Əsərdə oxuyuruq: *"Xəlifənin erməni əsirlərini alıb Üçmüəzzinə göndərdiyini keyfinin kök vaxtında Böyük Xanımıza söylədim, gülüb dedi ki, Əbülhəsən xan, qoy göndərsin, Üçmüəzzin də bizimdi, Rəvan vilayəti də bizimdi, Nəqşivan da bizimdi, bir ovuc ermənidən bizə nə qorxu?"(5, 267)*

Müəllif Mirzə Yusifin dili ilə o vaxt buraxılan səhvlərin - istər osmanlıların, istərsə də Səfəvilərin ermənilərə ciddi qüvvə kimi baxmamalarına təəssüflənir. *"Onları da kim gəlsə, onun tərəfində olub min cür əməllə bu tərəflərdə möhkəmlənməyə, kilsələr tikməyə, üstəlik, albanlardan qalma məbədləri ələ keçirib "əl gəzdirməyə", kitabları yandırmağa, bir çoxlarını öz dillərinə çevirib*

saxlamağa, Osmanlıdan tutmuş Xorasana, hətta Hindistanacan səpələnmiş həmtayfalarını Üçmüəzzin ətrafına yığmağa can atıblar. Amma bu gün yox, uzun illərə hesablanmış bu niyyət xanədan taxtına qoyulmuş barıt kimi bir şeydi, nə vaxtsa partlayıb ağlasığmaz fəsad törədəcək" (yenə orada s.267).

Mirzə Yusifin narahatlığı heç də əbəs deyimiş. Əsrlərcə hazırlanmış bu barıt anbarı XX yüzilin sonlarında 20 yanvar faciəsinin və əsrin ən böyük soyqırımı hesab edilən Xocalı faciəsinin timsalında baş verdi. Zaman-zaman buraxdığımız səhvlər nəticəsində xalqımızın minlərlə say-seçmə igidləri ermənilərin əlilə qətlə yetirildi.

Əsərdən oxuyuruq: "Həmin məqamda ağlımdan keçirdim ki, bunlar Üçmüəzzini Rəvanın göbəyində nahaqdan qurmayıblar. Güneydən gələnləri bu tərəflərdə yerləşdirmək niyyətləri də elə kilsədə doğulub, nəfsləri ucbatından Allahın evini də şər yuvasına döndəriblər" (5, 258). Bu, həqiqətən, belədir. Ermənilər, ibadət evlərini şər yuvasına döndərməklə artıq çoxdan o kilsələri dünyanın ən təhlükəli terror mərkəzlərini yaradıblar. Bütün terror və sui-qəsdlərin planları kilsədə qurulur. Digər xalqların tarix boyu bir qız ismətindən ötrü uzun müharibələr apardıqları halda ermənilər qızlarını, qadınlarını belə bu çirkin əməllərə vasitə etməkdən çəkinmirlər. Yaşının ahıl çağında Mirzə Yusif özünün uşaqlıq çağlarını yada salır, *"erməni Mamikonun evdə arvadını yad kişiylə tutub hönkür-hönkür ağladığını"* xatırlayır. *(5, 11)*

Öz millətinə sevgilərini başqa millətlərə nifrət, öz xoşbəxtliyini özgə millətlərin bədbəxtliyi üzərində qurmasaydılar erməni təəssübkeşliyinə həqiqətən də qibtə etməyə dəyərdi. Müəllif yazır: *"Deyirdilər, erməni xəlifənin adamları Şamaxıdan heyvanlara alaf, üstəlik, un, çörək, buğda, arpa, şərab gətiriblər, əməlli-başlı bazar açılıb, bir çanaq buğdaya bir erməni əsiri alırlar". (5,261)*

Yol müqəddəsdir, and yerimizdir. Əhd-peyman quranda yollara and içirik. Dinimizdə yol salmaq böyük savablardan sayılır. N.Əbdülrəhmanlı da tariximizin

yarım əsrliyinə sanballı yol saldı, bununla özü də tarixin bir parçasına çevrildi. Ustad yazıçı, akademik K.Abdullanın təbirincə desək, "*Nəriman artıq neçə romanıyla Azərbaycan ədəbiyyatı deyilən "uzun, incə" bir yoldadır. Sakit tərzi, mütəvazi durumu ilə öz-özüylə danışa-danışa getməyindədir... Yol da onunla bir yerdə hərəkət edir. Çünki, həqiqətən, kim deyibsə düz deyib: "yolla gedən olmasa, bilinməz, bilinməz gəlir bu yol, ya gedir." Yol da onunla bir yerdə bizə tərəf gəlir. O, yolu bizim yanımıza gətirə bilənlərdəndir". (6)*

Nadir Şahın özünə vəliəhd, Azərbaycana vali təyin etdiyi qardaşı İbrahim xan da fərqinə varmadan qardaşının ermənilərlə bağlı siyasətini davam etdirir. Onun əmri ilə *"Azərbaycan ölkəsinin hüdudları daxilində erməni tacirlərə əlverişli şərait yaradılması, bir kilsənin tikilməsi üçün yer, iki kilsə üçünsə mülk ayrılma"sı (5, 324)* nəzərdə tutulurdu. Üçmüəzzin kilsəsinin başçısı olan xəlifənin - katolikosun, Şahın və İbrahim xanın yanında nüfuzu o qədər böyük idi ki, nəinki ermənilər, hətta türklər, türkmənlər belə onun yanına minnətə gəlirdilər.

Romanda ermənilər məkrli, təhlükəli düşmənlər kimi təsvir olunur. Onların Nadirin türk dünyasının birliyinə nail olmaq üçün sünnü-şiə ədavətini aradan qaldırmağa çalışmasına əngəl törədirlər. Erməni xəlifə, Nadirin bu siyasətini Əfşarlar imperiyasının möhkəmlənməsində əsas vasitə olduğunu yaxşı anlayırdı. Bunu sarayda yaşayan Mirzə Hüseyn də, Mirzə Yusif də gözəl başa düşürdülər. Amma əsərin bir neçə yerində özlərinin də səmimi etiraflarına görə, bu işə mane olacaq gücdə deyildilər. Çünki, erməni xəlifəsi bilavasitə Şahın və vəliəhd İbrahim xanın himayəsi altında idi. Əsərdən oxuyuruq: *"Mirzə Mehdinin dediyinə görə, xəlifə heyətdən xəbərsiz Böyük Xana qənirsiz bir erməni gözəli peşkəş gətirmişdi, o da düz iki həftə xaçpərəst qızı yatağında saxladı, nəfsini doydurandan sonra da ermənidən dönmə xidmətçilərindən birinə bağışladı". (5, 279)* Hiyləgər xəlifə

İbrahim xana *"Sənin timsalında Şahımızı görürəm"* deməklə, onun qəlbində qardaşına qarşı xəyanət toxumu əkməyə çalışırdı.

Nadir Şahı bütün mənfi və müsbət özəllikləri ilə verən N.Əbdülrəhmanlı Şahın dövründə baş verən haqsızlıqları, əhalinin - xüsusilə də Borçalı əhalisinin - köçürülməsini qəmli bir təhkiyə ilə nağıl edir. Nadir Şah ölkəni birləşdirdiyi qədər də xalqı ağır vergilərlə soyub talayır, xalq isə üsyanlar qaldırmaqla ona etiraz edirlər. Əsərdə bu üsyanların geniş təsviri verilir. Şah doğma qardaşı İbrahimi itirir Dağıstanda üsyançılarla döyüşlərin birində itirir. Müəlif bunu obrazlı belə ifadə edir: *"İbrahim xan taxtını qurdu, baxtını qura bilmədi" (5, 446).*

Müəllifin əsər boyu təbliğ etdiyi ideya budur: *"İrəli ümidlə, geri minnətdarlıqla, yuxarı inamla, ətrafa sevgi ilə nəzər salmaq lazımdır yoxsa yaşamaq məşəqqət olar" (5, 293).* Bunlara əməl etməyənlərin həyatı həqiqətən məşəqqətə çevrilir. Nadirin II Təhmasibi, onun oğlu III Abbası hakimiyyətdən devirib zindana saldırması Səfəvi xanədanı üçün yetərincə böyük cəza idi. Onların vəliəhd Rzaqulu xan tərəfindən edam edilmələri sonda Rzaqulu xanın özünün şikəst edilməsinə səbəb oldu. Eyni zamanda tale Nadir Şaha böyük oğlunu kor etdirdi ki, kor etdirib məmləkətə buraxdığı insanların ah-naləsini yaşasın.

Roman Şəki hadisələri ilə, Hacı Çələbi Qurban oğlunun Şəkidə Nadir şaha qarşı üsyan qaldırıb Məlik Nəcəfi ordan qovması, əhalini "Gələsən-görəsən" və "Kiş" qalalarına yığıb şaha müqavimət göstərməsi hadisələrinin təsviri ilə bitir. Yazıçı haqlı olaraq bu məsələni, tarixçilərin iddia etdikləri kimi, müstəqil dövlətliçilik ənənələrinin bərpası kimi deyil, ölkəmizin parçalanmasına, yenidən yadellilərin zülmü altına düşməsinə səbəb olan hadisələr kimi qiymətləndirir.

Belə hesab edirik ki, bir insanın həyatı görməsi, duyması üçün gözlərinin görməsi mütləq deyil, əsas bəsirət gözünün görməsi vacibdir ki, Yaradanın min bir nemətini özününkü saymasın, bu nemətlərin sadəcə daşıyıcısı olduğunu dərk etsin. Orta əsrlərin sufi dərviş təriqətlərinin üzvləri də vəcdə gələndə gözlərini yumur, bu

zaman Allahı daha yaxşı görür, dərk edirdilər. Nəriman Əbdülrəhmanlı yazır: *"İnsan ağlayanda, dua eyləyəndə, sevəndə, xəyala dalanda gözlərini yumur, yəqin dərk eləyir ki, həyatının ən gözəl məqamlarını görmür, qəlbiylə duyur".*

Araşdırmaçı olaraq tam məsuliyyəti ilə deyə bilərəm ki, bu gün ədəbiyyatımızda N.Əbdülrəhmanlı qədər təhkiyəsi şirin, oxucuya ətrafı ununtduran, onu öz əlindən alıb indiyə qədər tanımadığı, görmədiyi, xəyalına belə gətirə bilmədiyi sirli-sehirli bir aləmə aparan ikinci bir qələm əhlinə rast gəlmək çətindir. Mənə görə, təhkiyədə Daniel Defo dünya ədəbiyyatı üçün kimdirsə, Nəriman Əbdülrəhmanlı da Azərbaycan ədəbiyyatı üçün odur.

"Yolçu" hər bir oxucunun sevə-sevə oxuduğu, dəyər verdiyi bir əsərdir. Bu isə ilk növbədə N.Əbdülrəhmanlının kifayət qədər geniş potensial imkana malik bir romançı olması ilə bağlıdır.

"Yolçu" romanı talesiz, özünü alın yazısının axarına verən, var-dövlətə əsla etina etməyən, bütün sərvəti təkcə kitabla dolu sandıq olan, elə bu sandıqla da yarım əsrlik tariximizi köçürdüyü salnaməsini yağışdan, qardan, küləkdən, vəbadan şövqlə qoruyan fədakar bir insanın hekayətidir.

Tiflisdəki xoşbəxtlik və fəlakətlə dolu həyatı, Fransadakı təhsil illəri, Veneziyada Violetta ilə üçillik eşq məcaraları, Osmanlıdakı, Səfəvi məmləkətində, Şəkidə başına gələn hadisələri görmək Mirzə Yusifin həqiqətən də alın yazısı idimi? Qəlbində, beynində qoruyub saxladıqlarını sətirlərə köçürməyə nail olsa da, karvansara hücrələrində həyatını tənhalıqda başa vurdu, Böyük Yaradan tərəfindən ona ayrılan ömür payını və taleh qismətini yaşadı və bütün bu hadisələri yaşaya-yaşaya da Allahın onun qarşısına qoyduğu missiyanı yerinə yetirdi. Ürəkləri göynədən, nakam sonluqlu bu həyat hekayəsi, əslində, hərc-mərclik dövründə hər addımbaşı ölümə tuş gələn minlərlə yolçunun həyat hekayəsi idi.

Belə hesab edirəm ki, insan mübarizə aparmalı, yalnız son məqamda taleyə boyun əyməlidir. Müəlliflə razılaşmamaq mümkün deyil ki, insan Yaradan qarşısında həqiqətən də acizdir və müqəddəs kitabımızda da yazıldığı kimi *"başınıza o işlər gəlir ki, onlar qabaqcadan sizin alnınıza yazılıb".* N.Əbdülrəhmanlının özünün qeyd etdiyi kimi, *"İnsan ömrünün harda bitəcəyini bilsəydi, həyat mənasız olardı...". (5, 70)*

Əsərdə mətnin mürəkkəbliyi oxucu üçün romanı oxuyub dərk etməkdə müəyyən çətinlik yarada bilər. Lakin bədii nəsrin mükəmməl nümunəsi sayılan "Yolçu" romanı maraqlı olduğu qədər də çətindir. *"Var Azərbaycan ədəbiyyatında ağır mətnlər. Məsələn, ilk yadıma gələn Süleyman Rəhimovun "Saçlı" romanıdır. Bədii sənətkarlığın zirvələrindən biri. Bu bütöv nəfəsi, bu mükəmməl üslubu, bu möhtəşəm idarəçiliyi (bəli, bəli, idarəçiliyi! Mətn daxilində də idarəçilik var!) itirilmiş bədii cənnət, qurumuş ağac sanmağa tələsənlər yəqin ki, oldu. Amma elə deyilmiş. Azərbaycan bədii təfəkkürü bir daha bu düşünülməz ağırlığın altına girməyi bacardı. Eyni xəttin bu gün də davam etməsinin ədəbi və bədii sevincini "Yolçu" yaşatdı". (7)*

Yolçu Mirzə Yusif Tiflislinin ömür YOLçuluğu missiyasını bu gün Nəriman Əbdülrəhmanlı ədəbiyyat təsərrüfatımızda uğurla davam etdirir. Sözün həqiqi mənasında ədəbiyyat fədaisi olan yazıçını mütəfəkkirliyə aparan bu YOLda müəllifə yaradıcılıq uğurları arzu edirik. YOLçu YOLda gərək...

P.S.Obyektiv səbəblər üzündən N.Əbdülrəhmanlının "Qurban" romanını tədqiqata cəlb edə bilmədik.

NƏTİCƏ

Daha öncə N.Əbdülrəhmanlının ədəbiyyatımızdakı mövqeyini bacara bildiyimiz qədər işıqlandırdıq. Yazçının bədii yaradıcılığı özünəməxsusdur, o, həm Azərbaycan nəsrinin, həm də öz ədəbi nəslinin nümayəndələri arasında öz nəfəsi və dəsti-xətti ilə ceçilənlərdəndir. Sabir Bəşirov yazır: *"Ədəbiyyat tariximizi 80-cilər ədəbi nəslinin imzası olmadan təsəvvür etmək çətindir" (Sabir Bəşirov, göstərilən əsəri, səh.4).* O, bu ədəbi nəslin yaradıcılığını hərəsinin öz rəngi, öz ətri, öz gözəlliyi olan bir bağçaya bənzədir.

Müəllif haqlıdır. Azərbaycan ədəbiyyatını 80-cilər ədəbi nəsilsiz təsəvvür etmək mümkün olmadığı kimi, həmin ədəbi nəsli də N.Əbdülrəhmanlısız təsəvvür etmək mümkün deyil. Azərbaycan xalqının problemlərini *(həm də köklü problemlərini),* onun qədər bilən ikinci bir qələm sahibi tanımıram. Ədəbiyyatımız, xüsusilə də tərcümə ədəbiyyatımız bu gün onsuz necə görünərdi? N.Əbdülrəhmanlının ədəbiyyatımızdakı cari mövqeyini onun qələm dostları da qeyd-şərtsiz təsdiq edirlər. Şair-publisist Tofiq Abdin yazır: *"...Bu günkü ədəbi mühitdə öz yaşıdları arasında Nərimanı əvəz edəcək bir ziyalını düşünə bilmirəm. Onun yazı yazmaq qabiliyyətini, seriallar çəkmək istedadını və tərcümələr etmək ustalığını bir tərəfə qoyuram. Bu gün onun Gürcüstandan olan ziyalı adamlara dostcasına kömək eləməyində alternativ yoxdur... Bunu sanki, bir borc bilir və incimədən bezmədən eləyir ki, vallah, bu da asan iş deyil. Bu cür çalxantılarda Nərimanın güddüyü bir şey də yoxdur, amma o, içindəki təmiz işığın aydınlığında bunları eləyir". (Vidadi Məmmədovdan Nəriman Əbdülrəhmanlıya").*

Bu sözlər həm də N.Əbdülrəhmanlının xarakterini açmağa imkan verir

N.Əbdülrəhmanlı həyatında və düşüncələrində tamamilə müstəqil adamdır. Öz izi, öz yolu var. Ona görə də gün-güzəranın yalnız yemək-içməkdən ibarət olduğunu güman edən adamlar tərəfindən sevilmir.

Mən onun valeybol oynayıb-oynamadığını bilmirəm. Amma bu oyunda topu torun əks tərəfinə, heç kəsin gözləmədiyi səmtə atan qazanır. Ədəbiyyat aləmində N.Əbdülrəhmanlı da belədir. O, əsasən heç kəsin gözləmədiyi, ağlına gətirmədiyi mövzulardan yazır.

Müəllifin xarakterini müəyyənləşdirmək üçün ən yaxşı vasitə əsərləridir. . N.Əbdülrəhmanlının əsərlərini oxuduqca başa düşmək çətin deyil ki, o, öz dərdlərini tək çəkir, problemlərini özü yaşayır. "Yalqız"da yazır: *"...adamların arasında özümü tox tutdum, amma evdə zülüm-zülüm ağladım, tamam yalqız qalmağıma ağladım".*

Allahın hər bir bəndəsindən ötrü bəxş etdiklərindən ancaq ona məxsus olan cəhətləri götürən, heç kəsə bənzəmək istəməyən N.Əbdülrəhmanlı belə deyir: *"Başqasının sözünü demək özgəsinin uşağını götürüb əzizləməyə oxşayır, nə qədər can yandırsan da doğmalıq hiss eləməyəcəksən".*

Bu tanınmış qələm sahibi ilə bir neçə dəfə atüstü söhbət məndə belə bir qənaət yaradıb ki, o, bacardığı qədər hamının işinə yarayan, insanlardan bacardığı köməyi əsirgəməyən, "Yolsuz"da yazdığı kimi *"...yıxılan bir evə çiyin verən"* insandır.

N.Əbdülrəhmanlıda da 80-cılar ədəbi nəslinin əksər nümayəndələri kimi, yalqızlıq *"xəstəliyi"* var. Həmin nəslə yazıçı və şairlər dövrün qlobal problemlərini, məsələn, Qarabağ məsələsini özlərindən əvvəlki ədəbi nəsillərdən daha çox yaşasalar, daha çox göstərsələr də əsərlərində daha çox zamandan şikayət nəzərə çarpır. *"Bu şikayət onların içində yaxşı yaşayanlara da, ortabab yaşayanlara da aiddir".* Bəlkə də bu, Allahın verdiyi ömür möhlətini lütf sayan N.Əbdülrəhmanlının alın yazısıdır. Amma gəlin görək o, öz istədiyi kimi gözəl həyat şəraiti ilə təmin olunsaydı, bu gün oxucuların könlünü oxşayan əsərlər yarada bilərdimi?

Bu sətirləri qələmə alanda Dağıstan şairi Süleyman Stalski haqqında bir hekayəni xatırladım. Bir gün onu öz kasıb evindən çox gözəl şəraiti olan evə

köçürürlər, düşünürlər ki, daha yaxşı yazıb-yaradar. Lakin şair orda heç bir şey yarada bilmir, öz kasıb daxmasına qayıdır. Böyük marksist nəzəriyyəçi Trotski əksər nəzəri əsərlərini tramvayda yazıb.

N.Əbdülrəhmanlı əvəzökardır, bir neçə cızmaqara yazıb böyük mükafatlara iddia edənlərin əksinə olaraq o, *"..."Yalqız" və "Könül elçisi" romanlarını yazandan sonra yazıçı adlanmağa haqqım olduğunu fikirləşdim. Ancaq heç vaxt bu adı qazanmaq üçün dəridən qabıqdan çıxmamışam, ən böyük iddiam özümü təmin eləyən yazılar yazmaq olub. Bununla belə, fərd kimi, özümlə yanaşı Azərbaycan ədəbiyyatı üçün də məsuliyyət daşıdığımı duyuram, bu isə məndə başqa vahimə doğurur,"* - deyir.

80-cilər ədəbi nıslinin nümayəndələri tez-tez özlərini "60-cılar" adlanan ədəbi nəsillə müqayisə edirlər. Lakin onların heç biri obyektiv səbəblər üzündən "60-cılar" qədər məşhurlaşa, ictimai mövqe qazana bilmədi. Təkrardan qorxmayıb deyək ki, zamanın çalxantılarında çalxanan 80-cılar isə daha çox zamandan şikayətlənir, bu da nəticə vermədikdə, bunu tale qismətləri kimi qəbul edib susurlar.

Bu gün bir çox Azərbaycan yazıçı və şairləri *(təkcə bu günmü?)* əsərlər yazanda yalnız tarixə müraciət edirlər. Tarixi bilsələr də, bilməsələr də *(N.Əbdülrəhmanlı istesnadır)*, qələmlərini işlədirlər, yəni yazıçılarımız yalnız tarixçi olmağı bacarırlar. Bu, bir yandan bəlkə də Azərbaycan oxucusunun tarixə olan marağı ilə bağlıdır. Lakin hansı yazıçı və şairimiz qəflətən düşdüyü okean adalarından birinin kordinatlarını təyin edə bilər? Ona görə də həmişə yazıçılarımızı lazım gələndə okeanoloq, çoğrafiyaçı, mühəndis olan və onlarla bu kimi elmləri bilən dünya yazıçıları ilə müqayisə edirəm.

N.Əbdülrəhmanlının nəsr dili çox sadədir, cəlbedici və özünəməxsus təhkiyə üsuluna malikdir. Azərbaycan romançılığının hələ ki, üç sanballı əsərlə tanınan nümayəndəsidir. Onun özü və qəhrəmanları, klassik mənada ədəbi dildə deyil,

canlı xalq dilində, daha doğrusu, dilimizin Qərb şivəsində danışırlar. Amma bu dil çox sadə və başadüşüləndir. Əlbəttə, araşdırmaçı kimi, əsasən vahid ədəbi dildə yazmağın tərəfdarıyam. Bu gün hər bölgə yazarının öz şivəsində yazması artıq bir dəb halını alıb, ədəbiyyatımız kimi, dilimiz də öz məcrasından çıxıb. Bununla belə, dilin koloritini təmin etmək üçün şivə sözlərini yerli-yerində işlətməyin də əleyhinə deyiləm.

Bu gün N.Əbdülrəhmanlı bütün gücü ilə çalışır, ədəbiyyatımızı zənginləşdirən əsərlər yazmaqla yanaşı, dünya ədəbiyyatının ən gözəl örnəklərini dilimizə çevirir, özünün qeyd etdiyi kimi *"ədəbi mühit üçün deyil, ədəbiyyat üçün nəsə etməyə çalışır"*. O, bütün varlığı ilə inanır ki, bu gün ədəbiyyatımızda səs-küylə gündəmdə qalmağa çalışan, bir-birini təhqir etməkdən belə çəkinməyən adamların ortaya çıxardıqlarının ömrü çox da uzun sürməyəcək, o əsərlər elə öz müəlliflərinin sağlıqlarına unudulacaqlar. Ona görə də ən ağır zamanlarında belə o, yersiz olaraq kimsəni tərifləməyib, kiminsə xoşuna gəlmək üçün mənəviyyatına və əxlaqına zidd hərəkət etməyib. N.Əbdülrəhmanlı bütün varlığı ilə inanır ki, *"...Ədəbiyyatın ölçüsü-biçisi bu gün deyil. Bu gün çox şeylər eləyə bilərsən, nekroloqsayağı yazıb ona-buna sataşa bilərsən, amma bunlar ciddi ədəbiyyatın mövzusu deyil. Sabaha yalnız sənin yazdıqların qalacaq..."*

Ədəbiyyat siyahısı

1. Nəriman Əbdülrəhmanlı. "Yelçəkən" Povest və hekayələr. Bakı. "Adiloğlu", 2004

2. Nəriman Əbdülrəhmanlı. "Könül Elçisi, yaxud Don Xuan de persia-Oruc bəy Bayatın hekayəti". Roman. Bakı, Qanun, 2006.

3. Nəriman Əbdülrəhmanlı. "Yalqız". Roman. Bakı, "Əli və Nino", 2010.

4. Nəriman Əbdülrəhmanlı. "Yolsuz". Roman. Bakı, "Əli və Nino", 2013.

5. Nəriman Əbdülrəhmanlı. "Yolçu". Roman. "Qanun" Nəşriyyatı, Bakı 2013.

6.Sabir Bəşirov. "Nəriman Əbdülrəhmanlı: İŞIQ ADAMI". "Çinar-Çap", Bakı – 2010

7.Kamal Abdulla. "Yol-xüsusi isim" http://www.kulis.az/news/

YEQZAR CƏFƏRLİ

Yeqzar İsfəndiyar oğlu Cəfərli 1991-ci ildə Lənkəran şəhərində anadan olub.

Azərbaycan Universitetinin *"Azərbaycan dili və ədəbiyyatı"* fakültəsini bitirib.

Qafqaz Universitetində *"Azərbaycan ədəbiyyatı"* ixtisası üzrə magistratura təhsili alıb.

"Əli Fəhmi dünyası" adlı monoqrafiyası (2011) və *"Uçurum"* (2012) adlı hekayələr kitabı işıq üzü görüb. Dövri mətbuatda elmi məqalələri və hekayələri ilə müntəzəm çıxış edir.

Hazırda *"Dünya ədəbiyyatı" (ABŞ ədəbiyyatı)* ixtisası üzrə dissertantura təhsili alır.

MÜNDƏRİCAT

ÖN SÖZ.....5
GİRİŞ.....8
HEKAYƏLƏRİ.....20
POVESTLƏRİ.....38
ROMANLARI.....47
“KÖNÜL ELÇİSİ” ROMANI.....48
“YALQIZ” ROMANI.....59
“YOLSUZ” ROMANI.....70
“YOLÇU” ROMANI.....76
NƏTİCƏ.....86
ƏDƏBİYYAT SİYAHISI.....90